# AXIRZAMANI BƏDİÜZZAMAN İLƏ ANLAMAQ

HARUN YƏHYA

ADNAN OKTAR

## MÜNDƏRİCAT


Axırzamanda gələcək hz. Mehdi şəxsi mənəvi deyil

Şəxs və şəxsi mənəvi bir-birini tamamlayır

Bədiüzzaman hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini necə izah etmişdir?

Bədiüzzaman əsərlərində, özünün "Son mücəddid" və "Mehdi" olmadığını dəlilləriylə birlikdə izah etmişdir

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi

yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

## Axırzamanda gələn hz. Mehdi şəxsi mənəvi deyil

Peyğəmbərimiz (s.ə.v) tərəfindən Axırzamanda göndəriləcəyi müjdələnən, yer üzündəki fitnələri ortadan qaldıracaq, bütün dünyaya sülh, ədalət, bolluq, rahatlıq, xoşbəxtlik və rifah gətirəcək çox mübarək və qiymətli bir şəxs olan hz. Mehdinin zühuru əsrlərdir İslam ümməti tərəfindən gözlənilən müjdəli bir hadisədir. Necə ki, rəvayətlərdə hz. Mehdinin çıxış əlaməti olaraq bildirilən hadisələrin bir çoxunun ard-arda reallaşması, bu zühurun yaxın olduğunun açıq-aşkar bir göstəricisidir. Peyğəmbərimiz (s.ə.v)-in bir çox hədisində, adıyla, xüsusiyyətləriylə və edəcəyi işlərlə təfərrüatlı olaraq təsvir edilən hz. Mehdinin gələcəyinə dair Quran ayələrində də işarəli mənalarda müxtəlif müjdələr var. Bütün bu məlumatlar diqqətlə araşdırıldığında mehdiyyət mövzusunun müzakirəyə yer verməyəcək dərəcədə qətiliyi ağıl və vicdan sahibi hər insan tərəfindən asanlıqla aydın olur.

Bədiüzzaman Səid Nursinin şərhləri də, Quranda olan işarələr və Peyğəmbərimiz (s.ə.v)-in hədisləriylə eyni istiqamətdədir. Ancaq Bədiüzzamanın əsərlərində istifadə etdiyi "şəxsi mənəvi" mövzusundakı yanlış anlaşılma hz. Mehdi üçün də məqbuldur. Rəvayətlərdən və İslam alimlərinin izahlarından hz. Mehdinin mənəvi bir şəxs olmayacağı, fiziki xüsusiyyətlərinə, xarakter və əxlaqına, soyuna qədər təfərrüatlı olaraq təsvir edilmiş mübarək bir şəxs olacağı, açıq və dəqiq bir şəkildə aydındır. Ancaq əlbəttə ki, hz. Mehdi də özündən əvvəlki bütün elçilər kimi mənəvi bir şəxsi olacaq. Hətta rəvayətlərdə bu şəxsi mənəvinin bütün yer üzünü ehtiva edəcəyi bildirilmişdir. Lakin hz. Mehdinin özü də şəxsən işin başında olacaq. Bu səbəbdən, hz. Mehdinin şəxsi mənəvi də ona tabe olanlarla bərabər başlarında imam olaraq özüdür.

## Şəxs və şəxsi mənəvi bir-birini tamamlayır
## Şəxs və şəxsi mənəvi ruh və bədən kimidir

Bir şəxs olmadan onun şəxsi mənəvisindən söz gedə bilməz. Çünki ikisi bir-birini tamamlayır, sanki ruh və bədən kimidir. Birini qəbulu edib, digərinin rədd etmək olmaz.

Hər peyğəmbərin və elçinin ətrafında onun mənəviyyatının təcəllisi olan bir şəxsi mənəvi meydana gəlir. O elçiyə tabe olan, onu nümunə götürən, onun təbliğini izləyənlərin əmələ gətirdiyi bir kütlə və topluluq da, onun şəxsi mənəvisini əmələ gətirər.

Hər mömin birliyinin bir öndəri olduğu, Quranda bildirilən Allahın bir qanunudur. Bu səbəbdən, Bədiüzzaman Səid Nursi də "şəxsi mənəvi" terminini istifadə edərkən Quranın qaydalarında olduğu şəkildə istifadə etmişdir. Necə ki, Bədiüzzaman Səid Nursi də öz tələbələri və əsərləri üçün şəxsi mənəvi təbirini istifadə edərkən, bu şəxsi mənəvisinin başında yenə özüdür. Risalə-i Nurun şəxsi mənəvisinə, əsərlər ilə onu izləyən tələbələr də daxildir, amma nur hərəkətinin öndəri Bədiüzzaman da bu ifadədən kənar hesab edilə bilməz.

Şəxsi mənəvi anlayışını, onun öndəri olan, başındakı şəxsdən ayrı, müstəqil və tabesiz qiymətləndirmək böyük bir səhv olar. Quranda bəhsi keçən bütün mömin topluluqlarının başında bir elçi ya da bir komandir yer alır. Axırzamanda da Quran əxlaqının bütün yer üzünə hakim olması kimi dünya tarixinin çox müstəsna bir dövründə möminlərin rəhbərsiz, özbaşına bir topluluq kimi qalmaları Quranda bildirilən qanunlara uyğun deyil (ən doğrusunu Allah bilər).

Hz. Mehdi də mənəvi bir şəxs olaraq deyil, şəxsən gəlib Axırzamanda müsəlmanların başına keçəcək, onları Allahın izniylə çətinlik və sıxıntıdan xilas edib rahatlıq, ədalət, nemət və bolluğa qovuşduracaq. Mehdinin bir şəxs olaraq gəlib, öz camaatının başında duraraq o camaatın şəxsi mənəvisini təmsil edərək fəaliyyət edəcəyini Bədiüzzaman çox açıq-aydın bir şəkildə izah etmişdir.

Dəfələrlə məktublarımda işarə etdiyim kimi, **HZ. MEHDİ ALİ-RƏSULUN** (Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn hz. Mehdinin) **TƏMSİL ETDİYİ QÜDSİ** (mübarək, müqəddəs) CAMAATININ MƏNƏVİ ŞƏXSİYYƏTİNİN ÜÇ VƏZİFƏSİ var. Əgər tez qiyamət qopmasa və bəşər (insanlar) tamamilə yoldan çıxmazsa, o vəzifələri onun cəmiyyəti və seyidlər camaatı (Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələnlərin) edəcəyini Rəhməti İlahiyyədən (Allahın rəhmətindən) gözləyirik və **ONUN ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQ.** *(Emirdağ Lahikası, səh. 259)*

**<u>Bədiüzzaman, bu sözündə hz. Mehdinin Axırzamanda şübhəsiz gələcəyini və hz. Mehdi ilə mübarək camaatının bərabər yerinə yetirəcəkləri üç böyük vəzifə olacağını izah edir:</u>**

Bədiüzzaman bu sözündə hz. Mehdi ilə bağlı vacib bir neçə mövzunu birdən izah etmişdir. Bədiüzzaman əvvəlcə **"HZ. MEHDİ ALİ-RƏSULUN TƏMSİL ETDİYİ"** sözləriylə, hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələcək bir şəxs olduğunu xatırlatmışdır. Bir şəxsi mənəvinin hər hansı bir soydan gəlməsi şübhəsiz ki, mümkün deyil. Ancaq bir insanın bir başqasının soyundan gəlməsi mümkündür. Bədiüzzaman da burada bu həqiqəti vurğulamış, hz. Mehdinin mənəvi bir şəxsiyyət olmadığını, **"BİR ŞƏXS"** olduğunu açıq-aydın bildirmişdir.

Bədiüzzaman bu sözündə həmçinin, hz. Mehdinin və camaatının iki ayrı anlayış olduğunu xatırladaraq, hz. Mehdinin "mənəvi bir şəxs" olduğu iddiasının əsassız olduğunu yenidən ortaya qoymuşdur. Bədiüzzaman **"HZ. MEHDİ ALİ-RƏSULUN TƏMSİL ETDİYİ qüdsi camaatın şəxsi mənəvisi"** sözləriylə "hz. Mehdinin bir camaatı" olacağını və **"bu camaatın başında da onu təmsil edən hz. Mehdinin şəxsən olacağını"** ifadə etmişdir. Hz. Mehdinin bir camaatının olması üçün, əvvəlcə hz. Mehdinin bir şəxs olaraq var olması lazımdır. Çünki mənəvi bir şəxsin özünə aid bir camaatının olması əlbəttə ki, mümkün deyil. Bədiüzzaman da bu sözündə bu həqiqəti dilə gətirmişdir. Bədiüzzamanın bildirdiyi bu vəziyyəti bir neçə sual verərək də anlaya bilərik:

1- Bədiüzzaman hz. Mehdi ali-Rəsulun nəyi təmsil etdiyini bildirmişdir?

**Qüdsi camaatının şəxsi mənəvisini.**

2- Bədiüzzaman qüdsi camaatın şəxsi mənəvisini kimin təmsil etdiyini bildirmişdir?

**Hz. Mehdinin.**

Bu sualların cavabları hz. Mehdi və onun mübarək camaatının bir-birindən ayrı anlayışlar olduğunu bir daha ortaya qoyur.

Bədiüzzaman Axırzamanda hz. Mehdinin yanında olan mömin topluluğun mübarək bir camaat olduğunu, bu camaatın öndərliyini edən hz. Mehdinin də hz. Peyğəmbər (s.ə.v) soyundan gələn mübarək biri olacağını ifadə etmişdir. Necə ki, Bədiüzzaman bu sözünün son cümləsində **"ONUN ÜÇ VƏZİFƏSİ OLACAQ"** cümləsiylə bu mövzuya açıqlıq gətirir, bu üç vəzifəni, yanındakı mübarək topluluqla birlikdə, hz. Mehdinin də şəxsən başlarında olaraq yerinə yetirəcəyini ifadə edir.

Necə ki, hz. İsa və hz. Mehdinin mənəvi bir şəxs, ruh ya da bu kimi görünməz bir güc olaraq bildirilməsi, Quran ayələrində bildirilən Allahın adətullahı (Allahın qanunu) ilə

tamamilə ziddiyyətlidir. Tarix boyu, heç bir elçi və ya peyğəmbər, mənəvi bir şəxs olaraq gəlməmişdir. Quranda müxtəlif cəmiyyətlərə göndərilən elçilər, nəbilər və rəsulların həyatları, mübarizələri və təbliğləri haqqında bir çox məlumat verilmişdir. Həyatlarının sonuna qədər göndərildikləri qövmləri haqq dinə dəvət etmiş, onları Allahın əzabına qarşı xəbərdar edib qorxutmuş və iman edənləri cənnətlə müjdələmişlər. Yaşadıqları cəmiyyətlərdəki inkarçıların təzyiqlərinə, qurduqları tələlərə və haqq dinə istiqamətli mübarizələrinə səbir və təvəkküllə qarşılıq vermiş, onları Allahın razı olacağı əxlaqı yaşamağa çağırmışlar. Bütün bu məlumatlar bizə, tarix boyu heç bir elçi, nəbi və ya rəsulun mənəvi bir şəxs olaraq göndərilmədiyini, bütün elçilərin bir fərd olaraq gəldiklərini göstərir.

Əsrlərdir davam edən bu adətullah (Allahın qanunu), bütün İslam tarixində olduğu kimi Axırzamanda gələcək olan hz. İsa və hz. Mehdiyə də aiddir. Ancaq əlbəttə ki, bütün peyğəmbər və elçilərdə olduğu kimi hz. İsa və hz. Mehdinin də özlərindən əlavə şəxsi mənəviləri olacaq. Quranda, göndərilmiş olan bütün peyğəmbər və elçilərin ətrafında, onlara inanan və göstərdikləri haqq yolu izləyən bir topluluq olduğu xəbər verilmişdir. Elçilərə iman edən bu kəslər və onların elçiləriylə birlikdə etmiş olduqları fəaliyyətlərin hamısı, bu elçilərin şəxsi mənəvilərini meydana gətirər. Quranda peyğəmbərlərin həyatlarını izah edən hekayələrdə bu vəziyyət açıq-aydın görünür. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in səhabələri onun şəxsi mənəvisini meydana gətirmişdir. Lakin bu, Peyğəmbər (s.ə.v)-in varlığının şərti ilə meydana gəlmişdir. Bu vəziyyət, Axırzamanda da dəyişməyəcək, Bədiüzzamanın da dilə gətirdiyi kimi, hz. İsa və hz. Mehdi yanlarındakı mömin toluluqlarının başında şəxsən bir hidayət öndəri olacaqlar.

Bədiüzzaman, hz. Mehdidən bəhs edərkən, **"ONUN"** əvəzliyini istifadə edərək, yenidən hz. Mehdinin **"BİR ŞƏXS"** olduğunu ifadə edir.

Bədiüzzamanın da dediyi kimi, hz. Mehdinin üç böyük vəzifəsi olacaq. Hz. Mehdi bu vəzifələrini yerinə yetirərkən, ətrafında bir də özünə dəstək olan mübarək bir topluluq olacaq. Bu böyük vəzifələr "Hz. Mehdi və onun mübarək camaatının" bir yerdə reallaşdıracağı vəzifələrdir. Ancaq Bədiüzzamanın **"ONUN üç vəzifəsi olacaq"** sözləriylə açıq-aydın vurğuladığı kimi, hz. Mehdi bu topluluğun başında şəxsən olaraq bu vəzifələri yerinə yetirəcək.

Üçüncü vəzifəsi:

... **O ŞƏXS** BÜTÜN ƏHLİ-İMANIN (iman edənlərin) MƏNƏVİ KÖMƏKLƏRİYLƏ və İSLAM BİRLİYİNİN MÜAVƏNƏTİYLƏ (İslam birliyinin köməkləşməsiylə) və BÜTÜN ÜLƏMA VƏ ÖVLİYANIN (alimlərin və vəlilərin) və xüsusilə ALİ-BEYTİN NƏSLİNDƏN (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) HƏR ƏSRDƏ QÜVVƏTLİ VƏ KƏSRƏTLİ (çox sayda) OLAN MİLYONLARLA FƏDAKAR SEYİDLƏRİN İLTİHAQLARIYLA (Peyğəmbər soyundan gələn fədakar kəslərin roluyla **O VƏZİFƏ-İ UZMAYI (böyük vəzifəni) ETMƏYƏ ÇALIŞAR.** *(Emirdağ Lahikası, səh. 260)*

Bədiüzzaman bu sözündə, hz. Mehdinin üçüncü vəzifəsini izah etmişdir. Buna görə, hz. Mehdi Quran əxlaqının gözardı edildiyi bir dövrdə, insanların yenidən din əxlaqına yönəlməsinə vəsilə olacaq, İslam birliyini quracaq və bu böyük vəzifələrində özünə dəstək olan bir çox saleh insan olacaq.

"O ŞƏXS":

Bədiüzzaman, hz. Mehdi üçün Risalə-i Nurun bir çox yerində olduğu kimi, bu sözlərində də hz. Mehdi üçün **"O ŞƏXS"** ifadəsini istifadə etmişdir. Bədiüzzaman, həm **"O"** sözüylə həm də **"ŞƏXS"** deməklə, hz. Mehdinin bir topluluq və ya mənəvi bir insan deyil, bir **"ŞƏXS"** olduğunu açıq-aydın ifadə etmişdir.

Yüksək elm və hikmət sahibi Bədiüzzaman heç şübhəsiz ki, bu vurğuları da müəyyən bir hikmətlə edir və bütün müsəlmanları hz. Mehdinin **"BİR ŞƏXS"** olduğu mövzusunda ən doğru şəkildə məlumatlandırır.

"VƏZİFƏ-İ UZMAYI (BÖYÜK VƏZİFƏNİ) ETMƏYƏ ÇALIŞAR":

Bədiüzzaman **"O VƏZİFƏ-İ UZMAYI ETMƏYƏ ÇALIŞAR"** sözləriylə "Hz. Mehdinin bir şəxsi mənəvi deyil, **"BİR İNSAN OLARAQ İŞ BAŞINDA OLACAĞINI"** bildirmişdir. Çünki mənəvi bir şəxsin bir vəzifəni **"etməyə çalışması"** mümkün deyildir. Belə bir səy ancaq bir insanın reallaşdıra biləcəyi bir hərəkətdir. Bədiüzzaman da bu həqiqəti vurğulayaraq hz. Mehdinin bir şəxs olduğunu bildirmişdir.

Bədiüzzaman sözlərində həmçinin, hz. Mehdinin yerinə yetirəcəyi xidməti **"BÖYÜK VƏZİFƏ"** olaraq dəyərləndirmişdir. Bədiüzzamanın bu sözünə görə hz. Mehdinin edəcəyi xidmətlər, özündən əvvəlki dövrlərdə gələn mücəddidlərin vəzifələrindən fərqli, **"ÇOX GENİŞ"** fəaliyyətlərdir. Hz. Mehdi İslam əxlaqını dünya səviyyəsində hakim edəcək, İslam dünyasını bir yerə gətirəcək və bütün müsəlmanların liderliyini boynuna götürəcək. Bədiüzzamanın **"VƏZİFƏ-İ UZMA"** sözləriylə bildirdiyi bu hadisələr hz. Mehdinin tanınmasını təmin edəcək ən əhəmiyyətli əlamətlərindən olacaq.

Hərçənd, **HƏR ƏSRDƏ HİDAYƏT EDİCİ, MEHDİ BƏNZƏRİ VƏ MÜCƏDDİD GƏLİR VƏ GƏLMİŞ.** Lakin **HƏR BİRİ** ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ BİR CƏHƏTDƏ (baxımdan) ETMƏSİ ETİBARIYLA (səbəbiylə) AXIRZAMANIN BÖYÜK MEHDİ ÜNVANINI ALA BİLMƏMİŞLƏR. *(Emirdağ Lahikası, səh. 260)*

Bədiüzzaman bu sözündə, Quran əxlaqını dünya üzərində hakim etmək məqsədiylə əvvəlki əsrlərdə də bəzi müsəlman şəxslərin gəldiyini, ancaq bunların heç birinin, Axırzamanda hz. Mehdinin edəcəyi üç əsas vəzifəni bir yerdə yerinə yetirə bilmədiklərini ifadə etmişdir:

## HƏR ƏSRDƏ HİDAYƏT EDİCİ MEHDİ BƏNZƏRİ VƏ MÜCƏDDİD GƏLİR VƏ GƏLMİŞ:

Bədiüzzaman bu sözüylə bir neçə əhəmiyyətli mövzuya aydınlıq gətirmişdir. Bədiüzzaman əvvəlcə, hz. Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq hər yüz ilin əvvəlində bir müceddid (yeniləyici) göndəriləcəyini bildirmişdir. Bədiüzzaman risalələrdə hz. Mehdinin də hicri XIV əsrin əvvəlində gələcəyini və XIV-XV əsrlər arasındakı müceddid olacağını bildirmişdir.

Bədiüzzaman burada həmçinin, hz. Mehdinin mənəvi bir şəxs olmadığını da izah etmişdir. Peyğəmbərimiz (s.ə.v)-dən bu yana XIV əsrə qədər gələn bütün müceddidlər bir "ŞƏXS" olaraq gəliblər. XIV əsrdə bu vəziyyət dəyişməyəcək, hz. Mehdi də bir şəxs olaraq şəxsən vəzifə yerinə yetirəcək. Bədiüzzaman **"GƏLİR VƏ GƏLMİŞ"** sözləriylə bu davamlılığı bildirmiş, **"GƏLİR"** sözüylə bu adətullahın hələ də davam etdiyini ifadə etmişdir.

## HƏR BİRİ:

Bədiüzzaman istifadə etdiyi **"HƏR BİRİ"** sözüylə hz. Mehdidən əvvəl gəlmiş olan müceddidlərin də hz. Mehdi kimi real şəxslər olduqlarına, şəxsi mənəvi olmadıqlarına diqqət çəkir. Bu açıqlamada bəhsi keçən əvvəlki əsrlərdə göndərilən müceddidlərin bir şəxs olduqları qəbul edilərkən, Bədiüzzamanın eyni şərhlərində yenə bir şəxs olacağını ifadə etdiyi "Böyük Mehdi"nin mənəvi bir şəxs olacağı düşüncəsi əlbəttə ki, ziddiyyətlidir. Bu düşüncəyə görə, Axırzaman mehdisindən əvvəl gələn bütün müceddidlərin də mənəvi bir şəxs olması lazım idi. Ancaq belə bir şey olmamışdır. Necə ki, Bədiüzzaman da sözlərində bu həqiqəti izah etmişdir. Bədiüzzamanın da müjdələdiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-in rəvayətlərindəki xüsusiyyətlərə sahib olmasıyla tanınacaq olan Böyük Mehdi Axırzamanda **"BİR ŞƏXS"** olaraq ortaya çıxacaq və Allahın izniylə Bədiüzzamanın bildirdiyi üç vəzifəni birdən yerinə yetirəcək.

**MƏN, ÖZÜMÜ SEYİD** (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) **BİLMİRƏM.** Bu zamanda nəsillər bilinmir. **Halbuki, AXIRZAMANIN O BÖYÜK ŞƏXSİ ƏHLİ-BEYTDƏN** (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) **OLACAQ.** *(Emirdağ Lahikası, s. 247-250)*

**Bədiüzzaman da bu sözündə, özünün Peyğəmbərimiz (s.ə.v)-in soyundan olmadığını, hz. Mehdinin isə bu mübarək soydan olacağını bildirmişdir:**

Hz. Mehdinin hədislərdə bildirilən ən əhəmiyyətli xüsusiyyətlərindən biri də, **"SEYİD"** yəni Peyğəmbər (s.ə.v)-in soyundan olmasıdır:

*Qiyamətin qopması üçün zamanda yalnız bir gündən başqa vaxt qalmamış da olsa Allah **MƏNİM ƏHLİ-BEYTİMDƏN (SOYUMDAN) BİR ŞƏXSİ** (hz. Mehdini) göndərəcək. (Sünen-i Ebu Davud, 5/92)*

**MƏN ÖZÜMÜ SEYİD BİLMİRƏM:**

Bədiüzzaman seyid deyil və seyid olmadığına görə özünün Mehdi olmayacağının dəlillərindən biri olduğunu bildirir. Şübhəsiz ki, bir adama bir sual verilməsinin səbəbi, əlaqədar mövzunun doğrusunu öyrənməkdir. Bədiüzzaman Səid Nursiyə də Mehdi olub-olmadığının soruşulmasının səbəbi doğruları öyrənməkdir. Bu sual qarşısında **"Xeyr, mən Mehdi deyiləm"** deyirsə və bunun onlarla dəlilini ortaya qoyursa buna inanmaq lazımdır. Çünki Bədiüzzaman çox açıq-aydın bir şəkildə bu mövzuya cavab vermiş və **"mən seyid deyiləm"** demişdir.

Həmçinin, Bədiüzzaman əgər seyid olsaydı, bunu gizləməsi üçün heç bir səbəb yoxdur. Çünki seyid olmaq, gizlədiləsi bir xüsusiyyət deyil. Tam əksinə Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmaq müsəlmanlar üçün böyük bir şərəfdir. Buna görə də, Bədiüzzaman seyid olsaydı, bunu heç bir şəkildə gizləməz və açıq-aydın ifadə edərdi. Peyğəmbərimiz (s.ə.v)-in soyundan olduğunu deməyi böyük bir şərəf bilərdi. Özünə belə bir sual veriləndə **"Bəli seyidəm, amma Mehdi deyiləm"** deyərdi. Çünki Bədiüzzaman şəxsən öz əsərlərində Peyğəmbərimiz (s.ə.v)-in hədisini xatırladaraq **"seyid olan bir adamın seyidliyini gizləməsinin Quran əxlaqına uyğun olmadığını"** bildirmişdir.

***Seyid olmayan seyidəm və seyid olan deyiləm deyənlər, ikisi də günahkar və duhul və huruc (üsyan) haram olduqları kimi... hədis və Quranda da belə çox nöqsan etmək məmnudur (qadağan edilmişdir).*** (Muhakemat, s. 52)

Bədiüzzamanın bu sözü çox açıq-aydındır. Peyğəmbərimiz (s.ə.v)-in hədisində bildirildiyi kimi, İslam əxlaqına görə, seyid olan bir adam heç bir səbəbə əsaslanıb bunu gizləyə bilməz, saxlaya bilməz. Seyid olmayan bir adam da mən seyidəm deyə bilməz. Bu halda, Bədiüzzaman kimi qiymətli və üstün əxlaqlı bir şəxsin, seyidliyini gizlədiyi yanaşması son dərəcə yaraşmayan bir düşüncədir. Bununla yanaşı hər seyid olan adam, mütləq Mehdi olacaq deyə bir vəziyyətdə mümkün deyildir. Dünyada milyonlarla seyid olan insan var. Bir adamın seyid olması Mehdi olmasını tələb etmədiyi üçün, hər insan bu həqiqəti rahatlıqla dilə gətirə bilər. Həmçinin, Bədiüzzaman "Mənim bu mövzudakı tək əskikliyim seyidliyim, əgər seyid olsaydım Mehdi olardım" da deməmişdir. Tam əksinə, Bədiüzzaman hz. Mehdinin bütün xüsusiyyətlərini, edəcəyi bənzərsiz fəaliyyətləri uzun-uzadı açıqlamış və bunların heç birinin öz yaşadığı dövrdə hələ reallaşmadığını bildirmişdir.

## AXIRZAMANIN O BÖYÜK ŞƏXSİ:

Bədiüzzaman **"AXIRZAMANIN O BÖYÜK ŞƏXSİ"** sözüylə hz. Mehdinin mənəvi bir şəxs olmadığını yenidən sübut etmişdir. Bədiüzzaman açıq-aydın **"O BÖYÜK ŞƏXS"** deyərək hz. Mehdinin şəxsi mənəvi olmadığını, real və gözlənilən **"BİR NƏFƏR"** olduğunu bildirmişdir.

Bədiüzzamanın **O** və **ŞƏXS** sözlərini diqqətlə seçdiyi və təkrarladığı çox aydındır. Bədiüzzaman bu şəkildə, hz. Mehdinin mənəvi bir şəxs ola biləcəyi düşüncəsini, heç bir etiraza yer verməyəcək şəkildə etibarsız edir.

## ƏHLİ-BEYTDƏN (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) OLACAQ:

Bədiüzzaman **"ƏHLİ-BEYTDƏN OLACAQ"** sözləriylə hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn seyid bir kəs olacağını bildirmişdir. Bədiüzzaman əsərlərinin müxtəlif hissələrində hz. Mehdinin bu xüsusiyyətinə diqqət çəkərək, hz. Mehdinin mənəvi bir varlıq olmadığını, müəyyən bir soydan gələcək **"BİR ŞƏXS"** olduğunu vurğulamışdır. Peyğəmbərimiz (s.ə.v)-in də hz. Mehdinin bu xüsusiyyətini bildirdiyi çox sayda hədisi vardır. Bir şəxsi mənəvinin peyğəmbər soyundan gəlməsi əlbəttə ki, mümkün deyildir. Həmçinin, belə bir düşüncə həm Peyğəmbərimiz (s.ə.v)-in hədisləriylə, həm də Bədiüzzamanın sözləriylə çox aydın bir şəkildə ziddiyyətlidir. Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. Mehdi **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDAN GƏLƏN BİR ŞƏXS"** olacaq.

Ümmətin gözlədiyi, **AXIRZAMANDA GƏLƏCƏK ŞƏXSİN** ÜÇ VƏZİFƏSİNDƏN ƏN MÜHÜMÜ (əsası) VƏ ƏN BÖYÜYÜ VƏ ƏN QİYMƏTLİSİ (dəyərlisi) OLAN İMAN TƏHQİQİNİ (həqiqi imanı) NƏŞR (yazmaq və paylamaq yoluyla yaymaq) VƏ ƏHLİ-İMANI (iman edənləri) DƏLALƏTDƏN (azğınlıqdan) XİLAS ETMƏK... *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman, hz. Mehdinin üç böyük vəzifəsindən birincisinin və ən vacibinin həqiqi imanı yayaraq insanların azğınlıqdan xilasına vəsilə olması olduğunu demişdir:

## AXIRZAMANDA GƏLƏCƏK:

Bədiüzzaman **"AXIRZAMANDA GƏLƏCƏK"** deyərək hz. Mehdinin özündən sonrakı bir dövrdə gələcəyini bildirmişdir. Əgər Bədiüzzaman, öz yaşadığı dövrdə ya da əvvəlində hz. Mehdinin gəlib fəaliyyətlərinə başladığı qənaətində olsaydı, heç şübhəsiz **"GƏLƏCƏK"** sözü yerinə "gəlib" ya da "gəldi" kimi sözlər istifadə edərdi. Ancaq belə bir vəziyyət hələ reallaşmadığından, Bədiüzzaman da hz. Mehdinin gəldiyi vaxtın **"İRƏLİDƏ"** olacağını ifadə edən bir söz istifadə etmişdir.

Bədiüzzaman **"GƏLƏCƏK"** sözünü, bu kitabında yer verilən hz. Mehdi ilə bağlı sözlərində çox istifadə etmişdir. Bədiüzzaman, eyni sözü dəfələrlə təkrarlayaraq bu mövzuya qətiyyət qazandırmış və hz. Mehdinin özündən sonrakı bir zamanda ortaya çıxacağı mövzusunda heç bir şübhəyə yer buraxmamışdır.

Bədiüzzaman bu sözlərində həmçinin, hz. Mehdinin **"GƏLƏCƏK BİR ŞƏXS"** olduğunu da ifadə etmişdir. Çünki mənəvi bir şəxsin **"gəlməsi"**ndən deyil, ancaq **"yaranması"**ndən bəhs edilə bilər. Bədiüzzaman da bu səbəblə, "Axırzamanda yaranacaq" deməyib, **"Axırzamanda GƏLƏCƏK"** sözlərini istifadə edərək, hz. Mehdinin **"BİR ŞƏXS"** olduğunu izah etmişdir.

## ŞƏXSİN:

Bədiüzzaman istifadə etdiyi **"ŞƏXS"** sözüylə, hz. Mehdinin "mənəvi bir varlıq" deyil, "BİR ŞƏXS" olduğunu olduqca ən açıq şəkildə izah etmişdir. Bilindiyi kimi **"ŞƏXS"** sözünün lüğətdəki mənası, **"ADAM, KİMSƏ, ŞƏXS"**dir. Eyni zamanda da **"tək"** yəni **"BİR NƏFƏR"**dən bəhs edildiyini açıqlayan bir sözdür. Bilinən bir adamı ifadə etmək məqsədiylə istifadə edilər. Eyni zamanda da bir hörmət ifadəsidir. Onlarla risaləni bir-birindən hikmətli ifadələrlə qələmə alan böyük İslam alimi Bədiüzzaman da heç şübhəsiz ki, bu sözün mənasını bütün

təfərrüatlarıyla çox yaxşı bilir. Əgər Bədiüzzaman hz. Mehdinin bir şəxsi mənəvi olacağını izah etmək istəsəydi, şübhəsiz ki, bunu açıq-aydın ifadə edəcək qədər qəti mənalar ilə **"BİR İNSAN"**ı ifadə edən **"ŞƏXS"** sözünü istifadə etməzdi. Bunun əvəzinə **"şəxsi mənəvi"** anlayışını ifadə edəcək bir-birindən hikmətli çox müxtəlif sözlər seçə bilərdi. Buna baxmayaraq, açıq-aydın **"ŞƏXS"** sözünü seçməsi, Bədiüzzamanın hz. Mehdinin bir şəxs olduğu mövzusundakı qənaətini çox aydın bir şəkildə ortaya qoyur.

... Bu həqiqətdən aydın olur ki; **SONRA GƏLƏCƏK O MÜBARƏK ŞƏXS** RİSALƏ-İ NURU BİR PROQRAMI OLARAQ NƏŞR VƏ TƏTBİQ EDƏCƏK (yazma və paylama yoluyla yayacaq və tətbiq edəcək). *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman bu sözüylə yenidən hz. Mehdinin gəlişini müjdələyib və bu mübarək şəxsin, fəaliyyətlərini yerinə yetirərkən özünü "hz. Mehdiyə zəmin hazırlayan bir müjdəçi" kimi bildirən Bədiüzzamanın əsərlərindən də istifadə edəcəyini ifadə etmişdir:

## SONRA GƏLƏCƏK:

Bədiüzzaman bu sözləriylə hz. Mehdinin, əvvəlki mücəddidlərin və Bədiüzzamanın yaşadığı dövrlərdə gəlmədiyini deyib; bu mübarək şəxsin bunların hamısından **"SONRA"** gələcəyini ifadə etmişdir. Həmçinin, Bədiüzzaman bu vəziyyəti, yalnız gələcək zamanı ifadə edən bir feli istifadə edərək deyil, bunu bir də **"SONRA"** sözüylə dəstəkləyərək çox qəti bir üslubla izah etmişdir.

Bədiüzzaman bu sözləriylə həmçinin, hz. Mehdinin **"bir şəxsi mənəvi"** olmadığını, **"müəyyən bir zamanda gələcək BİR ŞƏXS olduğunu"** da açıq-aydın bildirmişdir.

## O:

Bədiüzzaman hz. Mehdidən **"BİR ŞƏXS ƏVƏZLİYİ"** olan və **"TƏK BİR NƏFƏR"i** ifadə edən **"O"** sözüylə bəhs etmişdir. Bədiüzzamanın hz. Mehdini təyin etmək üçün belə bir söz seçməsi isə əlbəttə ki, bir təvafüq deyil. Bədiüzzaman kitabın əvvəlində bu yana yer verilən sözlərinin bir çoxunda, hz. Mehdi üçün yenə **"O"** əvəzliyini istifadə etmişdir. Şübhəsiz ki, yüzlərlə səhifədən, onlarla kitabdan ibarət olan böyük bir külliyyatı əmələ gətirən böyük mütəfəkkir Bədiüzzaman, əsərlərində istifadə etdiyi hər hikmətli söz kimi, bu sözü də son dərəcə şüurlu və bilərəkdən bu qədər çox təkrarlamışdır. Çox aydındır ki, Bədiüzzaman müsəlmanlara, hz. Mehdinin yalnız "mənəviyyat ifadə edən bir anlayış" olmadığını bildirir,

Axırzamanda bütün inananların məsuliyyətini boynuna götürəcək xüsusiyyətlərə sahib **"BİR İNSAN", "BİR ŞƏXS"** olduğunu müjdələyir.

<u>MÜBARƏK ŞƏXS:</u>

Bədiüzzaman, eyni sözün içərisində təkrar-təkrar **"ŞƏXS"** sözünü istifadə edərək hz. Mehdinin möminlərə öndərlik edəcək **"BİR ŞƏXS"** olduğunu israrla vurğulayır.

Bədiüzzaman həmçinin, burada bu **"ŞƏXS"** sözünü bir də xarakterizə edir və hz. Mehdinin **"NECƏ BİR ŞƏXS"** olduğunu da izah edir. Bədiüzzaman hz. Mehdinin **"MÜBARƏK BİR ŞƏXS"** olduğunu bildirir. **"MÜBARƏK"** sözü **"İlahi xeyirin olduğu"** mənasını verir. Bədiüzzaman da burada istifadə etdiyi bu **"mübarək"** sifətiylə hz. Mehdinin imanını, yerinə yetirəcəyi vəzifələri tərifləyir. Bədiüzzaman verdiyi bütün bu təfərrüatlı məlumatlarla müsəlmanlara hz. Mehdinin əxlaqını və mübarizəsini tanıdır, bu üstün əxlaqlı şəxsin hansı xüsusiyyətləriylə tanına biləcəyini izah edir.

<u>RİSALƏ-İ NURU BİR PROQRAMI OLARAQ NƏŞR VƏ TƏTBİQ EDƏCƏK (YAZMA VƏ PAYLAMA YOLUYLA YAYACAQ VƏ TƏTBİQ EDƏCƏK):</u>

Bədiüzzaman əsərlərində, hz. Mehdidən əvvəlki əsrin mücəddidi olmasına görə özünü "hz. Mehdinin bir qabaqcılı", "ona zəmin hazırlayan bir əsgəri" olaraq təyin etmişdir. Yenə bir sözündə də, "özünün əkdiyi toxumların hz. Mehdi tərəfindən inkişaf etdiriləcəyini və bu mübarək şəxs vasiləsiylə bu toxumların sümbüllənəcəyəni" izah edərək, hz. Mehdinin gəlişindən əvvəl etdiyi işlərlə ona "bir ön hazırlıq" etdiyini izah edir. Bədiüzzaman bu sözündə də Risalə-i Nur külliyyatının hz. Mehdinin təbliğində istifadə edəcəyi bir ön hazırlıq olduğunu ifadə etmişdir. Bədiüzzaman, hz. Mehdinin ortaya çıxdığında, risalələri hazır yazılmış olaraq tapacağını və imanı qurtarma vəzifəsində risalələrdən faydalanacağını ifadə etmişdir. Bədiüzzaman bu sözləriylə özünün hz. Mehdi olmadığını, hz. Mehdinin **"ÖZÜNDƏN SONRAKI DÖVRDƏ GƏLƏCƏK BİR ŞƏXS OLDUĞUNU"** yenidən ortaya qoyur.

**O ŞƏXSİN** İKİNCİ VƏZİFƏSİ, ŞƏRİƏTİ (Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) İCRA VƏ TƏTBİQ ETMƏKDİR (tətbiq etmək və yerinə yetirməkdir). *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

<u>Bədiüzzaman, bu sözündə də hz. Mehdinin ikinci vəzifəsinin Quran əxlaqının əsaslarının tam yaşanmasına vəsilə olduğunu açıqlamışdır:</u>

O:

Bədiüzzaman sözlərində tez-tez təkrarladığı bu söz ilə, Axırzamanda ortaya çıxacaq hz. Mehdinin "mənəvi bir öndər" deyil, şəxsən möminlərin başına keçərək, onları hidayətə yönəldəcək **"BİR ŞƏXS"** olduğunu bildirir.

Bədiüzzaman həmçinin, burada "onlar" kimi çox olan bir topluluğu ifadə edən bir söz də istifadə etməmiş, hz. Mehdinin **"TƏK BİR NƏFƏR"** olduğunu bildirən **"O"** sözünə yer vermişdir. Bədiüzzaman bu izahıyla, hz. Mehdinin şəxsi mənəvi olmadığı mövzusundakı qəti qənaətlərini dəlilləriylə birlikdə ortaya qoymuşdur.

ŞƏXSİN:

Bədiüzzaman buradakı **"ŞƏXS"** sözüylə, eyni cümlədə hz. Mehdinin **"BİR ŞƏXS"** olduğu mövzusuna açıqlıq gətirən ikinci bir vurğulama daha etmişdir. Bədiüzzaman bu qədər çox təkrarladığı bu sözüylə, hz. Mehdinin qətiyyətlə "mənəvi bir varlıq" olmadığını izah etmiş və müsəlmanların bu mübarək **"ŞƏXS"** haqqında ən doğru şəkildə məlumatlanmalarını təmin etmişdir.

**O ŞƏXSİN** üçüncü vəzifəsi, XİLAFƏT-İ İSLAMI yəni (İslam xəlifəliyini) İSLAM BİRLİYİNƏ BİNA EDƏRƏK (İslam birliyi üzərinə quraraq), İSƏVİ RUHANİLƏRİYLƏ (dindar xristianlarla və xristian alimləriylə) İTTİFAQ EDİB (əməkdaşlıq və həmrəyliyə girərək) DİNİ İSLAMA (İslam dininə) XİDMƏT ETMƏKDİR. BU VƏZİFƏ, ÇOX BÖYÜK BİR SƏLTƏNƏT, QÜVVƏ və MİLYONLARLA FƏDAKARLARLA (MİLYONLARIN FƏDAKARCASINA İŞTİRAKIYLA) TƏTBİQ EDİLƏ BİLƏR (yerinə yetirilə bilər). *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

**Bədiüzzaman, hz. Mehdinin bir başqa vəzifəsinin də İslam cəmiyyətini birləşdirmək və Xristian aləmiylə ittifaq etmək olduğunu bildirmişdir:**

O:

Bədiüzzaman, bu sözündə **"6-CI DƏFƏ" "O"** əvəzliyini istifadə etmiş və hz. Mehdinin **"BİR ŞƏXS"** olduğunu yenidən təkrarlamışdır. Əgər Bədiüzzaman, hz. Mehdinin "mənəvi bir ad" ya da "bir çox insandan yaranan bir topluluq" olduğunu düşünsəydi, əlbəttə ki, bütün bu iddiaları rədd edəcək açıqlıqda bir söz istifadə etməz, hz. Mehdidən **"O ŞƏXS"** sözləriylə bəhs etməzdi. Çox aydındır ki, Bədiüzzaman, hz. Mehdinin **"TƏK BİR ŞƏXS"** olduğunu ifadə etmiş və əks istiqamətdəki bütün düşüncələrin etibarsızlığını ortaya qoymuşdur.

ŞƏXSİN:

Bədiüzzaman, **"NƏFƏR, KİMSƏ YA DA ŞƏXS"** mənasını verən **"ŞƏXS"** sözünü bu sözlərində də **"5-Cİ DƏFƏ"** təkrarlamış və hz. Mehdinin bütün dünya müsəlmanlarının liderliyini boynuna götürəcək **"üstün xüsusiyyətli BİR İNSAN"** olduğunu yenidən vurğulamışdır.

TA AXIRZAMANDA, HƏYATIN GENİŞ DAİRƏSİNDƏ (dünya səviyyəsində) ƏSL SAHİBLƏRİ, **YƏNİ MEHDİ VƏ ŞAGİRDLƏRİ (tələbələri) CƏNAB-I HAQQIN İZNİYLƏ GƏLƏR,** O DAİRƏNİ GENİŞLƏDƏR və O TOXUMLAR SÜNBÜLLƏNƏR. **BİZLƏR DƏ QƏBRİMİZDƏ SEYR EDİB ALLAHA ŞÜKÜR EDƏRİK.** *(Sikke-i Tasdik-i Gaybi, səh. 138)*

**Bədiüzzaman, hz. Mehdinin Axırzamanda ortaya çıxacağını xəbər verir. Bədiüzzaman, hz. Mehdi və tələbələrini Risalə-i Nurun əsl sahibləri olaraq dəyərləndirir, Risalə-i Nurun başlatdığı xidməti bu mübarək şəxsin tamamlayacağını müjdələyir:**

ƏSL SAHİBLƏRİ, YƏNİ HZ. MEHDİ VƏ ŞAGİRDLƏRİ (TƏLƏBƏLƏRİ):

Bədiüzzaman Səid Nursi burada, Axırzamanda gələcək və Quran əxlaqını bütün dünyada hakim edəcək olan hz. Mehdidən, Bədiüzzamanın atdığı toxumların **"ƏSL SAHİBLƏRİ"** olaraq bəhs edir. Bu şərhlərinə görə, Bədiüzzaman Quran əxlaqının dünya hakimiyyətinin toxumlarını atan bir mücəddid, hz. Mehdi isə bu hakimiyyətin əsl sahibi olacaq. Hz. İsa ilə birlikdə İslam əxlaqını dünya səviyyəsində hakim edəcək olan Axırzaman birliyinin lideri Allahın izniylə hz. Mehdi olacaqdır. Bu səbəbdən, Bədiüzzaman hz. Mehdi və onun tələbələri üçün burada istifadə etdiyi **"ƏSL SAHİBLƏRİ"** sözüylə hz. Mehdinin və tələbələrinin dünya səviyyəsində yerinə yetirəcəyi vəzifələrin əsl sahibinin özü olmadığını izah etmiş və beləliklə, özünün hz. Mehdi olmadığını da bildirmişdir.

Bədiüzzamanın bu sözlərində vurğuladığı bir başqa əhəmiyyətli nöqtə isə, hz. Mehdi və onun şəxsi mənəvisini meydana gətirən tələbələrinin iki ayrı anlayış olduğudur. Bədiüzzaman **"hz. Mehdi VƏ şagirdləri"** deyərkən burada istifadə etdiyi **"VƏ"** sözüylə bu vəziyyətə aydınlıq gətirir. Bu ikisi bir-birindən ayrıdır və ancaq ikisinin bir yerə gəlməsindən hz. Mehdinin şəxsi mənəvisi meydana gəlir. Amma bu şəxsi mənəvinin meydana gəlməsi üçün başda mütləq hz. Mehdi bir şəxs kimi olacaq. Bədiüzzaman da burada **"HZ. MEHDİ VƏ ŞAGİRDLƏRİ"** sözləriylə bu həqiqəti dilə gətirir və hz. Mehdinin bir şəxsi mənəvi olaraq deyil, tələbələrinin başında ayrı bir şəxsiyyət olaraq var olacağını ifadə edir.

CƏNABI HAQQIN İZNİYLƏ GƏLƏR:

**Bədiüzzaman bu sözündə "Cənab-ı Haqqın izniylə GƏLƏR"** deyərək əvvəl hz. Mehdinin Axırzamanda gələcək bir şəxs olduğunu bir dəfə daha xatırlatmışdır. Çünki bilindiyi kimi **"GƏLMƏ"** hərəkəti mənəvi bir şəxsin reallaşdıra biləcəyi bir hadisə deyil. **"GƏLMƏ"** hərəkəti burada açıq-aydın bir insanın gəlişini müjdələmək üçün istifadə edilmiş bir hərəkətdir. Əgər Bədiüzzaman hz. Mehdinin şəxsi mənəvi olduğunu ifadə etmək istəsəydi, şübhəsiz ki, belə bir söz istifadə etməz, hz. Mehdinin gəlişindən bəhs etməzdi.

Bununla yanaşı, Bədiüzzaman burada istifadə etdiyi **"GƏLİR"** sözüylə, hz. Mehdinin o dövrdə hələ gəlmədiyini ifadə edir və irəlidə gələcəyini bildirir. Diqqət edilərsə, Bədiüzzaman **"gəldi"** və ya **"gəlib"** demir, **"İRƏLİDƏ GƏLƏCƏYİNİ"** ifadə etmək üçün **"Ta Axırzamanda gələr"** deyərək, hz. Mehdinin özündən sonrakı bir zamanda gələcəyini bildirmişdir.

BİZLƏR DƏ QƏBRİMİZDƏN SEYR EDİB ALLAHA ŞÜKÜR EDƏRİK:

Bədiüzzaman, **"BİZLƏR DƏ QƏBRİMİZDƏN SEYR EDİB"** sözləriylə, əkdiyi iman toxumlarının sünbüllənəcəyi yəni, hz. Mehdinin Quran əxlaqını bütün dünyaya hakim edəcəyi dövrdə, özünün vəfat etmiş olacağını bildirmişdir. Bədiüzzaman bu sözüylə yenidən özünün hz. Mehdi olmadığını, onun gəlib vəzifəsinə başladığı dövrdə özünün həyatda olmayacağını xatırladaraq bildirmişdir.

Həm bu ÜÇ VƏZAİF (vəzifənin) BİRDƏN BİR ŞƏXSDƏ YAXUD CAMAATDA BU ZAMANDA OLMASI VƏ MÜKƏMMƏL OLMASI VƏ BİR-BİRİNİ CƏRLƏTMƏMƏSİ (bir-birinə mane olmaması, zərər verməməsi) ÇOX UZAQ, SANKİ QABİL (mümkün) GÖRÜLMÜR. Axırzamanda, **ƏHLİ-BEYTİ NƏBƏVİ (S.Ə.V)-İN CAMAATI NURANİYƏSİNİ (Peyğəmbərimiz (s.ə.v)-in soyunun nurani camaatını) TƏMSİL EDƏN HƏZRƏTİ MEHDİDƏ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ** ANCAQ İCTİMA EDƏ BİLƏR (bir araya gələ bilər, toplana bilər) (Sikke-i Tasdik-i Gaybi, səh. 156)

**Bədiüzzaman bu sözündə, hz. Mehdinin üç vəzifəsi olduğunu bildirir, bu üç vəzifənin bir yerdə yerinə yetirilməsinin hz. Mehdinin ən əsas əlamətlərindən biri olduğuna diqqət çəkir. Bədiüzzaman öz yaşadığı dövrdə bu üç vəzifənin birdən yerinə yetirilmədiyini, bunu ancaq hz. Mehdinin reallaşdıra biləcəyini deyir:**

Bədiüzzaman, əsərlərində dəfələrlə hz. Mehdinin hədislərdə bildirildiyi kimi **"seyid" yəni "Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn bir kəs"** olacağını, **"özünün isə seyid olmadığını"** bildirmişdir. Bədiüzzaman bu sözündə də bu mövzuya yenidən aydınlıq gətirir, **"ƏHLİ-BEYTİ NƏBƏVİNİN CAMAATI NURANİYƏSİNİ TƏMSİL EDƏN"** sözləriylə hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in mübarək soyundan olacağına diqqət çəkir. Bədiüzzaman, hz. Mehdinin bu vacib əlamətlərindən birini xatırladaraq özünün hz. Mehdi olmadığını bildirir.

## HZ. MEHDİ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ:

Bədiüzzaman burada çox vacib bir həqiqəti izah edir. Bu söz, hz. Mehdinin mənəvi bir şəxs deyil, bir şəxs olacağını göstərir. Çünki Bədiüzzaman, **"Hz. Mehdi VƏ camaatındakı şəxsi mənəvidə"** sözləriylə hz. Mehdinin şəxsindən və onun şəxsi mənəvisini əmələ gətirən camaatından ayrı-ayrı anlayışlar olaraq bəhs edir. Aradakı **"VƏ"** sözü, **"Hz. Mehdinin və camaatının iki fərqli varlıq olduğunu"** bildirir. Hz. Mehdinin mübarək şəxsiylə bərabər, bir də onun şəxsi mənəvisini əmələ gətirən bir camaatı olacaq. Hz. Mehdinin şəxsi olmadan, belə bir şəxsi mənəvidən danışmaq mümkün deyil. Bədiüzzaman da bu həqqəti bildirir və hz. Mehdinin bir şəxs olacağını müjdələyir.

Çox zaman əvvəl bir əhli vəlayətdən (vəli şəxsdən) eşitdim ki; o şəxs, köhnə vəlilərin qeybi işarələrindən istihrac etmiş (mənasını ortaya çıxarmış) və qənaətə gəlib ki: "Şərq tərəfindən bir nur zühur edəcək (ortaya çıxacaq), bidətlər zülmətini (dinə sonradan girmiş xurafatları) yox edəcək. **MƏN BELƏ BİR NURUN ZÜHURUNA (ortaya çıxışını) ÇOX İNTİZAR ETDİM (gözlədim) VƏ EDİRƏM.** LAKİN ÇİÇƏKLƏR BAHARDA GƏLƏR. ELƏ İSƏ O QÜDSİ ÇİÇƏKLƏRƏ ZƏMİN HAZIR ETMƏK LAZIMDIR VƏ ANLADIQ Kİ, BU XİDMƏTİMİZLƏ O NURANİ ŞƏXSLƏRƏ (nurlu şəxslərə) ZƏMİN İZHAR EDİRİK (hazırlayırıq). *(Sikke-i Tasdik-i Gaybi, səh. 189)*

**Bədiüzzaman, hz. Mehdi və köməkçilərini "baharda gələcək qüdsi çiçəklər" olaraq dəyərləndirmiş, özünün isə, "etdiyi xidmətlərlə bu mübarək şəxsə zəmin hazırlayan bir qabaqcıl" olduğunu bildirmişdir:**

## MƏN BELƏ BİR NURUN ZÜHURUNA (ORTAYA ÇIXIŞINI) ÇOX İNTİZAR ETDİM (GÖZLƏDİM) VƏ EDİRƏM:

Bədiüzzaman, **"BİR NUR"** olaraq bildirdiyi Axırzamanda gələcək olan hz. Mehdinin ortaya çıxışını çox gözlədiyini və hələ də gözləməyə davam etdiyini bildirir. Bədiüzzaman bu sözləriylə çox aydın bir şəkildə özünün hz. Mehdi olmadığını və özünün də bu mübarək şəxsin çıxışını böyük bir həyəcanla gözlədiyini deyir. Tək Bədiüzzaman deyil, səhabələr dövründən etibarən milyonlarla səmimi müsəlman, İslam alimləri, məzhəb imamları, müctəhidlər hz. Mehdi və bərabərindəki möminlərə qarşı dərin bir sevgi bəsləyiblər. 1400 ildir bu mübarək şəxsi sevgi və hörmətlə xatırlayıblar. Ona və camaatına dua ediblər, onlar üçün Allahdan kömək diləyiblər. Hz. Mehdi və camaatı gəlib-keçmiş bütün müsəlmanların ortaq dostudur. Bütün inananlar üçün şövq və həyəcan vəsiləsidir. Bədiüzzaman da sözlərində bu dünyagörüşünü dilə gətirərək özünün də böyük bir həyəcan və sevgiylə hz. Mehdinin gəlişini gözlədiyini ifadə edir. Bədiüzzaman, burada istifadə etdiyi **"ÇOX İNTİZAR ETDİM VƏ EDİRƏM"** yəni **"ÇOX GÖZLƏDİM VƏ GÖZLƏYİRƏM"** sözləriylə bu vəziyyəti dilə gətirmiş, ancaq həyatda olduğu müddətcə bu mübarək şəxsin çıxışının reallaşmadığını bildirmişdir.

## <u>VƏ ANLADIQ Kİ, BU XİDMƏTİMİZLƏ O NURANİ ŞƏXSLƏRƏ (NURLU ŞƏXSLƏRƏ) ZƏMİN İZHAR EDİRİK (HAZIRLAYIRIQ):</u>

Bədiüzzaman **"ANLADIQ Kİ"** sözləriylə, özünün hz. Mehdi olmadığı, ancaq etdiyi xidmətlərlə bu mübarək adama zəmin hazırlamaq mövzusundakı qənaətini dilə gətirir. **"ANLADIQ Kİ"** sözüylə, Bədiüzzamanın ürəyinə gələn həqiqəti və Bədiüzzamanın bu həqiqətə qəti və səmimi olaraq inandığını göstərir. Bədiüzzaman bu sözlə, təvazökarlıq olsun deyə belə bir söz demədiyini, dəlilləriylə açıq-aydın ortada olan bu mövzuda qəti qənaətini ifadə etdiyini ortaya qoyur.

Bədiüzzaman bu sözündə **"XİDMƏTİMİZLƏ"** deyərək çoxluq təşkil edən bir sözü istifadə etmişdir. Deməli, Bədiüzzaman bu xidmətdə tək deyil; özünə köməkçi olan Nur camaatı da vardır. Bədiüzzaman **"xidmətimizlə"** deyərkən bütün Nur tələbələrini də bu xidmətə daxil edir.

Həmçinin, Bədiüzzaman burada **"O NURANİ ŞƏXSLƏRƏ"** sözləriylə, Hz. Mehdi və tələbələrinin **"BİR ŞƏXS"** olduqlarını yenidən vurğulayır. Bu, Bədiüzzamanın hz. Mehdidən bəhs edərkən **"7 DƏFƏ"** istifadə etdiyi **"O"** əvəzliyidir. **"ŞƏXS"** sözünü isə Bədiüzzaman kitabın əvvəlindən bu yana Hz. Mehdi üçün **"6 DƏFƏ"** istifadə etmişdir. Bədiüzzamanın hər iki sözü də bu qədər çox təkrarlamış olması, hz. Mehdinin **"BİR ŞƏXS"** olduğu mövzusunda çox qəti dəlillər əmələ gətirir və mənəvi bir şəxsiyyət olmadığını açıq-aydın ortaya qoyur.

İstiqbal-i dünyəviyədə (dünyanın gələcəyində) 1400 il sonra gələcək bir həqiqəti əsrlərində qarib (yaxın) zənn etmişlər. (Sözler, 318)

**<u>Bədiüzzaman bu sözüylə, bəzi şəxslərin hz. Mehdinin keçmişdə gəldiyini düşünərək yanıldıqlarını bildirmiş və hz. Mehdinin gəldiyi zaman haqqında məlumat vermişdir:</u>**

<u>İSTİKBAL-İ DÜNYƏVİDƏ (DÜNYANIN GƏLƏCƏYİNDƏ) 1400 İL SONRA:</u>

Bədiüzzaman bu sözləriylə İslam tarixində bir çox adamın hz. Mehdinin öz dövrlərində gələcəyini düşünərək aldandıqlarını bildirmiş və hz. Mehdinin, Peyğəmbərimiz (s.ə.v)-dən **"1400 İL SONRA"** gələcəyini xatırlatmışdır. Bu çox vacib bir məlumatdır. Bədiüzzaman burada nə 1373, nə 1378, nə 1398, nə də başqa bir tarix verməyib, tam 1400 il sonrasından bəhs etmişdir. Bu tarix miladi 1980-ci ilə uyğun gəlir. Hicri XIII əsrin mücəddidi olaraq hicri XIV əsrə qədər mücəddidlik vəzifəsini yerinə yetirən Bədiüzzaman, hicri 1379-cu ildə yəni, miladi olaraq 1960-cı ildə vəfat etmişdir. Bu səbəbdən, Bədiüzzaman hz. Mehdinin gəlişi üçün öz yaşadığı dövrdən çox irəlidəki bir tarixi bildirir. Bədiüzzaman bu izahıyla, açıq-aydın və qəti bir tarix verərək özünün hz. Mehdi olmadığını bildirir, hz. Mehdinin öz vəfatından təxminən 20 il sonra gələcəyini müjdələyir.

Bədiüzzaman həmçinin, risalələrində Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq **"hər yüz ilin əvvəlində bir mücəddid göndəriləcəyini"** xatırlatmışdır. Bədiüzzaman **“1400 İL SONRA"** tarixini verərək eyni zamanda **"XIV və XV əsrlər arasında vəzifə yerinə yetirəcək olan mücəddidin də hz. Mehdi olduğunu"** xəbər verir.

<u>GƏLƏCƏK:</u>

Bədiüzzaman hz. Mehdi üçün **"1400 il sonra GƏLƏCƏK"** ifadəsini istifadə edərək, hz. Mehdinin qəti olaraq **"gələcəyini"** müjdələyir. Bədiüzzaman bu sözləriylə hz. Mehdinin mənəvi bir şəxs olmadığını, **"ifadə edilən tarixdə gələcək bir şəxs olduğunu"** açıqlayır.

Bədiüzzaman verdiyi bu məlumatla həmçinin, hz. Mehdinin keçmişdə və Bədiüzzamanın öz yaşadığı dövrdə hələ gəlməmiş olduğu mövzusuna da aydınlıq gətirir. Çünki diqqət edilsə, Bədiüzzaman "Hz. Mehdi gəldi ya da gəlib" demir, "gələcək zaman" ifadə edən bir söz istifadə edir və **"GƏLƏCƏK"** deyir.

<u>HƏQİQƏTİ:</u>

Bədiüzzaman hz. Mehdi üçün **"HƏQİQƏT"** sözünü istifadə etmişdir. Bədiüzzaman bu ifadəsiylə, hz. Mehdinin gəlişinin bir həqiqət yəni, heç bir şübhəyə yer verməyəcək qədər **"dəqiq bir həqiqət"** olduğunu bildirir.

Bədiüzzaman bu sözüylə həmçinin, hz. Mehdinin gəlişindən əvvəl Mehdi olduğu güman edilən şəxslərin əksinə, **"1400 il sonra gələcək olan Mehdinin bir həqiqət"** olacağını ifadə etmişdir. Yəni bu mübarək şəxsin, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində müjdələdiyi bütün xüsusiyyətlərə sahib olan **"ƏSL MEHDİ"** olacağını və bu xüsusiyyətləriylə Mehdi güman edilən kəslərdən ayırd edilib tanınacağını xatırlatmışdır.

İndi, hz. Mehdi kimi əşhasın haqqındakı rivayatın (rəvayətlərin) ixtilafatı (fərqlilikləri) və sirri budur ki: Əhadisi təfsir edənlər (hədisləri açıqlayanlar), mətn-i əhadisi təfsirlərinə (hədis mətnlərindəki izahlar) və istinbatlarına (gizli mənaları meydana çıxarmalarına) tətbiq etmişlər. Məsələn: Mərkəzi səltənət o vaxt Şamda və ya Mədinədə olduğundan, hadisələri hz. Mehdiyyə və ya Süfyaniyyəni (hz. Mehdi və Süfyan ilə əlaqədar hadisələri) mərkəz-i səltənət ətrafında olan Bəsrə, Kufə, Şam kimi yerlərdə təsəvvür edərək (düşünərək) elə təfsir etmişlər (açıqlamışlar). (Sözler, 359)

Bədiüzzaman, son səltənət və xəlifəliyin mərkəzi İstanbulda olduğu üçün hz. Mehdi ilə bağlı hadisələrin də bu şəhərdə reallaşacağını bildirmişdir:

## HZ. MEHDİ KİMİ ƏŞHASIN (ŞƏXSLƏRİN):

Peyğəmbərimiz (s.ə.v) hədislərində, özündən sonra gələcək bir çox şəxs olacağını bildirmişdir. Bu kəslərin bəziləri gəlib, vəzifələrini yerinə yetirib vəfat etmişlər. Hər əsrin əvvəlində göndərilən mücəddidlər bunlardan bəziləridir. Peyğəmbərimiz (s.ə.v)-in gələcəyini xəbər verdiyi şəxslərin bəziləri də hələ gözlənilir. Bədiüzzaman da əsərlərində hələ də gözlənilən olan bu Axırzaman şəxsləri haqqında hədislər əsasında təfərrüatlı məlumatlar vermişdir. Hz. İsa və hz. Mehdi ilə yanaşı, Dəccal və Süfyan *(hədislərdə Axırzamanda İslam dünyasında ortaya çıxacağı və hz. Mehdiyə qarşı mübarizə edəcəyi bildirilən və Süfyan-ı Dəccal olaraq xatırlanan şəxs)* kimi inkara əsaslanan bir mübarizə edəcək Axırzaman şəxsləri də Bədiüzzamanın məlumat verdiyi bu kəslər arasındadır.

Bədiüzzaman buradakı **"HZ. MEHDİ KİMİ ƏŞHASIN (ŞƏXSLƏRİN)"** sözləriylə əvvəlcə çox açıq bir şəkildə hz. Mehdinin mənəvi bir varlıq olmadığını, **"BİR ŞƏXS OLDUĞUNU"** ifadə etmişdir. Bədiüzzaman bu ifadəsiylə həmçinin, hz. Mehdi kimi, digər Axırzaman şəxslərinin

də mənəvi şəxsiyyətlər olmadıqlarını, eyni şəkildə **"BİR ŞƏXS"** olduqlarını bildirmişdir. Şübhəsiz ki, Bədiüzzamanın bu sözləri, Axırzaman şəxslərindən bir qisminin bir "şəxs", bir qisminin isə bir **"şəxsi mənəvi"** olaraq gələcəkləri iddialarını etibarsız edir. Çünki Bədiüzzaman "hz. Mehdi kimi şəxslər" sözləriylə bunların hamısını əhatə edən və hamısı üçün "ŞƏXS" təsvirini edən bir ifadə istifadə edir. Necə ki, Bədiüzzaman əsərlərində Dəccal və Süfyanın bir şəxs olduqlarını nə qədər dəqiq bir şəkildə izah edibsə, hz. İsa və hz. Mehdi mövzusunda da bu həqiqəti o qədər açıq və aydın olan sözlərlə dilə gətirmişdir. Dəccalın da fiziki xüsusiyyətlərini izah etmiş, hz. İsa və hz. Mehdinin də fiziki xüsusiyyətlərini təsvir etmişdir. Bu səbəbdən, hz. İsa və hz. Mehdinin bir şəxsi mənəvi olacaqları düşüncəsi, Bədiüzzamanın bu şərhlərinin hamısıyla ziddiyyətlidir. Bədiüzzaman bu sözündə, hz. Mehdidən açıq-aydın bir şəxs sözünü istifadə edərək bəhs edir və əks istiqamətdəki düşüncələrin etibarsızlığını ortaya qoyur.

Həm bu sirdəndir ki; **MEHDİ, SÜFYAN KİMİ AXIRZAMANDA GƏLƏCƏK ƏŞHASLARI** çox zaman əvvəl hətta tabiin (Peyğəmbərimiz (s.ə.v)-i sağ ikən görmüş olan möminlərlə, yəni səhabələrlə görüşmüş və onlardan dərs almış olan saleh müsəlmanlar) zamanında onları gözləmiş və yetişməyə çalışmışlar." (Sözlər, s. *358)*

## MEHDİ, SÜFYAN KİMİ AXIRZAMANDA GƏLƏCƏK ƏŞHASLARI:

Bədiüzzaman buradakı ifadəsində də **"MEHDİ, SÜFYAN KİMİ AXIRZAMANDA GƏLƏCƏK ƏŞHASLARI (ŞƏXSLƏR)"** deyərək, Axırzamanda gələcək olan hz. Mehdinin və ona qarşı mübarizə aparacağı bildirilən Süfyanın **"BİR ŞƏXS OLDUQLARINI"** Sözlər adlı əsərində **"2-Cİ DƏFƏ"** daha ifadə etmişdir. Bədiüzzaman Risalə-i Nurda yer alan, hz. Mehdi və Axırzaman şəxslərindən bəhs etdiyi bütün sözlərində həmişə eyni ifadələri istifadə etmiş, bu kəslərdən "şəxs" kimi sözlərlə bəhs etmişdir. Bədiüzzaman bu sözündə də bu həqiqəti yenidən ifadə edir.

Həmçinin, Bədiüzzaman, bu kitabında hz. Mehdi üçün istifadə etdiyi "GƏLƏCƏK" sözüylə, hz. Mehdinin **"irəlidəki bir tarixdə gələcək bir şəxs olduğunu"** ikinci dəfə də vurğulamışdır. Bədiüzzaman bu yolla, yaşadığı dövrdə hz. Mehdinin hələ gəlməmiş olduğunu aydın bir şəkildə ifadə edir.

Bəzi ayət-i kərimə (ayələr) və əhadisi şərifə (hədislər) AXIRZAMANDA GƏLƏCƏK BİR MÜCƏDDİD-İ ƏKBƏRİ (ən böyük mücəddidi) məna-ı işari ilə (işari mənada) xəbər verirlər. Lakin O GƏLƏCƏK ŞƏXSİN VƏ CƏMİYYƏTİNİN ÜÇ VƏZİFƏSİNDƏN ən əhəmiyyətlisi (vacibi) olan və zahirən (görünüşcə) ən kiçiyi görünən imanı qurtarmaq və hakaik-i imaniyeyi (iman

həqiqətlərini) günəş kimi göstərmək vəzifəsini Risalə-i Nur və şagirdlərinin (tələbələrinin) şəxsi mənəvisi tam etdiklərindən; O GƏLƏCƏK ŞƏXSƏ dair XƏBƏRLƏRİ VƏ İŞARƏLƏRİ, RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNƏ HƏTTA BƏZƏN TƏRCÜMƏÇİSİNƏ DƏ TƏTBİQƏ (uydurmağa) ÇALIŞMIŞLAR və Şəriəti əhya (Quran əxlaqının əsaslarını xatırladaraq yenidən həyata keçirmə) və xilafəti tətbiq olan ÇOX GENİŞ DAİRƏDƏ HÖKM EDƏN BU MÜHÜM VƏZİFƏSİNİ NƏZƏRƏ ALMAMIŞLAR (göz qarşısında saxlamamışlar). *(Tilsimlər Məcmuəsi, səh. 168)*

<u>O:</u>

Bədiüzzaman Hz. Mehdidən "8-ci dəfə" "O" əvəzliyini istifadə edərək bəhs etmişdir. **"O" əvəzliyi "TƏK BİR ŞƏXS" ifadə edən bir kəlmədir.** Bu səbəbdən, Bədiüzzamanın hz. Mehdidən bəhs edərkən bir birliyi ya da bir şəxsi mənəvini nəzərdə tutmadığı çox açıqdır. **Əgər belə bir vəziyyət olsaydı Bədiüzzaman burada "O" yerinə "onlar" əvəzliyini ya da buna bənzər bir başqa ifadə istifadə edərdi.** Ancaq belə bir ifadə şəkli burada istifadə edilmədiyi kimi, Bədiüzzamanın hz. Mehdidən bəhs etdiyi sözlərinin heç birində istifadə edilməmişdir. Əksinə, sadəcə kitabın bu hissəsinə qədər yer alan sözlərində belə bu sözü tam "8 dəfə" təkrarlamışdır. Bədiüzzaman bu sözü çox şüurlu bir şəkildə dəfələrlə vurğulayır. Bu səbəbdən, çox açıqdır ki, Bədiüzzaman burada, bütün müsəlmanlara öndərlik edəcək və insanların hidayətinə vəsilə olacaq bir adamın varlığından danışır.

<u>GƏLƏCƏK:</u>

Bədiüzzaman, istifadə etdiyi "o GƏLƏCƏK şəxs" ifadəsiylə, hz. **Mehdinin "irəlidəki bir tarixdə gəlməsi gözlənilən bir şəxs" olduğunu bir daha ifadə etmişdir.** Bədiüzzamanın müsəlmanları səhv məlumatlandırması mümkün ola bilməyəcəyinə görə, hz. Mehdi Bədiüzzamanın zamanında ya da ondan əvvəlki dövrlərdə hələ gəlməmişdir. Çünki əgər belə bir vəziyyət olsaydı, o zaman Bədiüzzaman, "O GƏLƏCƏK ŞƏXSİN" ifadəsi yerinə, "o gəlmiş olan şəxs" kəlməsini istifadə edərdi. Buna baxmayaraq, Bədiüzzamanın belə qəti bir ifadəni bu qədər çox təkrarlamış olması, Bədiüzzamanın hz. Mehdinin irəlidəki bir tarixdə gələcəyinə olan qənaətinin də o cür qəti olduğunu ortaya qoyur.

<u>ŞƏXSİN:</u>

Bədiüzzaman bu şərhində hz. Mehdi üçün "O gələcək şəxslər" deyil, "o gələcək ŞƏXS" ifadəsini istifadə etmişdir. Bədiüzzaman bu sözləriylə, hz. Mehdinin bir şəxsi mənəvi, ruh ya da məna kimi bir varlıq və ya bir birlik olmadığını açıqca ifadə etmişdir. "ŞƏXS" sözü "tək" bir

sözdür və bir insanı ifadə etmək üçün istifadə edilər. Bu səbəbdən, Bədiüzzaman burada "TƏK BİR ŞƏXSDƏN" bəhs edir.

Ayrıca bu, Bədiüzzamanın hz. Mehdi üçün "7-ci dəfə" istifadə etdiyi "şəxs" ifadəsidir. Bədiüzzaman kimi böyük bir mütəfəkkirin, belə açıq bir məna daşıyan bir ifadəni bu qədər çox təkrarlaması şübhəsiz ki, müəyyən bir hikmət daşıyır. Bədiüzzaman, hz. Mehdinin bir şəxsi mənəvi olmadığı mövzusunda bütün müsəlmanları məlumatlandırır və bu müqəddəs şəxsin gəlişiylə müjdələyir.

**VƏ**:

**Bədiüzzaman burada "O gələcək şəxsin VƏ cəmiyyətinin" ifadəsini istifadə etmişdir. "O GƏLƏCƏK ŞƏXS" və "BU ŞƏXSİN CƏMİYYƏTİ" iki ayrı anlayışdır.** Bədiüzzaman "VƏ" sözünü istifadə edərək bu ikisinin ayrı şeyləri ifadə etdiyini açıqca ifadə etmişdir. Əgər hz. **Mehdi bir şəxsi mənəvi olsaydı ya da bu cəmiyyət mehdilik vəzifəsini boynuna götürmüş olsaydı, Bədiüzzaman burada "O gələcək cəmiyyət" ya da "Mehdilik vəzifəsini boynuna götürəcək cəmiyyət" kimi bu mövzunu dəqiqləşdirən açıq ifadələr istifadə edərdi.** Ancaq Bədiüzzaman heç bir etiraza yer buraxmayacaq şəkildə açıqca "O gələcək şəxs və cəmiyyəti" sözlərini istifadə etmiş və hz. Mehdinin, onu izləyənlərdən ibarət olan bir birliyin başında olan bir şəxs olduğunu ifadə etmişdir. Bədiüzzamanın vurğuladığı bu həqiqət bir neçə sual soruşulduğunda da açıqca görülə bilinir:

1- **Bədiüzzaman Axırzamanda gələcək bu şəxsin tək başınamı olduğunu vurğulamışdır?**

**Xeyr, Bədiüzzaman hz. Mehdinin bərabərində bir cəmiyyətinin də olacağını açıqlamışdır.**

2- **Bədiüzzaman, bəhs etdiyi bu cəmiyyətin başında hər hansı bir şəxsin olacağını ifadə etmişdirmi?**

**Bəli, Bədiüzzaman bu cəmiyyətin başında hz. Mehdinin şəxsən olacağını bildirmişdir.**

<u>CƏMİYYƏTİNİN:</u>

Bədiüzzaman burada bir cəmiyyətin varlığından bəhs etmişdir. **Bu cəmiyyət, Bədiüzzamanın "o gələcək şəxs" sözləriylə müjdələdiyi hz.** Mehdinin köməkçilərinin və dəstəkçilərinin meydana gətirdiyi bir cəmiyyətdir. Bədiüzzaman əsərlərinin bir çox yerində Peyğəmbərimiz (səv)-in hədisləri əsasında hz. Mehdinin bir camaatı olacağını və camaatın

hz. Mehdinin edəcəyi fəaliyyətlərdə onun köməkçiləri olacağını ifadə etmişdir. Ancaq hz. Mehdinin bu hərəkətin öndəri və lideri olaraq, şəxsən bu birliyin başında olacağını da ifadə etmişdir. Bədiüzzaman, hz. Mehdiyə tabe olan və onun təbliğini izləyən bu kütlə və hərəkəti "Hz. Mehdinin şəxsi mənəvisi" olaraq adlandırmışdır. Ancaq Bədiüzzamanın da ifadə etdiyi kimi bu çox açıq bir həqiqətdir ki, başında olan bir şəxs, bir liderləri olmadan bir şəxsi mənəvidən bəhs etmək mümkün deyil. Hz. Mehdi də bu cəmiyyətinin başında, onlara öndərlik etmək üzrə şəxsən iştirak edəcəkdir. Bu səbəbdən, Bədiüzzamanın bu şərhlərinə görə "**HZ. MEHDİ ÖZÜNÜ İZLƏYƏN BİR CAMAATI OLAN VƏ ONLARA LİDERLİK EDƏN TƏK BİR ŞƏXSDİR".**

O:

Bədiüzzaman, burada da "9-cu **dəfə" hz.** Mehdi üçün "O" sözünü istifadə etmişdir. "O" sözünün tək bir adamı ifadə etdiyi çox açıqdır. Bədiüzzaman burada mənəvi bir adamdan, bir qrupdan ya da bir hərəkətdən bəhs etmir, hz. Mehdinin şəxsən gəlişini müjdələyir. Bu sözü "9 dəfə" təkrarlamış olması isə, Bədiüzzamanın bu mövzudakı şərhlərinin heç bir şübhəyə yer buraxmayacaq qədər qəti olduğunu ortaya qoyur.

GƏLƏCƏK:

Bədiüzzaman burada istifadə etdiyi "GƏLƏCƏK" sözüylə həmçinin, hz. Mehdinin gəlişinin qəti bir həqiqət olduğunu da vurğulamışdır. Əgər hz. Mehdi mənəvi bir şəxsdən ibarət olsaydı, şübhəsiz ki, Bədiüzzaman sözlərində dəfələrlə onun "gələcəyini" ifadə etməzdi. Bu səbəbdən, Bədiüzzaman bu sözüylə eyni zamanda hz. Mehdinin bir şəxs olduğunu da açıqlamışdır.

ŞƏXSƏ:

Bədiüzzaman, hz. Mehdi üçün Risalə-i Nurun bir çox yerində olduğu kimi bu hissəsində də "ŞƏXS" kəlməsini istifadə etmişdir. Demək ki, hz. Mehdi, bir camaat və ya mənəvi bir insan deyil, bir "şəxs"dir. Buradakı "şəxs" sözü, Bədiüzzamanın kitabın əvvəlindən bu yana hz. Mehdi üçün "8-ci dəfə" istifadə etdiyi bir ifadədir. Bədiüzzamanın müsəlmanları səhv istiqamətləndirməsi və ya məlumatını gizləməsi düşünülə bilməyəcəyinə görə; əgər hz. Mehdi bir camaat və ya şəxsi mənəvi olsaydı, şübhəsiz ki, Bədiüzzaman da "O ŞƏXS" kəlməsini bu qədər çox təkrarlamazdı.

**O İRƏLİDƏ GƏLƏCƏK ACİB (təəccübləndirən, heyrət oyandıran, bənzəri görülməyən) ŞƏXSİN bir XİDMƏTÇİSİ və ONA YER HAZIR EDƏCƏK BİR DÜMDARI (köməkçi qüvvəsi) və O BÖYÜK KOMANDİRİN PİŞDAR BİR NƏFƏRİ (öndə gedən bir əsgəri) olduğumu zənn edirəm.** *(Barla Lahikası, səh. 162)*

Bədiüzzaman bu sözündə, özünü hz. Mehdinin bir növ "qabaqcılı" olaraq xarakterizə etmiş və hz. Mehdinin "özündən sonra gələcəyini" açıqlamışdır:

O:

Bədiüzzaman cümlənin başında "O" əvəzliyini istifadə edərək "bir şəxsi" nəzərdə tutduğunu xüsusilə vurğulayır. **"O" əvəzliyinin "tək bir adam"a işarə etdiyi açıqdır.** Bədiüzzaman bir şəxsi mənəvidən, qrupdan ya da birlikdən bəhs etmir, hz. Mehdinin mübarək şəxsinin gəlişini müjdələyir.

Bədiüzzaman bu söz ilə birlikdə, kitabın əvvəlindən bəri hz. Mehdi ilə əlaqədar yer verilən sözlərində "10-cu dəfə" "O" ifadəsini istifadə etmişdir. Bədiüzzamanın bu sözlərinin "10-nun birdən təvafüq etmiş olması" mümkün deyildir. Bədiüzzaman, hz. Mehdi üçün bu ifadəni son dərəcə şüurlu bir şəkildə istifadə edir və bu yolla bu mübarək şəxsin bir şəxsi mənəvi ya da bir birlik ola biləcəyi istiqamətindəki bütün iddiaları etibarsız edir.

ACİB ŞƏXSİN:

Bədiüzzaman "ŞƏXS" sözünü istifadə edərək, müəyyən bir adamdan bəhs edir. Bədiüzzaman bu sözüylə bir birlikdən və ya şəxsi mənəvidən danışır. Əgər Bədiüzzaman, hz. Mehdinin şəxsi mənəvi olaraq gələcəyini düşünsəydi,-həyatı boyunca həqiqətləri ifadə etməkdən əsla çəkinməmiş böyük bir alim olaraq- bunu da açıqca ifadə edərdi. Ancaq Bədiüzzaman, burada və daha bir çox ifadəsində olduğu kimi, hz. Mehdinin müqəddəs şəxsindən bəhs edir. Hz. Mehdinin Axırzamanda "bir ŞƏXS" olaraq gələcəyini açıqca söyləyir və bunu, əks bir istiqamətdə şərh edilə bilməyəcək qədər bir çox sözüylə dəfələrlə təsdiq edir.

Bədiüzzaman burada ayrıca şəxs sözünü xarakterizə etmək üçün tək bir ifadə istifadə etmişdir. Demək ki, Bədiüzzaman "TƏK BİR ŞƏXS"dən bəhs edir, "iki və ya üç şəxsdən" deyil. Bədiüzzamanın bu sözləri, hz. Mehdinin bir qrup ya da bir birlik ola biləcəyi düşüncəsini tamamilə etibarsız edir.

**Bununla yanaşı, Bədiüzzaman "bir şəxs" olduğunu ifadə etdiyi hz.** Mehdinin əhəmiyyətli bir xüsusiyyətini də vurğulamışdır. Hz. **Mehdinin "ACİB BİR ŞƏXS" olduğunu ifadə etmişdir. "Acib" sözü, "heyrət verən, təəccübləndirici, bənzəri görülməyən" mənasındadır.** Hədislərdə hz. Mehdinin çox böyük bir fikri mübarizəsi olacağı, etdiyi işlərin dünya səviyyəsində təsir göstərəcəyi bildirilir. Bədiüzzaman da, hz. Mehdidən "ACİB" ifadəsiylə bəhs edir, bu mübarək şəxsin daha əvvəl "BƏNZƏRİ GÖRÜLMƏMİŞ BİR ADAM" olacağına diqqət çəkir.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdinin istifadə etdiyi üsulların və mübarizə şəklinin adətdənkənar olacağı bildirilmişdir. Bu məlumatlara görə hz. Mehdi çox təsirli üsullar istifadə edəcək, hər mövzuda müvəffəqiyyətli nəticələr əldə edəcək. Bu müvəffəqiyyətinə qarşılıq, özünə çox sıx hücumlar olmasına baxmayaraq bunlardan heç təsirlənməyəcək. Bədiüzzaman da bu sözüylə hz. Mehdinin hər kəsin anlaya bilməyəcəyi vəhbi (çalışmaqla qazanılmayıb, Allahın lütfüylə olan) elmlərə də vəqf bir şəxs olacağını ifadə etmişdir. Bədiüzzamanın bu sözündən aydın olduğu kimi, hz. Mehdi dövründə heyrət verici hadisələr də yaşanacaq. Hədislərdə bildirildiyinə və İslam alimlərinin ifadələrinə görə, fövqəladə təbiət hadisələri, gözlənilməz siyasi dəyişmələr, texnologiyanın sürətlə inkişafı, dünya səviyyəsində təbliğ edilməsi bənzəri görülməmiş bir dövr olacağını izah edir. Hz. Mehdi hər an Allahın yaxın təqibinə və köməyinə nail olacaq. Bu səbəblə, Bədiüzzamanın da ifadə etdiyi kimi, iman gözüylə baxmayanların təəccüblənəcəyi, asanlıqla açıqlaya bilməyəcəyi möcüzəlikdə müvəffəqiyyətlərə vəsilə olacaq.

ONA:

Bədiüzzaman burada da hz. Mehdi üçün "11-ci dəfə" "O" sözünü istifadə edir. Bu, həm tək bir ifadədir, həm də bir şəxs əvəzliyidir. Bu səbəbdən, Bədiüzzaman beləcə bir dəfə daha hz. Mehdinin şəxsi mənəvi olaraq deyil, "bir ŞƏXS" olaraq gələcəyini və bunun "tək bir adam" olacağını vurğulayır. Bədiüzzaman özünün işləriylə bir şəxsi mənəviyə deyil, müqəddəs bir şəxsə mühit hazırladığını "ONA" ifadəsiylə açıqca söyləyir.

<u>YER HAZIR EDƏCƏK:</u>

**Bədiüzzaman burada "ONA YER HAZIR EDƏCƏK" ifadəsini istifadə edərək, hz.** Mehdinin özündən sonra gələcək bir kimsə olduğunu bir dəfə daha açıqlamışdır. Bilindiyi kimi "hazırlıq" bir şeyin əvvəlində edilən bir hərəkətdir. Hal-hazırda mövcud olan, hazır olan bir şey üçün hazırlıq edilməsi qeyri-mümkündür. Bədiüzzaman da burada özünün "Hz. **Mehdinin gəlişindən əvvəl belə bir hazırlıq içərisində olduğunu" ifadə edir.** Bu da hz. Mehdinin, Bədiüzzamanın yaşadığı dövrdə hələ ortaya çıxmamış olduğunu, bu dövrün bir "hazırlıq dövrəsi" olduğunu göstərir.

Hədislərdə yer alan təriflərə və Bədiüzzamanın şərhlərinə görə, Axırzaman mübarizəsi çox əhatəli bir fikri mübarizə olacaq. Bu fikri mübarizədə hz. Mehdi dövründə yaşayan saleh möminlər vəzifə aldığı kimi, özündən əvvəl gəlib ona yer hazırlayacaq köməkçiləri, dostları da olacaq. Bədiüzzaman da bu sözləriylə bu həqiqətə işarə edir. Böyük İslam alimi, qiymətli xidmətləri ilə Axırzamanda gələcək olan hz. Mehdiyə mühit hazırladığını dilə gətirir. Fikri

mübarizəsinin, xidmətlərinin, əsərlərinin hz. Mehdinin işlərinə fayda verəcəyini və bunların hz. Mehdi tərəfindən qaynaq olaraq istifadə ediləcəyini ifadə edir.

BİR DÜMDARI (köməkçi qüvvəsi):

**"DÜMDAR" sözü "köməkçi qüvvə" mənasını verir.** Bədiüzzaman, bu sözüylə özünü, əsl mübarizəni icra edən şəxsə imkan hazırlayan köməkçi qüvvələrə bənzətmişdir. Bu şəkildə, özündən sonra gələcək olan və edəcəyi böyük fikri mübarizə ilə İslam əxlaqının gətirdiyi bütün gözəllikləri yer üzünə hakim edəcək olan hz. Mehdinin bir köməkçisi olduğunu ifadə edir.

O:

Bədiüzzaman burada hz. Mehdi üçün "12-ci dəfə" "O" əvəzliyini istifadə edərək bəhs edir və onun "tək bir şəxs" olduğunu vurğulayır. Bədiüzzamanın eyni ifadəni dəfələrlə və israrla təkrarlamış olması, şübhəsiz ki, bunun bir təvafüq olmadığını göstərir. Bədiüzzaman son dərəcə şüurlu və qəsdli bir şəkildə "Hz. Mehdinin Axırzamanda gələcək “TƏK BİR ŞƏXS" olduğunu ifadə edir və bunun xaricində bir düşüncəni qarşıya qoyanlar üçün mövzuya açıqlıq gətirir.

BÖYÜK KOMANDİRİN:

Bədiüzzaman hz. **Mehdidən bəhs edərkən "O BÖYÜK KOMANDİR" sözlərini istifadə edərək hz. Mehdinin "komandirlik xüsusiyyətinə" də diqqət çəkir.** Bir şəxsi mənəvinin komandirlik sifəti daşımasının mümkün ola bilməyəcəyi çox açıqdır. Bədiüzzaman burada çox açıq bir şəkildə, hz. Mehdinin bu vəzifəsini yerinə yetirəcək "BİR ŞƏXS" olduğunu ifadə edir.

PİŞDAR BİR NƏFƏRİ (öndən gedən bir əsgəri):

**Bədiüzzamanın burada istifadə etdiyi "PİŞDAR BİR NƏFƏR" ifadəsi, "ÖNDƏN GEDƏN ƏSGƏR" mənasını daşıyır.** Bədiüzzaman bu sözüylə özünü öndən gedən qabaqcıl qüvvələrə bənzədərkən, hz. Mehdinin özündən sonra gələcəyini bir dəfə daha vurğulamışdır. **Bədiüzzaman "özünü ÖNDƏN GEDƏN" bir adam olaraq xarakterizə etməklə;** "Hz. **Mehdinin isə özündən SONRA GƏLƏN" bir kimsə olduğunu dəqiqləşdirir.**

Bədiüzzaman burada ayrıca "bir nəfər" yəni, əsgər sözünü istifadə edərək, özünün hz. Mehdi deyil, onun bir köməkçisi və ona xidmət edən bir vəzifəli olduğunu bir dəfə daha ifadə edir. Bədiüzzamanın özünü bir "XİDMƏTÇİSİ, QABAQCILI" olaraq səciyyələndirdiyi və bu qədər təriflə, hörmətlə bəhs etdiyi hz. Mehdi, bütün İslam aləmi tərəfindən əsrlərdir gözlənilir. Bədiüzzaman da bu şərhləriylə, hz. Mehdinin Axırzamanda, Allahın izniylə, şübhəsiz ortaya çıxacağını möminlərə müjdələyir.

HƏQİQİ GÖZLƏNİLƏN və BİR ƏSR SONRA GƏLƏCƏK O ŞƏXS də bu zamanda gəlsə... (Kastamonu Lahikası, səh. 57)

Bədiüzzaman Səid Nursi, hz. Mehdinin hələ gəlmədiyini, müsəlmanlar tərəfindən gözlənildiyini və öz yaşadığı dövrdən bir əsr sonra gələcəyini bildirir:

BİR ƏSR SONRA GƏLƏCƏK:

Bədiüzzaman burada hz. Mehdi üçün bir dəfə daha "GƏLƏCƏK" sözünü istifadə etmiş və onun öz yaşadığı dövrdə hələ gəlmədiyini və "İRƏLİDƏ GƏLƏCƏYİNİ" təkrar ifadə etmişdir. Bu sözüylə, eyni zamanda hz. **Mehdinin "mənəvi bir şəxsiyyət" deyil, "GƏLMƏSİ GÖZLƏNİLƏN BİR İNSAN" olduğunu da bir dəfə daha vurğulamışdır.**

Bununla yanaşı Bədiüzzaman bu sözündə, gəlməsi gözlənilən bu mübarək şəxsin gəliş zamanını da müjdələyir. Hz. **Mehdinin "ÖZÜNDƏN BİR ƏSR SONRA, YƏNİ HİCRİ 1400-CÜ İLLƏRDƏ" ortaya çıxacağını xəbər verir.** Şübhəsiz ki, əgər Bədiüzzaman hz. Mehdinin öz dövründə yaşadığını düşünsəydi, belə uzaq bir tarix verməz, əksinə açıqca ifadə edərdi. Demək ki, Bədiüzzamanın bu mövzudakı qənaəti heç bir etiraza yer buraxmayacaq qədər qətidir.

ŞƏXS:

Bədiüzzaman, burada hz. Mehdidən "O ŞƏXS" deyərək bəhs edir və hz. Mehdinin mübarək şəxsinin gələcəyini xəbər verir. Bədiüzzaman bir şəxsi mənəvidən ya da birlikdən danışmır. Üçüncü tək şəxsi ifadə edən "O" əvəzliyini və "tək bir adam"ı ifadə edən "ŞƏXS" sözünü istifadə edir. Bədiüzzaman beləcə, hz. **Mehdinin yalnız "TƏK BİR ADAM" olacağını da açıqlayır.**

Bir vəchi (səbəbi) budur ki: **SEHR VƏ MANYETİZMA VƏ İSPİRTİZMA KİMİ İSTİDRACI MÖCÜZƏLƏRİYLƏ (hipnoz və ruhlarla əlaqə tərzindəki saxta möcüzələriylə) ÖZÜNÜ MÜHAFİZƏ EDƏN VƏ HƏR KƏSİ TƏSHİR EDƏN (ovsunlayan, aldadan) O DƏHŞƏTLİ DƏCCALI yox edə biləcək, məsləyini dəyişdirəcək; ANCAQ MÖCÜZƏ VƏ MUCİZATLI VƏ ÜMUMİNİN MƏQBULU (möcüzələri olan və hər kəsin qəbul etdiyi) BİR ŞƏXS OLA BİLƏR Kİ, O ŞƏXS ən çox əlaqədar və əksər insanların (insanların əksəriyyətinin) Peyğəmbəri olan HƏZRƏTİ İSA ƏLEYHİSSALAMDIR.** *(Şüalar, səh. 493)*

Bədiüzzaman, Məsih Dəccalın bəzi fövqəladə güclərlə insanları aldatmağa çalışacağını ancaq onun bu fitnəsinin, hz. İsanın ikinci dəfə yer üzünə gəlməsiylə tamamilə ortadan qalxacağını izah edir:

## SEHR VƏ MANYETİZMA VƏ İSPİRTİZMA KİMİ İSTİDRACI MÖCÜZƏLƏRİYLƏ (HİPNOZ VƏ RUHLARLA ƏLAQƏ TƏRZİNDƏKİ SAXTA MÖCÜZƏLƏRİYLƏ)... HƏR KƏSİ TƏSHİR EDƏN (OVSUNLAYAN, ALDADAN) O DƏHŞƏTLİ DƏCCALI:

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədisləri əsasında Dəccalın bəzi fövqəladə güclərə sahib olacağına diqqət çəkir. Dəccalın saxta möcüzələr göstərəcəyini bildirən hədislərdən bəziləri bu şəkildədir:

*Fitnəsindən biri də budur: O, bir bədəviyə: "Söylə baxım! Əgər mən SƏNİN ÜÇÜN ANANI VƏ ATANI DİRİLTSƏM mənim sənin Rəbbin olduğuma şahidlik edərsənmi?" deyəcək. Bədəvi də: "Bəli," deyəcək. Bunun üzərinə İKİ ŞEYTAN ONUN ATASI VƏ ANASI SURƏTLƏRİNDƏ ONA GÖRÜNƏCƏKLƏR... (Süneni İbni Macə, 4077)*

*Onun bir fitnəsi də budur: O, tək bir adama müsəllət olaraq O ADAMI ÖLDÜRÜB MİŞARLA BİÇƏCƏK. Hətta o adamın cəsədi iki parçaya bölünmüş olaraq (ayrı-ayrı yerlərə) atılacaq. Sonra Dəccal (orada olanlara): "Bu (öldürdüyüm) quluma baxın. İNDİ MƏN ONU DİRİLDƏCƏYƏM.." deyəcək. (Süneni İbni Macə, 4077)*

Hədislərdə, Dəccalın yalançı möcüzələrini, fitnələrini insanlara qəbul etdirə bilmək üçün istifadə edəcəyi bildirilir. (Allahu Aləm) Zəif ağıllı insanlar bunları sanki bir "möcüzə" zənn edə bilərlər. Halbuki, möcüzə Allahın vəli qullarına lütf etdiyi bir nemətdir. Dəccalın göstərdiyi fövqəladə hadisələr isə bir istidrac yəni, Allahın insanları sınamaq üçün yaratdığı və inkarçılarda görülən yalançı möcüzələrdir.

Bədiüzzaman, Dəccalın bu hiyləli üsulları istifadə edərək insanların çoxunu təsiri altına alacağını ifadə edir. Hədislərdə də Dəccalın, hipnoz və cadu nümayişləri kimi

aldatmacalarla kifayət qədər məlumat sahibi olmayan və ya imani cəhətdən zəif olan bəzi insanları təsiri altına ala biləcəyi xəbər verilir. Xüsusilə də, bütün xristian dünyasının hz. İsanı və yəhudilərin də Məsihi gözlədikləri bir dövrdə, Dəccalın göstərdiyi bu yalançı möcüzələr və hiylələr, bir çox adamın Dəccala aldanmasına səbəb olacaq. Bədiüzzaman buradakı sözüylə, Dəccalın bu xüsusiyyətini vurğulayaraq, eyni zamanda onun bir şəxsi mənəvi olmadığını da ifadə edir. Bədiüzzaman, Dəccalın insanları aldada biləcək xüsusiyyətdə, hipnoz və cadu kimi hiyləli üsullar istifadə edə bilmə qabiliyyətinə sahib olduğundan bəhs edərək bu vəziyyətə açıqlıq gətirmişdir. Şübhəsiz, Bədiüzzamanın Dəccal mövzusundakı bu izahatları əsasında Dəccalın bir şəxs olduğunu qəbul edib, hz. İsa və Hz. Mehdi mövzusunda verdiyi onlarla dəlil və təfərrüata baxmayaraq onların bir şəxsi mənəvi ola biləcəkləri ehtimalını qarşıya qoymaq çox səhv bir yanaşma olar. Yüksək elm sahibi bir şəxs olan Bədiüzzaman şübhəsiz ki, bütün sözlərini, müsəlmanları ən doğru məlumatlandıracaq şəkildə açıqlamış, bu mövzuda da heç bir şübhəyə yer buraxmayacaq bir üslubla **"Dəccal kimi hz. İsa və hz. Mehdinin də BİR ŞƏXS olduqlarını"** ifadə etmişdir.

## ANCAQ MÖCÜZƏ VƏ MUCİZATLI VƏ ÜMUMİNİN MƏQBULU (MÖCÜZƏLƏRİ OLAN VƏ HƏR KƏSİN QƏBUL ETDİYİ) BİR ŞƏXS OLA BİLƏR Kİ:

Bədiüzzaman, Məsih Dəccalın fitnəsini ortadan qaldıra biləcək adamın isə, Allahın rəhmətiylə, möcüzələri olan və insanların çoxunun ona tabe olduğu mübarək "BİR ŞƏXS" olacağını söyləyir. Sözünün davamında da bu müqəddəs adamın hz. İsa olduğunu bildirir. Bu son dərəcə açıq və fərqli, başqa heç bir düşüncəyə yer verməyəcək dəqiqlikdə bir sözdür: Bədiüzzaman açıq şəkildə "Hz. İsanın BİR ŞƏXS olduğunu" ifadə edir, bu qəti ifadəsiylə onun bir şəxsi mənəvi ola biləcəyi istiqamətindəki bütün düşüncələri kökündən rədd edir.

**Bununla yanaşı, Bədiüzzaman burada istifadə etdiyi "MÖCÜZƏ VƏ MUCİZATLI VƏ ÜMUMİNİN MƏQBULU BİR ŞƏXS" sözləriylə, hz.** İsanın yenə bir şəxs olduğunu ortaya qoyan əhəmiyyətli bəzi xüsusiyyətlərini vurğulayır. Bədiüzzaman "Hz. **İsanın möcüzələr göstərə bilən BİR ŞƏXS olduğunu" ifadə etmişdir.** Ayrıca, "Hz. **İsanın insanların böyük bir qismi tərəfindən qəbul edilən BİR ŞƏXS olduğunu" xatırladır.** Şübhəsiz ki, üstün bir elmə sahib olan Bədiüzzaman bir şəxsi mənəvinin möcüzə göstərməsinin mümkün olmayacağını çox yaxşı bilir. Eyni şəkildə, bir şəxsi mənəvinin "ümuminin məqbulu bir şəxs" ola bilməyəcəyini də bilir, hz. **İsanı tanıdan bütün bu xüsusiyyətləri çox şüurlu bir şəkildə istifadə edərək onun "BİR ŞƏXS" olaraq yer üzünə ikinci dəfə gələcəyini bütün müsəlmanlara müjdələyir.**

## <u>O ŞƏXS... HZ. İSA ƏLEYHİSSALAMDIR:</u>

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində xəbər verdiyi kimi Dəccalın fitnəsini hz. İsanın ortadan qaldıracağını bildirir:

*Allahın düşməni olan **MƏSİHİ DƏCCAL, İSA ƏLEYHİSSALAMI GÖRÜNCƏ, DUZUN SUDA ƏRİDİYİ KİMİ ƏRİYƏR. Hz.** İsa onu tərk edib buraxsa belə həlak olana qədər əriyib gedəcək. **Lakin ALLAH ONU ŞƏXSƏN İSA ƏLEYHİSSALAMIN ƏLİYLƏ YOX EDƏCƏK.** (Müslim, Kitabü'l Fiten: 34)*

*... **DƏCCAL ORTALIĞA FİTNƏ YAYARKƏN CƏNABI HAQQ, MƏSİH MƏRYƏM OĞLU İSANI GÖNDƏRƏR...** Nəfəsini idrak edən hər kafir mütləq yox olar. İsa (ə.s) Dəccal ilə Lüdd qapısında (Beytül Makdisə yaxın bir diyar) qarşılaşar və ONU YOX EDƏR. (Sahih-i Müslim; Büyük Fitne Mesih-i Deccal, Saim Güngör, səh. 104)*

*... Ardınca, HZ. İSA, DƏCCALI AXTARAR və nəhayət Beytül Makdisə yaxın bir yer olan Bab-ü Lüdd (Lüdd Qapısı) deyilən mövqedə çataraq, ONU YOX EDƏR. (Sahih-i Müslim, c. 4/2251-2255; İmam Şarani, Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri, Bedir Yayınevi, səh. 491)*

Bədiüzzaman "Şüalar" adlı əsərində hz. İsa üçün "2-ci dəfə" istifadə etdiyi "O ŞƏXS" ifadəsiylə, hz. İsanın "BİR ŞƏXS" olduğunu açıq şəkildə ifadə etmişdir. Bədiüzzaman burada, "İki və ya üç şəxs" deməmişdir. Əksinə, hz. İsadan bəhs edərkən istifadə etdiyi bütün sözlər həmişə "TƏK" ifadələrdir; **və hamısında da "TƏK BİR ŞƏXSDƏN" bəhs edir.** Bədiüzzaman bu şərhləriylə, bir dəfə daha hz. **İsanın bir şəxsi mənəvi olmadığını, "MÜBARƏK BİR İNSAN" olduğunu çox açıq ifadələrlə ortaya qoymuşdur.**

**Hətta HƏZRƏTİ İSA ƏLEYHİSSALAMIN NÜZULU (yer üzünə enişi) da və ÖZÜ İSA ƏLEYHİSSALAM OLDUĞU, NURU İMANIN DİQQƏTİYLƏ (imanın işığıyla) BİLİNƏR; HƏR KƏS BİLƏ BİLMƏZ. Hətta DƏCCAL VƏ SÜFYAN KİMİ EŞHAS-I MÜDHİŞE (ürküdücü şəxslər) ÖZLƏRİ DƏ ÖZLƏRİNİ BİLMİRLƏR...** *(Şüalar, səh. 487)*

Bədiüzzaman, hz. İsanın Axırzamanda yer üzünə ikinci dəfə gələcəyini bildirir, ancaq bu mübarək şəxs gəldiyində hər kəsin onu tanımayacağına diqqət çəkir:

## <u>HƏZRƏTİ İSA ƏLEYHİSSALAMIN NÜZULU (YER ÜZÜNƏ ENİŞİ):</u>

**Bədiüzzaman "HƏZRƏTİ İSA ƏLEYHİSSALAMIN NÜZULU" sözləriylə, hz.** İsanın, Allahın bir möcüzəsi olaraq Axırzamanda insani bədəniylə səmadan yer üzünə enəcəyini izah edir. Bədiüzzaman verdiyi bu məlumatlarla hz. İsanın Axırzamanda xristian cəmiyyətinin başında bir məna ya da mənəvi bir lider olaraq deyil, şəxsən hidayət öndəri "BİR ŞƏXS" olaraq olacağını qəti ifadələrlə açıqlayır.

## ÖZÜ İSA ƏLEYHİSSALAM OLDUĞU:

Bədiüzzaman bu sözləriylə, hz. İsanın yer üzünə ilk endiyi zaman, özünün də hz. İsa olduğunu əvvəllər bilməyəcəyini, ancaq daha sonra fərqinə varacağını bildirmişdir. "Belə bir şüurun bir şəxsi mənəvi üçün mümkün ola bilməyəcəyi" çox açıqdır. "BİLMƏ" və "ANLAMA" anlayışları ancaq "BİR İNSAN"a aid ola bilər. **Ancaq "bir insan özünün kim olduğunu anlaya bilər", içərisində olduğu vəziyyəti fərq edə bilər.** Bədiüzzaman da bu vəziyyəti çox yaxşı bilən bir kimsə olaraq bu sözləri istifadə etmiş və hz. İsanın bir şəxsi mənəvi olmadığını açıqca ifadə etmişdir.

Bədiüzzamanın bu həqiqəti vurğuladığı ifadələrindən biri də "ÖZÜ" sözüdür. Bu söz də yenə "ŞƏXS" ifadə edən bir anlayışdır və Bədiüzzaman bu yolla "Hz. **İsanın maddi varlığı olan mübarək bir ŞƏXS olaraq gələcəyini" təkrar dilə gətirir.**

## NUR-U İMANIN DİQQƏTİYLƏ (İMANIN İŞIĞIYLA) BİLİNƏR; HƏR KƏS BİLƏ BİLMƏZ:

Hz. İsanın ikinci dəfə yer üzünə gələcəyi Quranda bildirilmiş və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində xəbər verilmiş bir həqiqətdir. Bədiüzzaman, ətrafındakı insanların, hz. İsanın Axırzamanda gözlənilən peyğəmbər olduğunu ancaq "İMANLARIYLA FƏRQ EDƏ BİLƏCƏKLƏRİNİ" söyləmişdir. Bu da yenə, Bədiüzzamanın hz. İsadan bir şəxsi mənəvi olaraq danışmadığını açıqca ortaya qoyur. Bədiüzzaman burada, açıqca insanların bir şəxsi mənəvini deyil, "GÖZLƏDİKLƏRİ BİR ŞƏXSİ" tanımalarından bəhs edir. Bədiüzzaman ayrıca, "HƏR KƏS BİLƏ BİLMƏZ" deyərək, hz. İsanı hər kəsin tanıya bilməyəcəyini bir dəfə daha ifadə etmiş, bəhs edilənin bir şəxsi mənəvi deyil, maddi varlığıyla ortaya çıxacaq "BİR İNSAN" olduğunu təkrar vurğulamışdır. Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. İsa ikinci dəfə yer üzünə gəldiyində də səmimi olaraq iman edənlər imanlarının vəsiləsiylə, Allahın icazəsiylə bu mübarək şəxsi dərhal tanıyacaq, onun köməkçisi və dəstəkçisi olacaqlar.

**DƏCCAL VƏ SÜFYAN KİMİ EŞHAS-İ MÜDHİŞE (ÜRKÜDÜCÜ ŞƏXSLƏR) ÖZLƏRİ DƏ ÖZLƏRİNİ BİLMİRLƏR:**

Bədiüzzaman, bu sözləriylə Məsih Dəccal və Süfyan Dəccal kimi, hz. İsa və hz. Mehdiyə qarşı inkara əsaslanan bir mübarizə edəcək olan Axırzaman şəxslərinin də hər kəs tərəfindən diaqnoz edilə bilməyəcəyinə diqqət çəkir. **Bədiüzzaman burada istifadə etdiyi "EŞHAS-İ MÜDHİŞE" sözlərində keçən "EŞHAS-İ" sözüylə, Süfyan və Dəccalın "BİR ŞƏXS" olduğunu ifadə edir.** Bədiüzzaman əsərlərində şəxs mənasını verən bənzər sözləri hz. İsa və hz. Mehdi üçün də istifadə edir. Süfyan və Dəccalın şəxs olaraq ortaya çıxacağını qəbul edib, hz. İsa və hz. Mehdinin isə yalnız şəxsi mənəvilərinin olacağını düşünmək son dərəcə ziddiyyətlidir. Bədiüzzamanın da bildirdiyi kimi, Süfyan Dəccal və Məsih Dəccal necə bir şəxs olaraq ortaya çıxırlarsa, bunların fitnələrini ortadan qaldıracaq olan hz. İsa və hz. Mehdi də Allahın izniylə Axırzamanda mübarək şəxsləriylə ortaya çıxacaqlar.

**Hətta, "HƏZRƏTİ İSA ƏLEYHİSSALAM GƏLİR, HZ.** MEHDİYƏ NAMAZDA İKTİDA EDƏR (itaət edər), TABE OLAR." deyə rəvayəti BU İTTİFAQA (birləşməyə) VƏ HƏQİQƏTİ QURANİYƏNİN MƏTBUİYƏTİNƏ VƏ HAKİMİYYƏTİNƏ (Quran həqiqətlərinə əməl edilməsinə və tabe olunmasına) işarə edər. *(Şüalar, səh. 493)*

Peyğəmbərimiz (s.ə.v) bir hədisi şərifində hz. İsanın, hz. Mehdinin arxasında namaz qılacağını bildirmişdir:

***İmamları saleh bir insan olan Mehdi olduğu halda, Beytül Makdisə sığınarlar. Orada imamları onlara səhər namazını qıldırmaq üçün önə keçdiyi bir sırada, bir də baxarlar ki, Məryəm oğulu İsa səhər vaxtında enmişdir. Mehdi, Hz. İsanı önə keçirmək üçün arxaya çəkilər. Hz. İsa onun çiyinlərinə əlini qoyar və ona deyər ki, "Keç önə namazı qıldır. Çünki qamət (fərz namazı qılmaq üçün oxunan azan; namaza başlama işarəsi) sənin üçün gətirilmişdir."...*** *(Ebu Rafi'den rivayet edilmiştir; İmam Şarani, Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri, Bedir Yayınevi, səh. 495-496)*

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in bu hədisinə diqqət çəkir, bu hadisənin hz. İsa və hz. Mehdinin çıxışlarının əhəmiyyətli əlamətlərindən biri olduğunu xatırladır. Bədiüzzaman sözlərində ayrıca, hz. İsa və hz. Mehdi dövründə Allahın izniylə, İslam əxlaqının bütün dünyaya hakim olacağını ifadə edir. Bu hakimiyyətə, hz. İsa və hz. Mehdinin ittifaqıyla icra ediləcək böyük fikri mübarizənin vəsilə olacağını ifadə edir.

**HƏZRƏTİ İSA ƏLEYHİSSALAM GƏLİB, HZ. MEHDİYƏ NAMAZDA İKTİDA EDƏR (İTAƏT EDƏR), TABE OLAR:**

Bədiüzzaman bu sözündə Peyğəmbərimiz (s.ə.v)-in səhih hədisləri əsasında, "**HZ. İSANIN, HZ. MEHDİ İLƏ BİRLİKDƏ NAMAZ QILACAĞINI" ifadə etmişdir.** Namaz, Rəbbimizin insanlar üçün fərz qıldığı bir ibadətdir. Şəxsi mənəvilərin birlikdə namaz qılması, namazda imamlıq etmələri mümkün deyil. Bədiüzzaman da bu həqiqətin şübhəsiz ki, çox yaxşı şüurundadır və bu sözləriylə, hz. İsanın və hz. Mehdinin "BİR ŞƏXS" olaraq ortaya çıxacaqlarını xəbər verir. Hz. İsa, yer üzünə əvvəlki gəlişində namaz ibadətini yerinə yetirdiyi kimi, ikinci dəfə gəlişində də Allahın icazəsiylə bu ibadətinə davam edəcək. Quranda bu mövzu belə bildirilir:

**(İsa) Dedi ki: "Şübhəsiz mən Allahın quluyam. (Allah) Mənə Kitabı verdi və məni peyğəmbər etdi. Harada olarsam (olum,) məni mübarək etdi və HƏYAT SÜRDÜYÜM MÜDDƏTCƏ, MƏNƏ NAMAZI VƏ ZƏKATI VƏSİYYƏT (ƏMR) ETDİ." (Məryəm surəsi, 30-31)**

Axırzamanda hz. İsa və hz. Mehdinin mübarək şəxsləri ortaya çıxacaq, hz. İsa, hz. Mehdinin imamlığında namaz qılacaq, bu iki mübarək şəxsin edəcəkləri böyük fikri mübarizə nəticəsində İslam əxlaqı yer üzünə hakim olacaq. Bədiüzzaman bir çox səhih hədisdə yer alan bu mövzunu xatırladaraq, hz. İsa ilə hz. Mehdinin gəldiklərində qarşılıqlı dialoq içərisində olacaqlarını bildirir. Bunun üçün hər iki müqəddəs şəxsin də eyni dövrdə ortaya çıxmaları və bir yerə gəlmələri lazımdır. Ancaq Bədiüzzaman həyatda ikən belə bir hadisə reallaşmamışdır. Hz. İsanın gəlişi və hz. Mehdiylə birlikdə namaz qılmaları bütün dünya müsəlmanları tərəfindən gözlənilir.

Ayrıca, həm iki Dəccalın sifətləri və halları ayrı-ayrı olduğu halda, mütləq gələn RƏVAYƏTLƏRDƏ İLTİBAS OLUR (qarışdırılır), BİRİ O BİRİ ZƏNN EDİLİR. **HƏM "BÖYÜK MEHDİ"NİN HALLARI SABİQ MEHDİLƏRƏ (əvvəlki Mehdilərə) İŞARƏ EDƏN RƏVAYƏTLƏRƏ MUTABIK (uyğun) ÇIXMIR, hədis-i mütəşabih (bir çox mənaya gələ biləcək hədis) hökmünə keçər.** *(Şüalar, səh. 582)*

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanla əlaqədar hədislərində bəhsi keçən dəccalların xüsusiyyətlərinin və fəaliyyətlərinin bir-birinə bənzədiyini; bu səbəblə, birinin digəri zənn edilə bildiyini söyləyir. Ancaq bu hədislərdə "Böyük Mehdi"yə dair bildirilən xüsusiyyətlərin, "sabiq Mehdilər" olaraq bəhs etdiyi, əvvəlki dövrlərdə gəlmiş olan mücəddidlərdən çox fərqli olduğunu ifadə etmişdir:

## RƏVAYƏTLƏRDƏ İLTİBAS OLUR (QARIŞDIRILIR) BİRİ O BİRİ ZƏNN EDİLİR):

Bədiüzzaman "İLTİBAS OLUR (QARIŞDIRILIR) BİRİ O BİRİ ZƏNN EDİLİR" sözləriylə, hədislərdə bəhsi keçən dəccalların qarışdırıla bildiyini xatırlatmışdır. Bədiüzzaman Axırzamanda gələcək "Böyük Mehdi" ilə "sabiq Mehdilər" arasında isə belə bir qarışdırmanın mümkün ola bilməyəcəyini ifadə etmişdir. **Bunun səbəbinin də "Peyğəmbərimiz (s.ə.v)-in hədislərində sabiq Mehdilər ilə əlaqədar olaraq verilən məlumatların Böyük Mehdinin xüsusiyyətləri ilə uyğunlaşmaması" olduğunu ifadə etmişdir.**

Bədiüzzaman bu sözləriylə "BÖYÜK MEHDİ"nin "keçmiş zamanlarda gəlməmiş olduğunu", bu mübarək şəxsin, "Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi bütün xüsusiyyətlərə birdən sahib olmasıyla tanınacağını" dilə gətirmişdir. Çünki bir adamın Mehdi ola bilməsi üçün Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirilən xüsusiyyətlərin hamısını birdən üzərində göstərməsi lazımdır. Yoxsa bəzi əlamətlərin olduğu zənn edilməsiylə, o adamın Mehdi olduğunun düşünülməsi doğru deyil. Hz. Mehdi, Allahın icazəsiylə ortaya çıxdığı zaman, Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi bütün bu əlamətləri üzərində daşıyacaq. Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi kimi "seyid", yəni Peyğəmbərimiz (s.ə.v)-in soyundan olacaq, İslam əxlaqını bütün dünyaya hakim edəcək, yer üzünə bənzərsiz bir ədalət, dinclik, bolluq və bərəkət gətirəcək. Bədiüzzaman da buradakı sözləriylə, bu əlamətlərin fərqliliyinə diqqət çəkmiş, bu xüsusiyyətlərlə uyğunlaşmayan şəxslərin hz. Mehdi ola bilməyəcəyini xatırlatmışdır.

Bədiüzzaman bu mövzunu başa saldığı sözlərində bir başqa mövzunu daha vurğulamış, hədislərdə bildirilən dəccalların, sabiq Mehdilərin və hz. **Mehdinin "mənəvi şəxsiyyətlər" deyil, "BİR ŞƏXS" olduqlarını ifadə edən şərhlər də etmişdir. Çünki "BİRİ" və "O BİRİ" sözləri burada "ADAM" ifadə edən əvəzliklər olaraq istifadə edilmişdir.** Bədiüzzaman bu sözləriylə, həm "SABİQ MEHDİLƏRİN", həm də "BÖYÜK MEHDI"nin "BİR ŞƏXS" olduqlarını ifadə edir.

## HƏM "BÖYÜK MEHDİ"NİN HALLARI SABİQ MEHDİLƏRƏ (əvvəlki mehdilərə) İŞARƏ EDƏN RƏVAYƏTLƏRƏ MUTABIK (UYĞUN) ÇIXMIR:

Bədiüzzaman əsərlərində sabiq Mehdilərin, Axırzaman Mehdisinin üç böyük vəzifəsini yerinə yetirə bilmədikləri üçün Böyük Mehdi ola bilməyəcəklərini izah etmişdir. Bunun bir başqa səbəbinin isə yuxarıda da açıqlandığı kimi, Böyük Mehdinin xüsusiyyətlərinin Peyğəmbərimiz (s.ə.v)-in hədislərində sabiq Mehdilərə dair bildirdiyi xüsusiyyətlərə uyğun

gəlməməsi olduğunu ifadə etmişdir. Bədiüzzaman bu şərhləriylə, hz. Mehdinin, ortaya çıxdığında bu xüsusiyyətlərə sahib olmasıyla tanınıb diaqnoz edilə biləcəyini xatırlatmışdır. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirdiyi, hz. Mehdinin əxlaqına, fiziki xüsusiyyətlərinə, soyuna, mübarizəsinə, yerinə yetirəcəyi fəaliyyətlərə aid əlamətlər görülmədiyi təqdirdə isə, bir adamın hz. Mehdi ola biləcəyindən bəhs edilə bilməyəcəyini ifadə etmişdir. Bu səbəbdən də, verdiyi bu məlumatlarla, hədislərdə bildirilən müjdələrin hələ reallaşmadığına və hz. Mehdinin keçmiş dövrlərdə gəlmiş bir şəxs olmadığına diqqət çəkmişdir.

Bədiüzzaman bu sözləriylə eyni zamanda, hz. Mehdinin mənəvi bir varlıq olmadığını, "BİR ŞƏXS" olaraq möminlərin başında olub, onlara öndərlik edəcəyini də açıqlamışdır. Belə ki:

1- Bədiüzzaman, daha əvvəl gələn Mehdilərin bir şəxs olduqlarını izah edib, ardından da Böyük Mehdi ilə aralarındakı fərqi açıqlamışdır. Demək ki, Böyük Mehdi də "BİR ŞƏXS"dir.

2- Əvvəlki Mehdilər ifadə edilən vəzifələri yerinə yetirə bilməmişlər. Amma bu vəzifələri Böyük Mehdi yerinə yetirəcək. Bu vəzifələrin edilə bilməsi isə, bir şəxsin var olmasını tələb edir. Demək ki, Böyük Mehdi də "BİR ŞƏXS" olacaq.

3- Böyük Mehdi, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində təsvir etdiyi sabiq Mehdilərə dair xüsusiyyətlərə uyğun gəlmir. Böyük Mehdi, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində müjdələdiyi Axırzaman Mehdisinin xüsusiyyətlərini daşıyacaq. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, hz. Mehdinin bir şəxsi mənəvi olmadığı, fiziki xüsusiyyətləriylə, əxlaqıyla təsvir edilən bir şəxs olduğu əsrlərdir bütün İslam alimləri tərəfindən bilinən bir həqiqətdir. Bədiüzzaman da burada Böyük Mehdinin, hədislərdə izah edilən sabiq Mehdilərdən bu fərqinə diqqət çəkərək, yenə "BİR şəxs"dən bəhs etdiyini ifadə etmişdir.

Bu şərhlərdə bəhsi keçən "sabiq Mehdilərin" bir şəxs olduqları qəbul edilərkən, Bədiüzzamanın eyni şərhlərində yenə bir şəxs olacağını ifadə etdiyi "Böyük Mehdi"nin "bir şəxsi mənəvi" olacağı düşüncəsini qarşıya qoymaq əlbəttə ki, ziddiyyətlidir. Belə bir vəziyyətdə, rəvayətlərdə ifadə edilən Axırzaman Mehdisindən əvvəl gələn bütün Mehdilərin də bir şəxsi mənəvi olması lazım idi ki, belə bir vəziyyət olmamışdır. Bu səbəbdən də, belə bir yanaşma son dərəcə səhv və məntiqsizdir. Bədiüzzamanın da müjdələdiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-in rəvayətlərindəki xüsusiyyətlərə sahib olmasıyla tanınacaq olan Böyük Mehdi, Axırzamanda "BİR ŞƏXS" olaraq ortaya çıxacaq və Allahın icazəsiylə Bədiüzzamanın ifadə etdiyi üç vəzifəni bir arada şəxsən yerinə yetirəcək.

**... HƏZRƏTİ İSA ƏLEYHİSSALAM, İSƏVİLİK ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL EDƏRƏK DİNSİZLİYİN ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL EDƏN DƏCCALI yox edər...** *(Məktubat, səh. 6)*

**Bədiüzzaman bu sözündə, hz. İsanın yer üzünə ikinci dəfə gələcəyini və Dəccalın fitnəsini fikirlə təsirsiz hala gətirəcəyini bildirir:**

**HƏZRƏTİ İSA ƏLEYHİSSALAM, İSƏVİLİK ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL EDƏRƏK:**

Bədiüzzaman bu sözündə, "**HZ. İSANIN XRİSTİANLIĞIN ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL ETDİYİNİ" ifadə edir.** Bədiüzzaman, tarix boyunca göndərilmiş bütün elçilər və peyğəmbərlər kimi, hz. İsanın da onu dəstəkləyən, ona inanan və onu izləyən kəslərdən meydana gələn bir şəxsi mənəvisi olacağını bildirir. Ancaq Bədiüzzaman "İSƏVİLİK ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL EDƏRƏK" sözləriylə, Allahın adətullahına (Allahın qanununa) uyğun olaraq "**HZ. İSANIN DA BU ŞƏXSİ MƏNƏVİNİN BAŞINDA ŞƏXSƏN BİR HİDAYƏT ÖNDƏRİ OLACAĞINI" ifadə edir.** Necə ki, bir şəxsi mənəvinin bir şəxsi mənəvini təmsil etməsi mümkün deyildir. Bir şəxsi mənəvinin meydana gələ bilməsi üçün, onun başında əvvəlcə "BİR ŞƏXSİN" var olması lazımdır. Bədiüzzaman da bu həqiqəti vurğulayaraq hz. İsanın bir şəxsi mənəvi olmadığını, öz şəxsi mənəvisinin başında olacağını və onlara şəxsən öndərlik edəcəyini açıqlayır.

Bədiüzzamanın ifadə etdiyi bu həqiqətlər bir-iki sual soruşulduğunda da asanlıqla aydın olur:

**1- İsəvilik şəxsi mənəvisini bir adam təmsil edir. Bu kimdir?**

**Hz. İsa.**

**2- Hz. İsa kimi təmsil edir?**

**İsəvilik şəxsi mənəvisini.**

Bu sualların cavabları Bədiüzzamanın hz. İsadan və şəxsi mənəvisindən ayrı anlayışlar olaraq bəhs etdiyini açıqca ortaya qoyur.

**DİNSİZLİYİN ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL EDƏN DƏCCALI:**

Bədiüzzaman eyni hz. İsa kimi Dəccalın da bir şəxsi mənəvisi olacağını ifadə edir. Ancaq Bədiüzzaman "DİNSİZLİYİN ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL EDƏN DƏCCALI" sözləriylə,

Dəccalın da yenə "BİR ŞƏXS OLARAQ BU ŞƏXSİ MƏNƏVİNİN ŞƏXSƏN BAŞINDA OLACAĞINI" ifadə edir.

Bədiüzzaman əsərlərində, Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanda gələcəyini müjdələdiyi bütün adların bir şəxs olduqlarını müxtəlif dəlillərlə açıqlamışdır. Dəccal da bu Axırzaman şəxslərindən biridir. Bədiüzzaman Dəccalın bir şəxs olacağını nə qədər təfərrüatlı şəkildə açıqladısa, hz. İsa və hz. Mehdinin bir şəxs olacaqları mövzusunda da eyni açıqlıqda dəlillər ortaya qoymuşdur. Şübhəsiz ki, Bədiüzzamanın bu izahatlarından bir qismini fərqli şərh edib, hz. İsa və hz. Mehdinin bir şəxsi mənəvi, ancaq Dəccalın bir şəxs olacağını düşünmək çox səhv bir yanaşma olacaq. Çünki Bədiüzzaman Dəccal kimi, "Hz. İsa və hz. Mehdinin də BİR ŞƏXS OLARAQ gələcəklərini" israrla təkrarlamış və bunları dəlilləriylə birlikdə açıqlamışdır.

... Süfyan və Mehdi haqqındakı hədislərin ifadə etdikləri məna budur ki: Axırzamanda dinsizliyin iki cərəyanı (axını) qüvvət tapacaq: Biri: **Nifaq pərdəsi altında (inkarçı olduğu halda müsəlman kimi görünərək) Risalət-i Əhmədiyyəni (S. Ə. V.) (Peyğəmbərimiz (s.ə.v)-in elçiliyini və yolunu) inkar edəcək SÜFYAN NAMINDA (adında) MÜDHİŞ BİR ŞƏXS əhli nifaqın (münafiq xarakterli kəslərin) başına keçəcək, Şəriət-i İslamiyənin (İslam dininin) təxribinə (yıxılmasına) çalışacaqdır. Ona qarşı AL-İ BEYTİ NƏBƏVİNİN SİLSİLƏ-İ NURANİSİNƏ (Peyğəmbərimiz (s.ə.v)-in nurani soyuna) BAĞLANAN ƏHLİ VƏLAYƏT (vəlilərin) VƏ ƏHLİ KAMALIN (kamil iman sahiblərinin) BAŞINA KEÇƏCƏK AL-İ BEYTDƏN (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) MƏHƏMMƏD MEHDİ ADINDA BİR ŞƏXSİ NURANİ (nurlu bir şəxs) O SÜFYANIN ŞƏXSİ MƏNƏVİSİ OLAN CƏRƏYAN-I MÜNAFİQANƏNİ (münafiqlik axınını) YOX EDİB DAĞIDACAQDIR.** *(Məktubat, səh. 53)*

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, Axırzamanda inkarçı fəlsəfələrin yayılması üçün səy göstərəcək bir şəxs olduğu bildirilən Süfyandan bəhs edir. Bədiüzzaman Süfyanın fitnəsinin, hz. Mehdinin fikri mübarizəsi ilə ortadan qaldırılacağını xəbər verir:

## SÜFYAN NAMINDA (ADINDA) MÜDHİŞ BİR ŞƏXS:

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirdiyi Axırzaman şəxslərindən biri də "Süfyan"dır. Hədislərdə, Süfyanın xüsusiyyətləri və icra edəcəyi mənfi fəaliyyətlər haqqında müxtəlif məlumatlar verilmişdir. Bədiüzzaman da, bu sözündə Süfyanın edəcəyi bu fəaliyyətlərdən bəhs edir, onun inkara əsaslanan mübarizəsinin hz. Mehdi vəsiləsiylə sona çatacağını bildirir. Bədiüzzaman, burada istifadə etdiyi "SÜFYAN ADINDA MÜDHİŞ BİR ŞƏXS" ifadəsiylə Süfyanın mənəvi bir varlıq deyil, "BİR ŞƏXS" olduğunu ifadə etmişdir.

Peyğəmbərimiz (s.ə.v) də hədislərində Süfyanın fiziki görünüşü, qüsurları və xəstəlikləri haqqında məlumat verərək, Süfyanın bir şəxs olduğunu çox açıq bir şəkildə izah etmişdir.

Eyni vəziyyət hz. İsa və hz. Mehdi üçün də məqbuldur. Həm Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, həm də Bədiüzzamanın əsərlərində hz. İsa və hz. Mehdinin fiziki xüsusiyyətləri, mübarizələri, fəaliyyətləri kimi mövzularda çox təfərrüatlı məlumatlar verilmişdir. Belə bir vəziyyətdə, Süfyanın bir şəxs olacağını qəbul edib, hz. İsa və ya hz. Mehdinin bir şəxs olaraq ortaya çıxacaqlarını qəbul etməmək ağla və məntiqə uyğun deyil. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirilən bütün Axırzaman şəxsləri "bir fərd" olaraq ortaya çıxacaqlar və onların vəsiləsiylə Axırzamanda insanlıq çox böyük hadisələrə şahidlik edəcək. Hz. Mehdi, Süfyanın İslam aləmində etdiyi mənəvi təxribatı şəxsən ortadan qaldıracaq, İslam əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən canlanmasını və dünya səviyyəsində yayılmasını təmin edəcək. **Bədiüzzaman da bu sözündə bu həqiqəti dilə gətirmiş, "SÜFYAN ADINDA MÜDHİŞ BİR ŞƏXS" olaraq bəhs etdiyi Süfyanın, yenə "BİR ŞƏXS olduğunu bildirdiyi hz. Mehdi vəsiləsiylə fikirlə təsirsiz hala gətiriləcəyini" bildirmişdir.**

## AL-İ BEYTİ NƏBƏVİNİN SİLSİLƏ-İ NURANİSİNƏ (PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-IN NURANİ SOYUNA) BAĞLANAN:

Bədiüzzaman "AL-İ BEYTİ NƏBƏVİNİN SİLSİLƏ-İ NURANİSİNƏ BAĞLANAN" sözləriylə "Hz. Mehdinin, Peyğəmbərimiz (s.ə.v)-in soyundan olan mübarək BİR ŞƏXS olduğunu" bildirir. Bir şəxsi mənəvinin müəyyən bir soyunun olması ağla və məntiqə heç bir şəkildə uyğun deyil. Ancaq bir insanın peyğəmbər soyundan gələcəyindən bəhs edilə bilər. Bədiüzzaman da bu sözüylə bu həqiqəti bir dəfə daha vurğulayaraq hz. Mehdinin bir şəxsi mənəvi olmadığını, Peyğəmbərimiz (s.ə.v)-in soyundan olan "BİR ŞƏXS" olduğunu ifadə edir.

## ƏHL-İ VƏLAYƏT (VƏLİLƏRİN) VƏ KƏMALIN (KAMİL İMAN SAHİBLƏRİNİN) BAŞINA KEÇƏCƏK:

**Bədiüzzaman, "ƏHL-İ VƏLAYƏT (VƏLİLƏRİN) VƏ ƏHL-İ KƏMALIN (KAMİL İMAN SAHİBLƏRİNİN) BAŞINA KEÇƏCƏK" sözləriylə, hz.** Mehdinin ortaya çıxdığında, alimlərin liderliyini boynuna götürəcəyini xəbər verir. Hz. Mehdi, Allahın bir çox elm və hikmətlə

nemətləndirdiyi, çox üstün əxlaqlı mübarək bir şəxsdir. Hz. Mehdinin əxlaqının və imanının üstünlüyü bir çox hədisdə təfərrüatlı olaraq təsvir edilir. *Bu müqəddəs şəxs, ortaya çıxdığında həm dövrünün mücəddidi (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üzrə göndərilən böyük İslam alimi, yeniləyici), həm də müctəhidi (ehtiyac meydana olduğunda ayələrdən hökm çıxaran böyük İslam alimi və öndəri) olacaq, dini Peyğəmbərimiz (s.ə.v) dövründəki əvvəlki halına çevirəcək.* Bu üstün xüsusiyyətləri səbəbiylə, özü bütün alimlərin öndəri mövqeyində olacaq. Şübhəsiz ki, bir şəxsi mənəvinin alimlərdən, vəlilərdən və kamil iman sahiblərindən ibarət olan bir birliyin lideri xüsusiyyətini daşıması mümkün deyil. Ancaq bir insan, belə bir liderlik vəzifəsini boynuna götürə bilər. Bədiüzzaman da bu sözləriylə, bu həqiqəti dilə gətirmiş, hz. Mehdinin şəxsən mömin birliyinin lideri xüsusiyyətini daşıyacaq üstün xüsusiyyətli "BİR ŞƏXS" olduğunu ifadə etmişdir.

## AL-İ BEYTDƏN (PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-IN SOYUNDAN) MƏHƏMMƏD MEHDİ ADLI BİR ŞƏXSİ NURANİ (NURLU BİR ŞƏXS):

Bədiüzzaman, bu ifadəsiylə, hz. Mehdi haqqında bir neçə əhəmiyyətli məlumatı birdən verir. **Əvvəlcə, Bədiüzzaman "AL-İ BEYTDƏN" ifadəsiylə bir dəfə daha hz. Mehdinin "PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-IN SOYUNDAN GƏLƏN BİR ŞƏXS OLDUĞUNU" ifadə etmişdir.**

**Bununla yanaşı "MƏHƏMMƏD MEHDİ ADLI" sözləriylə, hz.** Mehdinin adı haqqında da məlumat vermişdir. Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq verdiyi bu məlumatla, hz. **Mehdinin bir şəxsi mənəvi olmadığını, "ADI İLƏ MÜJDƏLƏNİLMİŞ BİR ŞƏXS OLDUĞUNU" ifadə etmişdir.**

**Bədiüzzaman "BİR ŞƏXSİ NURANİ" ifadəsiylə isə, hz. Mehdinin "NURANİ BİR ŞƏXS" olduğunu bildirir.** Əgər Bədiüzzaman, hz. Mehdinin bir şəxsi mənəvi olduğunu vurğulamaq istəsəydi, burada "bir şəxsi nuranidən" deyil, "şəxsi mənəvi nuranidən" bəhs edərdi. Ancaq Bədiüzzaman belə bir şey söyləməmiş, "bir şəxsi nurani" demişdir. Ayrıca, burada istifadə edilən "BİR" sözü də bu mövzunu bir başqa baxımdan daha açıqlayır, hz. **Mehdinin "TƏK BİR ŞƏXS" olduğunu ifadə edir.** "ŞƏXS" sözü də yenə "birlik" ifadə edən bir başqa şəxs ifadəsidir. Bədiüzzaman burada, "iki şəxs", "üç şəxs" ya da "bəziləri" ifadəsini istifadə etməmiş, hz. **Mehdinin açıqca "tək bir şəxs" olduğunu ifadə etmişdir.**

Bu, eyni zamanda da, Bədiüzzamanın kitabın əvvəlindən bu yana hz. Mehdi üçün "8-ci dəfə" istifadə etdiyi "şəxs" ifadəsidir. Çox açıqdır ki, Bədiüzzaman, hz. Mehdidən bir şəxsi

mənəvi ya da bir birlik olaraq bəhs etmir. Adını, soyunu və nurlu bir kimsə olduğunu xəbər verərək, hz. **Mehdinin müqəddəs "BİR ŞƏXS", "BİR ADAM" olduğunu dəfələrlə təkrarlayır.**

Axırzamanın ən böyük fəsadı zamanında, əlbəttə, ƏN BÖYÜK BİR MÜCTƏHİD (ehtiyac olduğunda ayələrdən hökm çıxaran böyük İslam alimi), həm ƏN BÖYÜK BİR MÜCƏDDİD (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üzrə göndərilən böyük İslam alimi, yeniləyən, yeniləyici), həm HAKİM, həm MEHDİ, həm MÜRŞİD (doğru yolu göstərən adam), həm QÜTBÜ ƏZƏM (Müsəlmanların ona bağlandıqları böyük övliyalardan, zamanın ən böyük mürşidi) olaraq BİR ŞƏXSİ NURANİNİ (nurlu bir şəxsi) GÖNDƏRƏCƏK və O ŞƏXS də, ƏHL-İ BEYTİ NƏBƏVİDƏN (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) OLACAQ. Cənabı Haqq bir dəqiqə ərzində beyn-əs səma vəl-ərz aləmini (yer ilə göy arasındakı aləmi) buludlarla doldurub boşaltdığı kimi bir saniyədə dənizin fırtınalarına təskinlik verər (dindirər) və bahar içində bir saatda yaz mövsümünün örnəyini (nümunəsini) və yayda bir saatda qış fırtınasını icad edən QADİR-İ ZÜLCƏLAL (hər şeyə müqtədir olan Uca Allah) HZ. MEHDİ İLƏ DƏ, ALƏMİ İSLAMIN (İslam aləminin) ZULÜMATINI (zülm dövrünü, qaranlığını) DAĞIDA BİLƏR. **VƏ VƏD ETMİŞDİR, VƏDİNİ ƏLBƏTTƏ EDƏCƏK.** *(Məktubat, səh. 411-412)*

Bədiüzzaman Axırzaman əlamətlərinin şiddətləndiyi dövrdə Allahın insanların qurtuluşuna vəsilə olması üçün Peyğəmbərimiz (s.ə.v)-in soyundan nurani bir şəxs olan hz. Mehdini göndərəcəyini bildirmiş və bu müqəddəs şəxsi keçmiş dövrlərdəki mücəddidlərdən ayıran xüsusiyyətləri izah etmişdir:

## ƏN BÖYÜK BİR MÜCTƏHİD VƏ ƏN BÖYÜK BİR MÜCƏDDİD:

Peyğəmbərimiz (s.ə.v) hədislərində hər əsrin əvvəllərində insanlara din əxlaqını və hökmlərini izah edən, dövrün ehtiyaclarına görə şərhlər edən bir mücəddid göndəriləcəyini bildirmişdir. Məsələn, İmamı Rəbbani 1000-ci hicri ilin mücəddididir. Mövlana Xalidi Bağdadi hicri 1193 (Miladi 1779-cu) ildə doğulmuş, hicri 1242-ci ildə (Miladi 1827) vəfat etmişdir. Bu səbəbdən, bu mübarək insan ittifaqla hicri 12-ci və 13-cü əsrlər arasındakı mücəddiddir. Bədiüzzaman Səid Nursi isə Mövlana Xalidi Bağdadidən tam 100 il sonra, hicri 1293 (Miladi 1878-ci) ildə doğulmuşdur. Vəfatı isə hicri 1379-cu (Miladi 1960) ildir. Bədiüzzaman da hicri 12-ci əsrin mücəddidi Mövlana Xaliddən tam yüz il sonra nəşr olunan Risalə-i Nurun müəllifi olması səbəbiylə özünün də 13-cü və 14-cü əsrlər arasındakı mücəddid olduğunu ifadə etmişdir.

Bədiüzzaman, hz. Mehdinin isə özündən sonra gələcəyini -tarix verərək- bildirmiş, hicri 14-cü və 15-ci əsrlər arasındakı "mücəddid"in hz. Mehdi olacağını müjdələmişdir.

Bədiüzzaman bu sözündə də, hz. Mehdi üçün "ƏN BÖYÜK MÜCƏDDİD VƏ ƏN BÖYÜK MÜCTƏHİD" sifətlərini istifadə edir. **"MÜCƏDDİD" dini həqiqətləri dövrün ehtiyaclarına görə açıqlayan, "MÜCTƏHİD" də ehtiyac olduğunda ayələrdən hökm çıxaran böyük İslam alimi və öndəridir.** Bu xüsusiyyətdəki böyük şəxslər, İslam cəmiyyətlərinə nümunə olmuş, yol göstərmiş, zamanın qütbü olmuş öndərlərdir. *Bu öndərlərdən kimi içtihat etmə (hökmləri üsuluna uyğun olaraq Quran və hədislərdən istifadə ilə ortaya qoyma) və hökm vermə xüsusiyyətlərindən ötəri "məzhəb öndərləri" olmuşlar;* Müsəlmanlar da onlara tabe olmuşlar.

İmam Hənəfi, İmam Şafi, İmam Hənbəli, İmam Maliki bu öndərlərdən olub, 4 məzhəbin qurucularıdır. Bütün əhl-i sünnə onların verdiyi hökmlərlə əməl edir. Bədiüzzaman bu "müctəhid və mücəddid"lərin ən böyüklərinin isə hz. Mehdi olacağını ifadə etmişdir. Bu da hz. *Mehdinin içtihat etmə (hökmləri üsuluna uyğun olaraq Quran və hədislərdən istifadə ilə ortaya qoyma) və hökm verməyə ən səlahiyyətli adam olaraq, onun da "bütün məzhəbləri qaldıracağını" göstərir.* Çünki ən böyük məzhəb imamı olduğuna görə onsuz da bütün digər məzhəbləri qaldırması lazımdır. Zamanında hər kəsin ona tabe olmasının bildirilmiş olması da bunu təsdiqləyir.

Bədiüzzaman hz. Mehdinin "ən böyük mücəddid və müctəhid" olduğunu söyləyərək onun bütün məzhəblərin üstündə olacağını ifadə etmişdir. Keçmişdən indiyə qədər bir çox İslam alimi əsərlərində bu mövzuya toxunmuşlar. İslam tarixinin ən böyük alimlərindən biri olan Muhyiddin Ərəbi isə "Fütühat-ül Mekkiye" adlı əsərində bu mövzuda belə məlumat vermişdir:

... ***MEHDİ, DİNİ PEYĞƏMBƏRİN ZAMANINDA OLDUĞU KİMİ EYNİLƏ TƏTBİQ EDƏCƏK. YER ÜZÜNDƏ MƏZHƏBLƏRİ QALDIRACAQ. XALİS HƏQİQİ DİNDƏN BAŞQA HEÇ BİR MƏZHƏB QALMAYACAQ.*** *(Muhammed B. Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh. 186-187)*

Hüseyn Hilmi İşıq isə, Səadəti Əbədiyə adlı əsərində hz. Mehdinin bu xüsusiyyətini belə xəbər vermişdir:

***HƏZRƏTİ MEHDİ, AXIRZAMANDA DÜNYAYA GƏLƏCƏKDİR.*** *Rəsullulah Əfəndimiz (s.ə.v)-in soyundan olacaq.* ***İsa Əleyhissalamla görüşəcək, MƏZHƏBLƏRİ QALDIRACAQ, TƏK ONUN MƏZHƏBİ QALACAQ.*** *(H. Hilmi Işık, Saadeti Ebediye, səh. 35)*

Bədiüzzaman Səid Nursi bilindiyi kimi Şafi məzhəbindəndir. Bir məzhəb sahibi deyil və bir başqa məzhəb qurucusuna tabe olmuşdur; İmam Şafini imamı olaraq qəbul etmişdir. Bədiüzzaman bu mövzunu əsərlərində belə ifadə etmişdir:

"Əvvəla: ***Mən Şafiiyəm..."*** *(Emirdağ Lahikası, səh. 38)*

***"... həm xüsusi Şafiicə ibadətimə."*** *(Büyük Tarihçe-i Hayat, səh. 202)*

*"Tək bu qədər var. Mən Şafiiyəm..." (Büyük Tarihçe-i Hayat, səh. 206)*

*"Hətta Şafii məzhəbində olduğu üçün..." (Emirdağ Lahikası, səh. 573)*

*Halbuki, hz.* Mehdi bütün məzhəbləri qaldıracaq və bütün məzhəblərin üzərində olacaq. Bir məzhəbə bağlı olan Bədiüzzaman da, bu xüsusiyyətin hz. Mehdiyə aid olacağını ifadə edərək özünün hz. Mehdi olmadığını açıqlamışdır.

Ayrıca, Bədiüzzaman bu sözüylə, hz. Mehdinin bir şəxs olduğunu bir dəfə daha çox açıq dəlillər verərək ortaya qoymuşdur. Bədiüzzaman hz. **Mehdinin eyni zamanda həm "BİR MÜCƏDDİD", həm də "BİR MÜCTƏHİD" olacağını söyləmişdir.** Hz. Mehdinin bu sifətlərinə uyğun olaraq "dini dövrün ehtiyaclarına görə açıqlaya bilməsi və ehtiyac olduğunda ayələrdən hökm çıxara bilməsi, bir İslam alimi və öndəri ola bilməsi" üçün çox açıqdır ki, "BİR İNSAN" olması lazımdır. Bir şəxsi mənəvinin "şərh edə bilməsi, hökm çıxara bilməsi ya bir İslam alimi və öndəri ola bilməsi" mümkün deyil. Bədiüzzaman da bu xüsusiyyətlərini vurğulayaraq "HZ. **MEHDİNIN BİR ŞƏXS OLDUĞUNU" ifadə etmişdir.**

Bütün elçilər və peyğəmbərlər kimi, Peyğəmbərimiz (s.ə.v)-dən sonra gələn və İslam tarixində yer alan heç bir mücəddid və ya müctəhid bir şəxsi mənəvi olaraq göndərilməmişdir. Allahın Quranda bildirdiyi adətullahına uyğun olaraq bütün mücəddidlər, insanları xəbərdar edib qorxudacaq, onları Allahın razılığı, rəhməti və cənnətiylə müjdələyə biləcək, onlara doğrunu səhvdən ayıran, hidayət rəhbəri ola biləcək "BİR İNSAN" olaraq gəlmişlər. Məsələn, Mövlana Xalidi Bağdadi və Bədiüzzaman kimi mücəddidlər yaşadıqları əsrlərdə bir şəxs olaraq gəlmiş böyük İslam alimləridir. Bədiüzzamanın da diqqət çəkdiyi kimi, 1400 ildir həyəcanla gözlənilən hz. Mehdi də Allahın icazəsiylə bu adətullaha uyğun olaraq mücəddid və müctəhid sifətlərini daşıya biləcək "BİR ŞƏXS" olaraq gələcəkdir.

HAKİM:

Bədiüzzamanın istifadə etdiyi "HAKİM" sözünün lüğətdəki mənası, "Haqlı və haqsızı ayırıb ədalət üzrə hökm edən, idarə edən"dir. Bədiüzzaman əsərlərində hz. Mehdinin yerinə yetirəcəyi vəzifələrindən bəhs etmiş, hal-hazırda dağınıq halda olan bütün İslam dünyasını birləşdirib bu birliyin liderliyini boynuna götürmənin də hz. Mehdinin bu vəzifələrindən biri olduğunu ifadə etmişdir. Bədiüzzaman hz. Mehdinin, burada ifadə etdiyi "hakim"lik sifətini istifadə edərək, bütün İslam aləminin başında olacağını və müsəlmanların məsələlərinə həll gətirəcəyini bildirmişdir. Buna görə, hz. Mehdi qərar mexanizminin başında olacaq, onun ədalətli hökmləri və istiqamətləndirməsiylə İslam dünyası idarə ediləcək. Belə bir inkişaf bu ana qədər reallaşmamışdır. Necə ki, Bədiüzzaman da bu həqiqəti xatırladaraq hz. Mehdinin hələ gəlmədiyini dilə gətirmiş; ortaya çıxdığında hz. **Mehdinin bu "HAKİMLİK XÜSUSİYYƏTİNİ DAŞIMASIYLA TANINA BİLƏCƏYİNƏ" diqqət çəkmişdir.**

Bununla yanaşı, Bədiüzzaman bu sözüylə, hz. Mehdinin bir şəxsi mənəvi olmadığı mövzusuna da qəti ifadələrlə açıqlıq gətirmişdir. Bir şəxsi mənəvinin "hakimlik" sifətini daşıması, müsəlmanların liderliyini boynuna götürərək ədalət mövzusunda hökm verə bilməsi, bir birliyi idarə edə bilməsi heç şübhə yox ki, qeyri-mümkündür. Bütün bunlar ancaq bir insanın sahib ola biləcəyi xüsusiyyətlərdir. Yenə bunlar ancaq imanla, ağıl, mühakimə və vicdan istifadə edərək yerinə yetirilə biləcək məsuliyyətlərdir. Bir şəxsi mənəvinin isə bu xüsusiyyətlərin heç birinə sahib olmadığı, bu səbəbdən də hakim xüsusiyyətiylə müsəlmanları idarə edə bilməyəcəyi son dərəcə açıq bir həqiqətdir. Bədiüzzaman da sözlərində, bu həqiqəti açıqca ifadə etmiş, hz. **Mehdinin "BİR ŞƏXS" olduğunu açıqlamışdır.**

MEHDİ:

Bədiüzzaman Rəbbimizin, Axırzamanın ən çətin mühitində, bütün insanların qurtuluşuna vəsilə olması üçün göndərəcəyi mübarək şəxsin ayrıca "MEHDİ" xüsusiyyətini də daşıyacağını bildirmişdir. **"MEHDİ" sözü, "HİDAYƏTƏ ÇATAN, HİDAYƏTƏ VƏSİLƏ OLAN VƏ HİDAYƏTƏ YÖNƏLDƏN" mənalarındadır.** Mehdi sifəti, xüsusi bir lütf olaraq Allahın hidayətinə məzhər olan və Allahın özünə yol göstərdiyi adamı təyin edir. Axırzamanda gələcək olan hz. Mehdi də adını bu xüsusiyyətindən alır. Bir şəxsi mənəvinin "Mehdi xüsusiyyətini daşıması" isə heç bir şəkildə mümkün deyil. **Allahdan bir lütf olaraq verilən "HİDAYƏT TAPMA" xüsusiyyətinin "BİR İNSANI" təyin etdiyi çox açıqdır.** Bir şəxsi mənəvinin "hidayət tapma" və "insanların hidayətlərinə vəsilə olma" xüsusiyyətləri ola bilməz. Bədiüzzaman da burada, bu həqiqəti vurğulamış, hz. Mehdinin "MEHDİ" xüsusiyyətini ifadə edərək, onun "BİR ŞƏXS" olduğunu bir dəfə daha vurğulamışdır.

## MÜRŞİD VƏ QÜTBÜ ƏZƏM:

Bədiüzzaman hz. Mehdinin xüsusiyyətlərindən bəzilərini saydığı bu sözündə onun eyni zamanda həm "MÜRŞİD", həm də "QÜTBÜ ƏZƏM" olacağını bildirmişdir. **"MÜRŞİD" sözü "DOĞRU YOLU GÖSTƏRƏN KİMSƏ" mənasını verir. "QÜTBÜ ƏZƏM" ifadəsi isə "MÜSƏLMANLARIN ÖZÜNƏ BAĞLANDIQLARI BÖYÜK ÖVLİYALARDAN, ZAMANIN ƏN BÖYÜK MÜRŞİDİ" mənasındadır.** Bədiüzzaman bu sözünün əvvəlindəki "Axırzamanın ən böyük fəsadı zamanında" ifadəsiylə, hz. Mehdinin dünyanın bəlkə də ən böhranlı dövrəsi olan Axırzamanda, dünya səviyyəsində edəcəyi işlərlə, imandan və doğru yoldan, din əxlaqından

uzaqlaşmış insanlığı qəflətdən oyandırıb hidayətə yönəldəcəyini bildirmişdir. Hz. Mehdi, müsəlmanların özünə bağlandığı, zamanın ən böyük yol göstəricisi olacaq.

Bədiüzzamanın bu sözündə istifadə etdiyi yuxarıdakı xüsusiyyətlər, mənalarından da aydın olacağı kimi "TƏK BİR adam"a aid olacaq xüsusiyyətlərdir. Bir şəxsi mənəvinin "mürşid" və "qütbü əzəm" olması düşünülə bilməz. Bədiüzzaman açıq şəkildə, hz. **Mehdinin yaşadığı dövrdə "bütün müsəlmanların özünə bağlandığı ən böyük övliyalardan, zamanının doğru yolu göstərən ən böyük mürşidi olan BİR ŞƏXS" olacağını ifadə etmişdir.**

## BİR ŞƏXSİ NURANİNİ (NURLU BİR ŞƏXSİ) GÖNDƏRƏCƏK:

Bədiüzzaman burada, **hz. Mehdinin "BİR ŞƏXSİ NURANİ" olduğundan bəhs edir.** Əgər Bədiüzzaman, hz. Mehdinin bir şəxsi mənəvi olduğunu vurğulamaq istəsəydi, burada "bir şəxsi nuranidən" deyil, "bir şəxsi mənəvi nuranidən" bəhs edərdi. Ancaq çox açıq olaraq, hz. **Mehdi üçün "BİR ŞƏXS" ifadəsini istifadə etmişdir.** Həmçinin, "NURANİ" sözüylə də bu mübarək şəxsin bir xüsusiyyətini də vurğulamış, onun "NURLU BİR ŞƏXS" olduğunu ifadə etmişdir. Bir şəxsi mənəvinin "NURLU" olmasından söz edə bilmək mümkün deyil. Bu bir insanda görülə biləcək bir xüsusiyyətdir. Bədiüzzaman da bütün bu vurğuları və şərhləriylə hz. Mehdinin bir şəxsi mənəvi olmadığını, mübarək "BİR İNSAN" olduğunu açıq şəkildə ifadə etmişdir.

Həmçinin, Bədiüzzaman burada "iki şəxs" ya da "üç şəxs" kimi ifadələrə yer verməmiş, istifadə etdiyi "BİR ŞƏXSİ NURANİ" ifadəsiylə, hz. **Mehdinin yalnız "TƏK BİR ŞƏXS" olduğunu da ifadə etmişdir.**

Bu sözlərdəki "ŞƏXS" sözü həmçinin, Bədiüzzamanın kitabın əvvəlindən bəri yer alan sözlərində "**9-CU DƏFƏ" istifadə edilmişdir.** Bədiüzzamanın 9 dəfə üst-üstə hz. **Mehdidən "ŞƏXS" sözüylə bəhs etməsi, hz.** Mehdinin mənəvi bir şəxs olduğu istiqamətindəki hər cür düşüncəni qəti olaraq etibarsız edir.

## O ŞƏXS:

Bədiüzzaman burada da, "O ŞƏXS" sözünü istifadə edərək, hz. Mehdinin "BİR ŞƏXS" olduğunu bir dəfə daha etinayla vurğulamışdır. Bədiüzzaman burada, hz. Mehdi üçün "O" əvəzliyini "**14-CÜ DƏFƏ", "ŞƏXS" sözünü isə "10-cu DƏFƏ" istifadə etmişdir.** Bədiüzzamanın təkidlə yer verdiyi bu təkrarlar və vurğular, bu izahatların heç birinin bir təvafüq olmadığını, Bədiüzzamanın bu mövzudakı qənaətinin çox qəti olduğunu ortaya qoyur. Bədiüzzaman

açıq şəkildə, hz. Mehdinin "BİR ŞƏXS" olduğunu ifadə edir və bütün inananları bu mövzuda ən doğru şəkildə məlumatlandırır.

## ƏHL-İ BEYT-İ NƏBƏVİDƏN (PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDAN) OLACAQ:

Bədiüzzaman bu sözüylə də, hz. Mehdinin "BİR ŞƏXS" olduğunu bir başqa əhəmiyyətli dəlili xatırladaraq yenidən açıqlayır. Bədiüzzaman "HZ. **MEHDİNİN PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-IN SOYUNDAN GƏLƏN BİR ŞƏXS OLACAĞINI" ifadə edir.** Bədiüzzaman əsərlərində bu mövzunu da çox sıx olaraq vurğulayır. Bədiüzzaman bir şəxsi mənəvinin, peyğəmbər soyundan gələ bilməyəcəyini şübhəsiz ki, çox yaxşı bilir. Bu xüsusiyyətini xatırladaraq, hz. Mehdinin mübarək bir soydan gələn "BİR İNSAN" olacağını ifadə edir. Bununla yanaşı, Bədiüzzaman risalələrdə bir neçə dəfə özünün Peyğəmbərimiz (s.ə.v)-in soyundan olmadığını ifadə etmiş və hz. Mehdi gəldiyində, digər mücəddidlərdən bu xüsusiyyətiylə ayırd edilə biləcəyinə diqqət çəkmişdir.

# NƏTİCƏ

Bədiüzzamanın əsərlərində istifadə etdiyi "şəxsi mənəvi" anlayışı mövzusundakı səhv başa düşülməyə açıqlıq qazandıran bu izahlara daha bir çox nümunə vermək mümkündür. Ancaq bunlardan yalnız bir neçəsi belə, hz. İsanın və hz. Mehdinin Axırzamanda bərabərlərindəki mömin birliklərinin şəxsi mənəvisi ilə birlikdə, onlara öndərlik edərək zühur edəcəklərinin başa düşülməsi üçün kifayətdir.

Bədiüzzaman bütün bu sözlərində "Hz. İsa və camaatının şəxsi mənəvisi" və "Hz. Mehdi və onun camaatının şəxsi mənəvisi" olaraq iki ayrı anlayışdan bəhs edir. Bu, "ikisinin bir yerə gəlməsindən şəxsi mənəvi anlayışının meydana gəldiyini", ancaq bu mübarək və müqəddəs şəxslərin şəxsi mənəviləriylə birlikdə, şəxsən bərabərlərindəki möminlərə öndərlik edəcəklərini açıqlayır. Ustad, hz. Mehdinin, özündən əvvəl gəlib-keçmiş xəlifələr, əmirlər, hökmdarlar kimi cismani bir şəxs olacağını və Rəsulullah (s.ə.v)-in soyundan gələcək bir şəxs olaraq zühur edəcəyini sözlərində bir neçə dəfə açıq şəkildə ifadə etmişdir.

Bura qədər izah edilənlərdən aydın olduğu kimi, "şəxsi mənəvi" anlayışını, onun öndəri olan, başındakı şəxsdən ayrı, müstəqil və azad qiymətləndirmək böyük bir səhv olar. Quranda bəhsi keçən bütün mömin birliklərinin başında bir elçi ya da bir komandir olmuşdur. Axırzamanda da Quran əxlaqının bütün yer üzünə hakim olması kimi dünya tarixinin çox müstəsna bir dövründə möminlərin başsız, özbaşına bir birlik olaraq qalmaları Quranda bildirilən adətullaha uyğun deyil (ən doğrusunu Allah bilir).

Hz. İsa Axırzamanda yer üzünə gələcək, möminlərə öndərlik edəcək və hz. Mehdi ilə birlikdə İslamın nurunun bütün insanları işıqlandırmasına vəsilə olacaqlar. Hz. Mehdi də bir şəxsi mənəvi olaraq deyil, şəxsən gəlib Axırzamanda müsəlmanların başına keçəcək, onları Allahın icazəsiylə içinə düşdükləri sıxıntı və çətinliklərdən qurtarıb, dinclik, ədalət, nemət və bolluğa qovuşduracaq.

## Bədiüzzaman hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini necə açıqlamışdır?

**BƏDİÜZZAMAN "HZ. <u>MEHDİNIN HƏM DİYANƏT, HƏM SİYASƏT, HƏM DƏ SƏLTƏNƏT SAHƏLƏRİNDƏ MEHDİLİK EDƏCƏYİNİ" İFADƏ ETMİŞDİR</u>**

Böyük İslam mütəfəkkiri Bədiüzzaman Səid Nursi əsərlərində, əsrlərdir bütün İslam aləminin gözlədiyi hz. Mehdinin gəlişi haqqında Peyğəmbərimiz (s.ə.v)-in hədisləri əsasında təfərrüatlı şərhlər vermişdir. Bədiüzzaman hədislərdə verilən bu məlumatlara əsaslanaraq, Axırzamanda gələcək olan hz. **Mehdinin üç ayrı sahədə birdən Mehdilik edəcəyini yəni, həm "SIYASƏT MEHDİSİ", həm "SƏLTƏNƏT MEHDİSİ", həm də "DİYANƏT MEHDİSİ" olacağını ifadə etmişdir.** Bədiüzzamanın, hz. Mehdinin bu əhəmiyyətli xüsusiyyətini açıqladığı sözlərindən biri belədir:

**"Böyük Mehdinin çox vəzifələri var. <u>VƏ SİYASƏT ALƏMİNDƏ, DİYANƏT ALƏMİNDƏ, SƏLTƏNƏT ALƏMİNDƏ, MÜBARİZƏ ALƏMİNDƏ çox dairədə işləri olduğu kimi..."</u>** <u>(Şualar, səh.</u> 590)

Bədiüzzamana görə, hz. Mehdi, Mehdilik vəzifəsini yalnız tək bir sahədə reallaşdırmayacaq, dörd ayrı sahədə birdən böyük və əhəmiyyətli fəaliyyətləri olacaq".

Ancaq Əmirdağ Lahiqəsinə aid nəşr olunmamış bir məktubunda, Bədiüzzamanın "Hərçənd həqiqət nöqtəsində Axırzamanda gələcək böyük hz. **<u>Mehdi siyasəti tam dindar isəvilərə buraxıb tək İslamiyyət həqiqətlərini isbata, izhara, icraya çalışar..." şəklində bir sözü yer alır.</u>** Bədiüzzamanın bu sözüylə nəyi nəzərdə tutmuş olduğu isə, müxtəlif çevrələr tərəfindən mübahisə mövzusudur. Bədiüzzamanın bu sözlərinə əsaslanaraq, "Hz. **Mehdinin yalnız iman həqiqətləri istiqamətində bir iş görəcəyi; ancaq siyasət və səltənət sahələrində hər hansı bir vəzifə boynuna götürməyəcəyi" şəklində şərhlər qarşıya qoyulur.**

Ancaq bu düşüncə, Bədiüzzamanın risalələrdə yüzlərlə səhifə boyunca izah etdiyi məlumatlarla tamamilə ziddiyyət təşkil edir. Çünki Bədiüzzaman əsərlərində, hz. Mehdinin yerinə yetirəcəyi üç böyük vəzifə haqqında geniş məlumat vermiş və hz. **Mehdinin "diyanət, siyasət, səltənət və mübarizə sahələrində Mehdilik vəzifəsini nə şəkildə yerinə yetirəcəyini" təfərrüatlı olaraq izah etmişdir.** Bu sözlərində, hz. **Mehdinin "İslam əxlaqını bütün dünyaya hakim edəcəyini, müsəlmanların mənəvi liderliyini boynuna götürərək İslam Birliyini təmin edəcəyini, xristian dünyasıyla ittifaq edəcəyini" təfərrüatlı olaraq açıqlamışdır.** Bədiüzzamanın bütün bu izahları heç bir mübahisə ya da şərhə yer verməyəcək qədər açıqdır.

Çox açıqdır ki, əgər Bədiüzzaman, hz. Mehdinin yalnız iman həqiqətləri istiqamətində bir xidmət edib, siyasət ya da səltənət sahələrində vəzifə yerinə yetirməyəcəyini düşünsəydi, risalələrdə belə bir şərhə yer verməz, hz. Mehdinin bu istiqamətdəki vəzifələrini Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq bu qədər uzun və təfərrüatlı olaraq izah etməzdi. Çünki Bədiüzzaman kimi dərin imanlı böyük bir mücəddidin, əsərlərində, düşündüyü və inandığı şeylərin tam əksinə şərhlər etməsi heç bir şəkildə mümkün deyil. Açıqdır ki, ortada bir səhv anlama vardır və Bədiüzzamanın bu məktubundakı sözlərinin səhv şəkillərdə şərh olunmasından bəhs edilir. Bu vəziyyət, Bədiüzzamanın bəhsi keçən məktubunu risalələrə əlavə etməməsinin hikmətlərini də açıq şəkildə ortaya qoyur. Bədiüzzaman da bu mövzunu şübhəli gördüyü, qarışdırıcı ola biləcəyini və səhv başa düşüləcəyini düşündüyü üçün bəhsi keçən məktubunu risalələrə əlavə etdirməmişdir. Necə ki, bu da Bədiüzzamanın bir kəramətidir. Bədiüzzamanın narahat olduğu vəziyyət reallaşmış və edilən bu şərh səhvi, Bədiüzzamanın sözlərinin səhv başa düşülməsinə səbəb olmuşdur. Bu səbəblə, bu mövzunun açıqlığa qovuşdurulmasında və Bədiüzzamanın bu sözlərlə həqiqətdə nəyi nəzərdə tutmuş olduğunun ortaya qoyulmasında fayda vardır.

## BƏDİÜZZAMAN, HZ. <u>MEHDİ İLƏ ƏLAQƏDAR OLARAQ İSTİFADƏ ETDİYİ "SİYASƏT" ANLAYIŞI İLƏ NƏYİ NƏZƏRDƏ TUTUR?</u>

Bədiüzzamanın, hz. Mehdinin siyasət sahəsindəki vəzifəsinə bağlı sözlərinin daha yaxşı aydın ola bilməsi üçün əvvəlcə, Bədiüzzamanın "siyasət" anlayışını nə mənada istifadə etdiyinin və "Hz. **Mehdinin siyasət sahəsində yerinə yetirəcəyi işlər" ifadələriylə nəyi nəzərdə tutduğunun tam olaraq açıqlanması lazımdır.**

## <u>BƏDİÜZZAMAN ƏSƏRLƏRİNDƏ "İKİ AYRI SİYASƏT ANLAYIŞI"NDAN BƏHS ETMƏKDƏDİR</u>

**Bədiüzzaman əsərlərində "iki ayrı siyasət anlayışı"ndan bəhs edir.** Bunlardan birincisi, Bədiüzzamanın da həyatı boyunca uzaq dayandığını bildirdiyi "dünya siyasəti"dir. Bədiüzzaman əsərlərində bu həqiqəti bir neçə dəfə dilə gətirmişdir. Bədiüzzamanın bu mövzudakı sözlərindən bəziləri belədir:

Bir zaman, bu qarazkaranə (məqsədli, pis niyyətli) tərəfgirlik (tərəf tutma) nəticəsi olaraq gördüm ki; mütədeyyin (dindar, dini əmrlərə və qadağalara əməl edən) bir əhl-i elm

(elm əhli), fikr-i siyasisinə müxalif (siyasət fikrinə qarşı) bir alim-i salihi (səmimi bir alimi) təkfir dərəcəsində (küfrlə, kafirliklə ittiham etmə dərəcəsində) təzyif etdi (narahat etdi). **Və öz fikrində olan bir münafiqi, hörmətli olaraq mədh etdi. Məhz siyasətin bu pis nəticələrindən ürkdüm, əuzü billah minəş- şeytani vəs-siyəsə (şeytandan və siyasətdən Allaha sığınaram.) dedim. O zamandan bəri həyat-ı siyasidən (siyasət həyatından) çəkildim.** (Mektubat, 22-ci Məktub, 4-cü Vecih, 4-cü Düstur, səh. 247)

Həm iman və həqiqət nöqtəsində bu növ maraqların böyük zərərləri var. Çünki qəflət verəcək və dünyaya boğduracaq və həqiqi vəzifə-i insaniyyəti (insanın həqiqi vəzifəsini) və axirəti unutduracaq olan ən geniş dairə isə, siyasət dairəsidir. (Emirdağ Lahikası, səh. 46)

Bədiüzzamanın burada "şeytandan və siyasətdən Allaha sığınaram" sözləriylə bəhs etdiyi "Quran xarici bir siyasət anlayışı"dır. Necə ki, Allaha sığındığını söyləməsi bu həqiqəti açıqca ortaya qoyur.

Bədiüzzaman əsərlərində, hz. Mehdinin də bu mənada bir siyasət ilə maraqlanmayacağını bildirir. Ancaq Bədiüzzaman "... **VƏ SİYASƏT ALƏMİNDƏ, DİYANƏT ALƏMİNDƏ, SƏLTƏNƏT ALƏMİNDƏ, MÜBARİZƏ ALƏMİNDƏ çox dairədə işləri olduğu kimi..."** (Şualar, səh. 590) sözləriylə də, hz. Mehdinin siyasət aləmində əhəmiyyətli vəzifələr boynuna götürəcəyini ifadə edir. Bədiüzzamanın burada istifadə etdiyi siyasət anlayışıyla nəzərdə tutduğu məna, Bədiüzzamanın özünün də Allaha sığındığını ifadə etdiyi siyasət anlayışından çox fərqlidir. Bədiüzzaman hz. Mehdinin, "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi" yəni "Müsəlmanların mənəvi lideri" xüsusiyyətini daşıyaraq, bütün dünya müsəlmanları arasında İslam Birliyini quracağını, Xristian aləmiylə ittifaq meydana gətirəcəyini və hz. İsa ilə birlikdə, İslam əxlaqını bütün dünyada hakim edəcəyini ifadə etmişdir. Bədiüzzamanın təfərrüatlı olaraq açıqladığı hz. Mehdinin boynuna götürəcəyi bütün bu vəzifələr, hz. **Mehdinin "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni bütün dünya müsəlmanlarının mənəvi lideri" xüsusiyyətini daşıyacağını və "idarəçi" mövqeyində olacağını açıqca ortaya qoyur.**

Ancaq xəlifə olması; yəni müsəlmanların mənəvi lideri sifətini daşıması ayrı, siyasət isə ayrı bir mövzudur. Hz. **Mehdi dünya siyasətiylə şəxsən maraqlanmaya bilər, amma "Müsəlmanları maraqlandıran hər mövzuda həll gətirəcək adam olaraq mənəvi liderləri hz. Mehdi olacaq". Hz.** Mehdinin boynuna götürəcəyi bu vəzifənin nə şəkildə adlandırıldığı əhəmiyyətli deyil. "Hz. **Mehdinin maraqlanacağı siyasət, ‘Quran əxlaqı içərisindəki siyasət' olacaq".** Əhəmiyyətli olan, hz. Mehdinin yerinə yetirəcəyi bu vəzifənin "Quranın bir hökmü" olmasıdır. **"Quran əxlaqına uyğun siyasət"in mənası "gözəl əxlaqlı, şəfqətli, mərhəmətli olmaq, ədalətli davranmaq, möminlər arasında birlik və qardaşlığı, sülhü və ictimai ədaləti təmin etmək, ədalətsizliyi aradan qaldırmaq, zənginlik və rifahı təmin etmək"dir.** Quranda hz. Mehdinin yerinə yetirəcəyi bu vəzifə "İslam əxlaqının hakimiyyəti" olaraq müjdələnilir:

**Allah, içinizdən iman edənlərə və saleh əməllərdə olanlara vəd etmişdir: Heç şübhəsiz, onlardan əvvəlkiləri necə "güc və iqtidar sahibi" etdisə, onları da yer üzündə "güc və iqtidar sahibi" edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərinə məskun edib sağlamlaşdıracaq və onları qorxularından sonra təhlükəsizliyə çevirəcək... (Nur surəsi, 55)**

Hz. Mehdi də Quranın bu hökmü gərəyi, bütün müsəlmanların dincliyini, birlik və bərabərliyini təmin edəcək, İslam əxlaqının gözəlliyini bütün dünyada məskun edəcək. Bədiüzzamanın da siyasət və səltənət anlayışlarıyla nəzərdə tutduğu əsas mövzu budur; "Hz. **Mehdinin bütün dünya müsəlmanlarının liderliyini boynuna götürməsi və Quranda ifadə edilən bu hökmə uyğun olaraq İslam dünyasının mənfəətləri istiqamətində fəaliyyətlərdə olması"dır.** Bütün bunlar Quran əxlaqının və Quran ayələrinin bir gərəyidir. Bədiüzzamanın "o şəxsin ikinci vəzifəsi, şəriəti (Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) icra və tətbiq etməkdir" (Sikke-i Tasdik-i Gaybi, səh. 9) sözləriylə ifadə etdiyi kimi, hz. Mehdi də, Quran əxlaqının şərtlərini tətbiq etdiyində, İslam Birliyinin meydana gəlməməsi, hz. Mehdinin idarəçi xüsusiyyətini daşımaması, səlahiyyət sahibi olmaması ya da lider mövqeyində olmaması mümkün deyil. Çünki bütün bunlar Allahın bütün müsəlmanları yaşamaqla məsul etdiyi hökmlərdir. Necə ki, Bədiüzzaman da hz. **Mehdinin bu xüsusiyyətləri daşıyacağını "Xilafət i Məhəmmədiyə (S. Ə. V.) (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi) ünvanı ilə şəair-i İslamiyəyi (İslam əxlaqının əsaslarını) ihya etməkdir (yenidən canlandırmaqdır)."** (Emirdağ Lahikası, səh. 259) sözləriylə ifadə edir.

Bir ayədə Allah müsəlmanlara, içlərindəki "əmr sahiblərinə" tabe olmalarını belə bildirir:

**Ey iman edənlər, Allaha itaət edin; elçiyə itaət edin və sizdən olan əmr sahiblərinə də. Əgər bir şeydə anlaşılmazlığa düşsəniz, artıq onu Allaha və elçisinə çevirin. Əgər Allaha və axirət gününə iman edirsinizsə. Bu, xeyirli və nəticə baxımından daha gözəldir. (Nisa surəsi, 59)**

Bu ayə kimi Quranda, müsəlmanların, Allahın özlərini dünyada və axirətdə qurtuluşa çatdırması üçün göndərmiş olduğu elçilərə tabe olmaları ilə əlaqədar çoxlu ayə yer alır. Məhz Bədiüzzamanın, **"siyasət aləmində, diyanət aləmində, səltənət aləmində və mübarizə aləmində çox dairədə işləri olduğu kimi"** sözləriylə, hz. Mehdi üçün nəzərdə tutduğu siyasət anlayışı da budur. Bədiüzzaman bu sözlərində yer alan "siyasət və səltənət" anlayışlarıyla, hz. Mehdinin, Quranın bu hökmünü nə şəkildə yerinə yetirəcəyini açıqlayır.

Necə ki, risalələrdəki hz. Mehdinin vəzifələrinin açıqlandığı sözlər diqqətli şəkildə araşdırıldığında, Bədiüzzamanın bu sözləriylə nəyi nəzərdə tutmuş olduğu asanlıqla aydın olur; Hz. Mehdinin siyasət və səltənət sahəsində bir çox vəzifə boynuna götürəcəyi açıqca görülür.

## BƏDİÜZZAMAN ƏMİRDAĞ LAHİQƏSİNDƏKİ NƏŞR OLUNMAMIŞ MƏKTUBUNDA BƏHSİ KEÇƏN "DİNDAR İSƏVİLƏR" SÖZLƏRİYLƏ KİMLƏRİ NƏZƏRDƏ TUTUR?

**"Hərçənd həqiqət nöqtəsində Axırzamanda gələcək böyük hz.** Mehdi siyasəti tam dindar İsəvilərə buraxıb tək İslamiyyət həqiqətlərini isbata, izhara (ortaya çıxarmağa, ortaya qoymağa, göstərməyə), icraya (tətbiqə, tətbiq etməyə, yerinə yetirməyə) çalışar..." (Emirdağ Lahikası – 1)

Bədiüzzaman Əmirdağ Lahiqəsindəki məktubunda hz. **Mehdinin "siyasəti tam dindar İsəvilərə buraxacağını" ifadə etmişdir. Bədiüzzamanın bu sözlərində "dindar İsəvilər" sözləriylə kimləri nəzərdə tutduğunun ortaya qoyulması, hz.** Mehdinin vəzifələri ilə əlaqədar mövzunun ən doğru şəkildə aydın ola bilməsi baxımından son dərəcə əhəmiyyətlidir. Diqqət yetirilsə, Bədiüzzaman burada "Müsəlmanlığa dönmüş İsəvilər" demir. **Demək ki, bəhsi keçən kəslər "hələ müsəlmanlığı qəbul etməmiş xristianlar"dır.** Bu kəslər hələ Quranı qəbul etməmiş, İsəvilikdən dönərək müsəlmanlığa tabe olmamış kəslərdir. Halbuki, hz. İsa gəldiyində Qurana tabe olacaq və müsəlman olacaq. Bu səbəbdən, İsəvi deyil, Məhəmmədi olacaq. Ona bağlanan İsəvilər də, onun müsəlman olmasından ötəri, eyni şəkildə Məhəmmədi olacaqlar.

**Bu səbəbdən, Bədiüzzamanın sözlərindən, burada "bəhsi keçən xristianların hələ Quranın təbliğini qəbul etməmiş və müsəlmanlığa dönməmiş kəslər olduqları" açıqca aydın olur.** Bədiüzzamanın "dindar İsəvilər" sözləriylə nəzərdə tutduğu "İncilə və xristianlıq dininə bağlı, dindar xristianlardır".

Bədiüzzaman Axırzaman ilə əlaqədar sözlərində İsəvilər ilə əlaqədar "iki mərhələ"dən bəhs edir. **"Bunlardan biri, hz. İsa gəlmədən əvvəlki, digəri də hz. İsanın ortaya çıxışından sonrakı dövrdür". Hz. İsanın ikinci dəfə yer üzünə gəlişindən əvvəlki dövrdə dindar İsəvilər "dünya siyasəti" ilə maraqlanacaqlar.** Necə ki, indiki vaxtda da bu vəziyyət açıqca görülür. Bədiüzzaman da bu sözlərində bu həqiqəti dilə gətirmişdir.

Bununla yanaşı, əvvəlki sətirlərdə bu mövzuya bağlı olaraq hz. Mehdinin maraqlanacağı siyasətin yalnız, "Quran əxlaqı içərisindəki bir siyasət" olacağı açıqlanmışdı. "Məhz hz. **Mehdinin bu dövrdə dindar isəvilərə buraxdığı siyasət də 'Quran xarici siyasət'**

**olacaq". Necə ki, hz.** Mehdinin "Qurana uyğun olmayan bir siyasəti" "Qurana tabe olmayan bir birliyə" buraxması da çox normaldır. Deməк ki, İslam əxlaqının hakim olmadığı bu dövrdə güc və imkanlar, Qurana tabe olmamış bu birlik üçün uyğun olacaq.

## BƏDİÜZZAMAN HZ. MEHDİ ÜÇÜN İSTİFADƏ ETDİYİ "ÇOX VƏZİFƏLƏRİ VAR" SÖZLƏRİYLƏ NƏYİ İFADƏ EDİR?

Bədiüzzaman, hz. Mehdinin vəzifələrini açıqladığı sözlərində "Böyük Mehdinin çox vəzifələri var..." (Şualar, səh. 590) şəklində bildirir. Bu sözlərinin davamında isə, yenə hz. Mehdi üçün "çox dairədə işləri olduğu kimi..." ifadəsini istifadə edir.

Bəhsi keçən Əmirdağ Lahiqəsindəki nəşr olunmamış məktubunda isə hz. Mehdi üçün"... **o şəxsi mübarəyin (mübarək şəxsin) və yaxud onun camaat-ı nuraniyəsinin (nurani camaatının) şəxsi mənəviyəsinin çox vəzifələrindən ən əhəmiyyətli vəzifəsi olan hakaik-i imaniyənin (iman həqiqətlərinin) isbat və nəşrini (yayılmasını)..." (Emirdağ Lahikası-1) sözlərinə yer verir.**

Bədiüzzamanın bəhs edilən məktubundakı sözlərinə əsaslanaraq "Hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini dindar İsəvilərə buraxıb yalnız birinci vəzifəsi olan iman həqiqətlərinə istiqamətli bir iş görəcəyi" qarşıya qoyulur. Ancaq Bədiüzzaman, yenə bəhsi keçən bu məktubda "o şəxsi mübarək" olaraq bəhs etdiyi hz. **Mehdinin "çox vəzifələrindən" danışır.**

**1) Bədiüzzamanın Əmirdağ Lahiqəsində bəhs etdiyi və risalələrin digər hissələrində də yer alan "çox vəzifələri var" sözləri nə mənanı verir?**

Bədiüzzaman, Əmirdağ Lahiqəsindəki məktubunda olduğu kimi, risalələrdə yüzlərlə səhifə boyunca hz. **Mehdinin "çox vəzifələri olacağı", "çox dairədə işləri olacağı" şəklində şərhlər etmiş;** "Hz. **Mehdinin birinci vəzifəsi", "ikinci vəzifəsi" və "üçüncü vəzifəsi" olaraq adlandırdığı bir çox sözünə yer vermişdir. Əgər Bədiüzzaman "çox vəzifələri var" deyirsə, bunun hz.** Mehdinin tək bir vəzifəsini ifadə etməsi mümkün deyil. Deməк ki, "Bədiüzzamana görə hz. Mehdinin tək bir vəzifəsi yoxdur; birdən çox vəzifəsi olacaq".

**2) Əmirdağ Lahiqəsinə aid bəhsi keçən məktubunda Bədiüzzaman "ən əhəmiyyətli vəzifəsi olan hakaik-i imaniyənin (iman həqiqətlərinin) isbat və nəşri (yayılması)" (Emirdağ**

**Lahikası-1) olduğunu ifadə edir. Buradan, birinci vəzifənin nə olduğu aydın olur. Yaxşı, hz. Mehdinin, Bədiüzzamanın "çox vəzifələri" sözləriylə ifadə etdiyi digər vəzifələri nələrdir?**

Bədiüzzaman bu problemin cavablarını risalələrdə geniş və təfərrüatlı olaraq izah etmişdir. Hz. **Mehdinin "diyanət, siyasət, səltənət və mübarizə aləmlərində vəzifələri olduğunu" açıqlamışdır.** Sonrakı sətirlərdə, hz. Mehdinin bu vəzifələri təfərrüatlı olaraq izah ediləcək.

Bədiüzzamanın risalələrdə bəhs etdiyi bir mövzunu, yalnız tək bir sözüylə dəyərləndirmək, yanlış şərhlərə səbəb ola bilər. Çünki Bədiüzzaman Risalə-i Nur Külliyyatının müxtəlif əsərlərində mehdiyyət mövzusuna yer vermiş, bu mövzularda bir-birini tamamlayan əhəmiyyətli şərhlər vermişdir. Bu mövzuda da Bədiüzzaman, Əmirdağ Lahiqəsinə aid bu məktubundakı hz. Mehdiyə bağlı şərhlərini, risalələrin digər hissələrindəki izahlarıyla tamamlayır. Bədiüzzaman bu hissələrdə siyasət və səltənət mövzularını çox geniş bir şəkildə açıqlamışdır.

Bu səbəbdən, Bədiüzzamanın bu məktubunda yer alan bu sözlərinin də, Bədiüzzamanın risalələrdə bu qədər uzun yer ayırdığı və Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq təfərrüatlı olaraq izah etdiyi digər sözlərinin əsasında qiymətləndirilməsi lazımdır.

## BƏDİÜZZAMAN, HZ. MEHDİNİN VƏZİFƏLƏRİNİ "ÜÇ AYRI DÖVRDƏ" YERİNƏ YETİRƏCƏYİNİ AÇIQLAMIŞDIR

**Çox vaxt məktublarımda işarə etdiyim kimi, MEHDİ AL-İ RƏSULUN TƏMSIL ETDİYİ QÜDSİ CAMAATININ ŞƏXSI MƏNƏVİSİNİN ÜÇ VƏZİFƏSİ VAR. Əgər tez qiyamət qopmazsa və bəşər (insanlar) tamamilə yoldan çıxmazsa, o vəzifələri onun cəmiyyəti və seyidlər (Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələnlər) camaatı edəcəyini rəhmət-i İlahiyyədən (Allahın rəhmətindən) gözləyirik. Və onun üç böyük vəzifəsi olacaq.** (Emirdağ Lahikası, səh. 259)

1-ci mərhələ

Hz. Mehdinin birinci vəzifəsi olan iman həqiqətlərini təbliğ edərək inkarçı fəlsəfələrlə mübarizə etdiyi dövr

2-ci mərhələ

Hz. Mehdinin siyasət və səltənət sahələrindəki ikinci vəzifələrini yerinə yetirdiyi dövr

3-cü mərhələ

Hz. İsanın ikinci dəfə yer üzünə gəldiyi və hz. Mehdi ilə birlikdə İslam əxlaqını bütün dünyaya hakim etdikləri dövr

Bədiüzzaman əsərlərində, hz. Mehdinin yerinə yetirəcəyi vəzifələri açıqlayarkən, bunların müəyyən bir sıra içərisində reallaşacağını da ifadə etmişdir. Bədiüzzamana görə, hz. Mehdinin bu vəzifələrini yerinə yetirməsi "üç ayrı mərhələ"də reallaşacaq.

BİRİNCİ MƏRHƏLƏ: Hz. Mehdi vəzifəsinə başladığı ilk illərdə, Bədiüzzamanın "ən əhəmiyyətli vəzifəsi olan hakaik-i imaniyənin (iman həqiqətlərinin) isbat və nəşri (yayılması)" (Emirdağ Lahikası-1) sözləriylə bəhs etdiyi birinci vəzifəsini yerinə yetirəcək. Bu dövrdə, hz. Mehdi siyasət və səltənət sahələrində vəzifə yerinə yetirməyəcək, bunu, hələ Qurana tabe olmamış olan dindar isəvilərə buraxacaq. Bədiüzzamanın istifadə etdiyi "nəşr" sözündən aydın olduğu üzrə nəşriyyat yoluyla yəni kitab, jurnal, CD və digər kütləvi informasiya vasitələri yoluyla geniş kütlələrə iman həqiqətləri təbliği edəcək.

İKİNCİ MƏRHƏLƏ: Hz. Mehdi ikinci dövrədə isə siyasət və səltənət sahələrindəki vəzifələrinə keçəcək; İslam Birliyini təmin edəcək və inkarçı fəlsəfələrə qarşı xristianlarla ittifaq təmin edəcək. Bu dövrdə, hz. Mehdi, "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi" yəni "bütün müsəlmanların mənəvi lideri" xüsusiyyətiylə İslam aləminin başına keçəcək.

ÜÇÜNCÜ MƏRHƏLƏ: Bu üçüncü mərhələyə keçilən dövr isə, hz. İsanın ikinci dəfə yer üzünə gəlişi və hz. Mehdi ilə birləşmələrinin başlanğıc illəri olacaq. Bu dövr, hz. Mehdinin hz. İsayla birləşərək İslam əxlaqını bütün dünyaya hakim edəcəkləri bir dövr olacaq.

## BƏDİÜZZAMAN HZ. <u>MEHDİNİN, BİRİNCİ VƏZİFƏSİNİ EDƏRKƏN SİYASƏTLƏ MARAQLANMAYACAĞINI NECƏ AÇIQLAMIŞDIR?</u>

Bədiüzzaman hz. Mehdinin, xidmətərinə başladığı birinci mərhələdə vəzifəsinə birinci xidməti olan iman həqiqətləri mövzusunu əsas götürərək başlayacağını; siyasət və səltənət sahələrindəki vəzifələrini isə daha sonrakı zamanlarda reallaşdıracağını açıqlamışdır. Bədiüzzamanın bu mövzudakı sözləri belədir:

... Bu zamanda elə fövqəladə hakim cərəyanlar (fikir axınları) var ki, hər şeyi öz hesabına aldığı üçün, faraza (fərz edək) həqiqi gözlənilən və bir əsr sonra gələcək o şəxs də bu zamanda gəlsə, hərəkatını o cərəyanlara qapdırmamaq üçün SİYASƏT ALƏMİNDƏKİ VƏZIYYƏTDƏN FƏRƏQƏT EDƏCƏK VƏ HƏDƏFİNİ DƏYİŞDİRƏCƏK DEYƏ TƏXMİN EDİRƏM.

Həm üç məsələ var: **Biri həyat, biri şəriət (Quran əxlaqının əsasları), biri imandır. Həqiqət nöqtəsində ən mühümü və ən əzəmi (böyüyü), iman məsələsidir. Lakin indiki ümuminin nəzərində (cəmiyyətin gözündə) və hal-ı aləm ilcaatında (dünyanın indiki vəziyyətində) ən mühüm məsələ, həyat və şəriət (İslam dininin əsasları) göründüyündən o şəxs indi olsa da, üç məsələni birdən ümumi ruy-i zəmində (yer üzündəki ümumi vəziyyətdə) vəziyyətlərini dəyişdirmək nev-i bəşərdəki cari olan (bütün insanlar üçün etibarlı olan) adətullaha müvafiq (uyğun) gəlmədiyindən, HƏR HALDA ƏN ƏZƏM (BÖYÜK) MƏSƏLƏNİ ƏSAS EDİB, O BİRİ MƏSƏLƏLƏRI ƏSAS ETMƏYƏCƏK.** Ta ki, iman xidməti safvətini (safını, xalisliyini, səmimiyyətini) ümuminin nəzərində pozmasın və avamın (elmi və məlumatı az olan kəslərin) tez iğfal oluna bilən (aldadıla bilən) ağıllarında, o xidmət başqa məqsədlərə vasitə olmadığı təsdiqlənsin (aydın olsun, dəlilləriylə isbat edilsin). (Kastamonu Lahikası, səh. 57)

Bədiüzzaman "... **hərəkatını o cərəyanlara qapdırmamaq üçün siyasət aləmindəki vəziyyətdən fərəqət edəcək və hədəfini dəyişdirəcək deyə təxmin edirəm..." sözləriylə, hz.** Mehdinin vəzifəsinə başladığı ilk zamanlarda siyasət və səltənət sahələrindəki ikinci və üçüncü vəzifələrindən fərəqət edərək bunları bir sonrakı mərhələyə buraxacağını təxmin etdiyini ifadə etmişdir. Bədiüzzaman bu ilk mərhələdə, mühitin hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini reallaşdıra bilməsi üçün uyğun olmadığını ifadə etmişdir. Ancaq ikinci mərhələdə mühit dəyişəcək və hz. Mehdinin siyasət və səltənət sahələrindəki ikinci və üçüncü vəzifələrini yerinə yetirə bilməsi üçün uyğun hala gələcək.

**Bədiüzzaman "Hər halda ən əzəm məsələni əsas edib, o biri məsələləri əsas etməyəcək" ifadəsiylə isə, hz.** Mehdinin ən əhəmiyyətli mövzu olan iman həqiqətlərini izah edərək dinsizliyə qarşı fikri bir mübarizə icra etmə vəzifəsini "birinci sıraya götürəcəyini" ifadə etmişdir.

**"O şəxs də bu zamanda gəlsə" sözləriylə də, "öz yaşadığı dövrdə hz. Mehdinin siyasət, səltənət və mübarizə aləmindəki vəzifələrinin yerinə yetirilə bilməsinin mümkün olmadığını ifadə etmiş; hz. Mehdinin bu vəzifələrini yerinə yetirə bilməsinin, bu şəxsin ancaq AXIRZAMANDA GƏLMƏSİYLƏ mümkün ola biləcəyini" bildirmişdir.** Bədiüzzamanın bu mövzunu açıqladığı sözü belədir:

**HƏM BU ÜÇ VƏZAİF (vəzifənin) BİRDƏN BİR ŞƏXSDƏ, YAXUD BİR CAMAATDA BU ZAMANDA OLMASI VƏ MÜKƏMMƏL OLMASI VƏ BİR-BİRİNİ CƏRH ETMƏMƏSİ (bir-birinə mane**

**olmaması, zərər verməməsi), ÇOX UZAQ, SANKİ QABİL (mümkün) GÖRÜLMÜR, AXIRZAMANDA Al-i Beyti Nəbəvinin (Peyğəmbərimiz (s.ə.v)-in soyunun) camaat-ı nuraniyəsini (nurani camaatını) təmsil edən Mehdidə və camaatındakı şəxsi mənəvidə ANCAQ İÇTIMA EDƏ BILƏR (bir yerə gələ bilər, toplana bilər).** (Kastamonu Lahikası, səh. 139)

Bədiüzzaman burada, hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini yerinə yetirə bilməsinin, bu şəxsin "ANCAQ AXIRZAMANDA GƏLMƏSİYLƏ" mümkün ola biləcəyini ifadə edir. "Yalnız, sadəcə" mənalarındakı "ancaq" sözü, bu mövzuya çox qəti olaraq açıqlıq qazandırır. Deməki, hz. Mehdi bu vəzifələrini yerinə yetirə bilmək üçün Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirildiyi kimi Axırzamanda gələcək və bu dövrdə şərtlərin dəyişməsi ilə birlikdə, zaman içərisində sırasıyla ikinci və üçüncü vəzifələrini də yerinə yetirə biləcək. Çünki o dövrdə artıq siyasət ilə maraqlanmasının bir əhəmiyyəti qalmayacaq.

Bu mövzu sual cavab şəklində açıqlandığında, Bədiüzzamanın nəzərdə tutduğu məna daha yaxşı aydın olacaq:

**1) Bədiüzzamana görə, hz. Mehdinin, digər vəzifələri zərər görmədən, siyasət və səltənət sahələrindəki vəzifələrini yerinə yetirə bilməsi üçün necə bir mühit meydana gəlməlidir?**

Bu dövr "Axırzaman" olmalıdır.

**2) Hz. Mehdinin üç vəzifəsini bir yerdə yerinə yetirə bilməsi üçün nə lazımdır?**

"Hz. Mehdinin Axırzamanda gəlməsi" lazımdır.

**3) Hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini reallaşdıra bilməsi, ancaq hansı şəkildə mümkün ola biləcək?**

"Ancaq hz. Mehdinin Axırzamanda gəlməsiylə" mümkün ola biləcək.

**4) Bədiüzzaman, "ancaq Mehdidə və camaatındakı şəxsi mənəvidə içtima edə bilər" sözləriylə nəyi ifadə edir?**

Bədiüzzaman bu sözləriylə, "Hz. **Mehdi və camaatı xaricində başqa heç kimin bu üç vəzifəni eyni anda yerinə yetirə bilməyəcəyini"** açıqlayır.

**BƏDİÜZZAMAN "HZ. MEHDİNİN, SİYASƏTİ HANSI DÖVRDƏ TAM MƏNASIYLA DİNDAR İSƏVİLƏRƏ BURAXACAĞINI" SÖYLƏYİR?**

Bədiüzzamanın Əmirdağ Lahiqəsinə aid, nəşr olunmamış məktubunda bəhs etdiyi "Hz. **Mehdinin siyasəti dindar isəvilərə buraxdığı dövr; Hz. Mehdinin siyasət və səltənətlə maraqlanmadığı, iman həqiqətlərinin nəşri ilə məşğul olduğu BİRİNCİ MƏRHƏLƏ"dir.** Bədiüzzamana görə, hz. Mehdi bu dövrədə siyasəti tam olaraq dindar isəvilərə, yəni hələ müsəlman olmamış xristianlara buraxacaq.

Necə ki, Bədiüzzaman da sözlərində, "Hz. **Mehdinin siyasəti tam dindar isəvilərə buraxdığı bu dövrdə tək iman həqiqətlərini İSBATA, İZHARA VƏ İCRAYA çalışmaqla maraqlanacağını" bildirməkdədir.** Bədiüzzamanın, hz. **Mehdinin bu dövrdə, "İslamiyyətin əsaslarını isbat, izhar və icraya çalışacağını" söyləməsi, bu dövrün hz.** Mehdinin birinci vəzifəsini yerinə yetirdiyi "'ilk dövr' olduğunu göstərir. **Çünki "İsbat" sözünün kəlmə mənası "doğrunu dəlil göstərərək meydana çıxarmaq, dəlil və şahidlə bir şeyin səhhətini göstərmək"dir. "İzhar" sözü isə "açığa qovuşdurma, ortaya qoyma, göstərmə" mənasını verir.** Bədiüzzamanın bu sözlərindən, hz. Mehdinin siyasəti tam dindar isəvilərə buraxdığı bu dövrdə, birinci vəzifəsi olan iman həqiqətlərini izah etdiyi, təbliğ mərhələsini yerinə yetirdiyi açıqca aydın olur.

## BƏDİÜZZAMAN "ÇOX VƏZİFƏLƏRİ VAR" SÖZLƏRİYLƏ İFADƏ ETDİYİ HZ. MEHDİNİN VƏZİFƏLƏRİNİ NECƏ AÇIQLAMIŞDIR?

### HZ. MEHDİNİN BİRİNCİ VƏZİFƏSİ:

Bədiüzzaman, ateist fəlsəfələrin Axırzamanda təhlükə meydana gətirəcəyini bildirmiş, xüsusilə darvinist, materialist fəlsəfələrin ateizmlə güc tapacaqlarını və Allahın varlığını inkar edəcək təhlükəli bir xəttə gələcəklərini ifadə etmişdir. Bu səbəblə, "Hz. **Mehdinin birinci vəzifəsinin, materializm fikri yəni Allahı inkar üzərinə qurulmuş materialist, darvinist və ateist fəlsəfələrlə fikirlə mübarizə etmək və bu fəlsəfələrin insanlar üzərindəki təsirini tam mənasıyla qaldırmaq olacağını" ifadə etmişdir**:

Birincisi: Fənn və fəlsəfənin tasallutiylə (təsiriylə) və maddiyun və tabiiyyun taunu (materializm, darvinizm və ateizm xəstəliyi), bəşər içinə intişar etməsiylə (insanlar arasında yayılmasıyla), hər şeydən əvvəl fəlsəfəni və maddiyun fikrini (materializm, darvinizm və ateizm kimi Allahı inkar edən dinsiz axınları) tam susduracaq bir tərzdə imanı qurtarmaqdır. **Əhli imanı dəlalətdən mühafizə etmək (iman edənləri azğınlıqdan qorumaq)...** (Emirdağ Lahikası, 259)

Ümmətin gözlədiyi, Axırzamanda gələcək şəxsin üç vəzifəsindən ən mühümü, ən böyüyü və ən qiymətdarı (qiymətlisi) olan iman-ı tahkikiyi nəşr (dəlillərə əsaslanan imanı

yaymaq) və əhli imanı dəlalətdən qurtarmaq (iman edənləri azğınlıqdan qorumaq). (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

Bədiüzzaman əsərləriylə böyük bir iman xidməti etmiş bir çox insanın iman etməsinə və imanda dərinləşməsinə vəsilə olmuşdur. **Ancaq Bədiüzzamanın "TAM SUSDURACAQ BİR TƏRZDƏ" sözləriylə ifadə etdiyi "materializmi bütün dünyada, tam mənasıyla təsirsiz hala gətirmə" vəzifəsi Bədiüzzaman tərəfindən tam mənasıyla edilməmiş; dünya səviyyəsində insanların imanını qurtarma vəzifəsi hz. Mehdiyə verilmişdir.**

Bilindiyi kimi materializmin qüvvət tapması Bədiüzzaman zamanında davam etdiyi kimi, vəfatından, yəni 1960 illərindən sonra da günümüzə qədər davam etmişdir. Televiziya və radio kanallarının inkişafıyla, yazılı mətbuatın da dəstəyiylə təsiri gedərək artmışdır. Yəni Bədiüzzamanın vəfatından sonra da materializm təbliğatı artaraq 21-ci əsrə qədər gəlmişdir.

Bu səbəbdən özünün də ifadə etdiyi kimi, Bədiüzzamanın dövründə bu mövzuda tam bir nəticə əldə edilə bilməmişdir. **Bədiüzzaman da "tam susduracaq tərzdə" sözləriylə, bu həqiqətə diqqət çəkmişdir.** Materializm, ateizm və darvinizmin çöküşüylə birlikdə insanların imanını qurtarma vəzifəsi dünya səviyyəsində hz. Mehdiyə verilmişdir. Bədiüzzamanın şəxsən başladığı, ancaq tamamilə sona çatmayan bu axınla fikri mübarizə, Allahın icazəsiylə hz. Mehdi ilə davam edəcək və nəticəyə çatdırılacaq.

## HZ. MEHDİNİN SİYASƏT VƏ SƏLTƏNƏT SAHƏLƏRİNDƏKİ İKİNCİ VƏ ÜÇÜNCÜ VƏZİFƏLƏRİ:

Bədiüzzamanın, hz. Mehdinin ikinci və üçüncü vəzifələrindən bəhs etdiyi sözlərində hz. Mehdinin, Diyanət Mehdisi olması ilə yanaşı eyni zamanda Siyasət Mehdisi və Səltənət Mehdisi olaraq da üç vəzifəni bir yerdə edəcəyi açıqca görülür. Bədiüzzamanın bu mövzunu dəlilləriylə birlikdə açıqlayan sözlərindən bəziləri belədir:

O şəxsin ikinci vəzifəsi, şəriəti (Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) İCRA VƏ TƏTBİQ ETMƏKDİR (tətbiq etmək və yerinə yetirməkdir). (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

### 1) İCRA VƏ TƏTBİQ ETMƏK:

Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsinin, "İslam əxlaq və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in həqiqi sünnələrini canlandırmaq olduğunu" ifadə etmişdir. **"İCRA**

**VƏ TƏTBİQ ETMƏK", "tətbiq etmək, qüvvəyə salmaq, yerinə yetirmək" deməkdir.** Bədiüzzaman da bu sözüylə, hz. Mehdinin, Quran əxlaqının lazımlılığını, əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini bütün insanlar arasında tətbiq edəcəyini və həyata keçirəcəyini ifadə edir. Bu da, hz. Mehdinin İslam birliyini meydana gətirməsi və bütün müsəlmanların mənəvi liderliyini boynuna götürməsiylə reallaşdırılacaq.

-**Hz. Mehdi "icra və tətbiq etmə" vəzifəsini necə yerinə yetirəcək?**

Çox açıqdır ki, bunun üçün hz. **Mehdinin "bu tətbiqləri reallaşdıra biləcək bir "səlahiyyətə" sahib olması" lazımdır.** Bu da, "Hz. **Mehdinin siyasət və səltənət sahəsində vəzifə yerinə yetirəcəyini, bütün müsəlmanlara istiqamətli 'idarəçi bir xüsusiyyəti' olacağını" açıqca ortaya qoyur.**

İkinci vəzifəsi: <u>**XİLAFƏT-İ MƏHƏMMƏDİYƏ (s. ə. v.) ÜNVANI İLƏ (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi ünvanı ilə) şəair-i İslamiyəyi (İslam əxlaqının əsaslarını) canlandırmaqdır (yenidən canlandırmaqdır) ALƏM-İ İSLAMIN VƏHDƏTİNİ (İslam aləminin birliyini) NÖQTƏS-İ ISTINAD EDİB (dayaq nöqtəsi edib) bəşəriyyəti (insanlığı) maddi və mənəvi təhlükələrdən və qəzəbi İlahidən (Allahın əzabından) qurtarmaqdır.**</u> **Bu vəzifənin, nöqtə-i istinadı (dayaq nöqtəsi) və həddimləri (xidmətçiləri), milyonlarla əfradI (fərdləri) olan ordular lazımdır.** (Emirdağ Lahikası, səh. 259)

<u>**2) XİLAFƏTİ MƏHƏMMƏDİYƏ (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi) ünvanı İlə:**</u>

Hz. Mehdi, hal-hazırda müxtəlif qruplar halında dağınıq olan müsəlmanları birləşdirəcək, İslam əxlaq və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in həqiqi sünnələrini canlandıracaq. İslam aləminin birliyini meydana gətirəcək, bu vəsiləylə insanlığı maddi və mənəvi təhlükələrdən qurtaracaq və insanların Allahın razılığına uyğun bir həyat yaşayaraq Allahın əzabından çəkinmələrinə vəsilə olacaq.

Bədiüzzaman **hz. Mehdinin bu ikinci vəzifəsini "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi" yəni "Müsəlmanların mənəvi lideri" sifətiylə yerinə yetirəcəyini ifadə etmişdir.** Şübhəsiz ki, hz. **Mehdinin, "İslam cəmiyyətinin lideri xüsusiyyətiylə" İslamiyyəti yenidən canlandırması, milyonlarla olan bir birliyin maddi və mənəvi gücüylə hərəkət edərək bütün yer üzündə İslam birliyini təmin etməsi" xüsusiyyətləri, onun "siyasət və səltənət sahəsində edəcəyi fəaliyyətləri" ifadə edir.**

<u>**3) ALƏMİ İSLAMIN VƏHDƏTİNİ NÖQTƏ-İ İSTİNAD EDİB (İslam aləminin birliyini dayaq nöqtəsi edib):**</u>

Bədiüzzaman hz. Mehdinin, daha əvvəl heç bir mücəddid tərəfindən yerinə yetirilməmiş olan vəzifələrindən birinin "İslam Birliyinin təmin edilməsi" olduğunu bildirir. Hz. Mehdi bu birliyin qurulmasına vəsilə olacaq, milyonlarla müsəlmanı bir yerə gətirəcək. İslam Birliyinin təmin edilməsi və bu birliyin liderliyi ünvanının daşınması Bədiüzzamanın dövründə, ondan əvvəlki mücəddidlərin tarixində və indiki vaxtda da hələ reallaşmış hadisələr deyil. Bədiüzzaman da bu həqiqəti vurğulamış, bu hadisələrin hz. Mehdinin tanınmasında ən əhəmiyyətli əlamətlərdən biri olacağını xatırlatmışdır.

Bədiüzzamanın hz. Mehdinin ikinci vəzifəsi haqqında vermiş olduğu bu məlumatlar da yenə "Hz. **Mehdinin 'idarəçi' mövqedə olacağını və siyasət sahəsində əhəmiyyətli vəzifələr boynuna götürəcəyini" heç bir şərhə yer buraxmayacaq bir şəkildə açıqlayır.** Çünki hz. Mehdi bu birliyi təmin edən adam olaraq "lider" xüsusiyyətiylə İslam birliyinin başında olacaq.

4) milyonlarla əfradı (fərdləri) olan ordular:

Bədiüzzaman bu sözləriylə, hz. Mehdinin bu birliliyi təmin etməsində, ona kömək edəcək çox geniş bir kütlənin var olacağından danışır. Bədiüzzaman, hz. Mehdinin xidmətində, Allahın varlığı və birliyi mövzusunu, iman həqiqətlərini bütün insanlığa izah edəcək, geniş əhatəli bir iman xidməti icra edəcək olan elm və iman birlikləri olacağını bildirmişdir. Şübhəsiz, ədədləri milyonlarla ifadə edilən belə geniş bir kütlənin istiqamətləndirilməsi hz. **Mehdinin "idarəçi xüsusiyyətini" daşıyacağını açıqca ortaya qoyur.**

**Birinci vəzifə, maddi qüvvəylə deyil, bəlkə qüvvətli etiqad (güclü və səmimi bir iman) və ixlas (yalnız Allahın məmnuniyyətini güdmə) və sədaqətlə olduğu halda, bu ikinci vəzifə, ÇOX BÖYÜK MADDİ BİR QÜVVƏ VƏ HAKİMİYYƏT lazım ki, o ikinci vəzifə tətbiq edilə bilsin (yerinə yetirilə bilsin).** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

**5) ÇOX BÖYÜK MADDİ BİR QÜVVƏ VƏ HAKİMİYYƏT:**

**Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsinin ancaq "böyük bir maddi qüvvə və hakimiyyətlə" reallaşdırıla biləcəyini ifadə etmişdir.** Hz. Mehdinin bu vəzifəsini dünya səviyyəsində reallaşdıracağını xatırladaraq, "Hz. **Mehdinin sahib olacağı maddi qüvvə və hakimiyyətin də çox böyük ölçülərdə olacağına" diqqət çəkmişdir.**

**-Hz. Mehdinin böyük bir qüvvə və hakimiyyətə sahib olması nəyi ifadə edir?**

**"Qüvvə və hakimiyyət" anlayışları "çox böyük bir səlahiyyət və iqtidarın varlığını" ifadə edir.** Hz. Mehdinin belə böyük bir səlahiyyət gücünə sahib olması, "lider xüsusiyyətiylə idarəçi mövqeyində olacağını" açıqca ortaya qoyur.

Peyğəmbərimiz (s.ə.v)-in dövründən bu yana belə bir güc və hakimiyyət təmin edilə bilməmişdir. Bədiüzzaman belə geniş miqyaslı bir maddi güc və hakimiyyətin hz. Mehdi dövründə yaşanacağını ifadə edərək, hz. Mehdinin siyasət və səltənət sahəsində reallaşdıracağı vəzifələrin əhəmiyyətini açıqca ifadə edir.

**O ŞƏXSİN üçüncü vəzifəsi, XİLAFƏT-İ İSLAMİYƏNİ (İslam xəlifəliyini) İTTİHAD-I İSLAMA BİNA EDƏRƏK (İslam birliyi üzərinə quraraq), İSƏVİ RUHANİLƏRİYLƏ (dindar xristianlarla və xristian alimləriylə) İTTİFAQ EDİB (əməkdaşlıq və həmrəylik içərisinə girərək) DİN-İ İSLAMA (İslam dininə) XİDMƏT ETMƏKDİR. Bu vəzifə, ÇOX BÖYÜK BİR SƏLTƏNƏT və QÜVVƏ və milyonlarla fədakarlarla (milyonların fədakarca iştiraklarıyla) tətbiq edilə bilər (yerinə yetirilə bilər).** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

**6) XİLAFƏT-İ İSLAMİYƏNİ (İslamın xəlifəliyini):**

Bədiüzzaman, hz. Mehdinin bir başqa vəzifəsinin də İslam cəmiyyətini birləşdirmək və xristian aləmiylə ittifaq etmək olduğunu bildirmişdir. Hz. Mehdinin bu vəzifəsini, iman sahiblərinin, Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn fədakar seyidlərin və digər bütün müsəlmanların dəstəyiylə reallaşdıracağını bildirmişdir.

Bədiüzzaman bu sözüylə "Hz. **Mehdinin dünya səviyyəsində bütün müsəlmanların mənəvi liderliyini boynuna götürəcəyini" bir dəfə daha ifadə edərək, "Hz. Mehdinin siyasət və səltənət sahələrində vəzifələrini" açıqlamışdır.**

Bədiüzzamanın, hz. Mehdi ilə əlaqədar izahlarında dəfələrlə təkrarladığı hz. Mehdinin bu xüsusiyyətini görməməzlikdən gələrək, yalnız iman həqiqətləri istiqamətində fəaliyyət edərək, siyasət və səltənət sahələrində bir vəzifə boynuna götürməyəcəyini iddia edə bilmək heç bir şəkildə mümkün deyil. Bədiüzzaman çox açıq dəlillərlə hz. Mehdinin bu sahələrdə müxtəlif fəaliyyətlərdə olacağını açıqlamış və bütün bunların hz. Mehdinin tanınmasında ən əhəmiyyətli əlamətlərdən olacağını ifadə etmişdir.

**7) İTTİHAD-I İSLAMA (İslam birliyinə) BİNA EDƏRƏK:**

Bədiüzzaman, hz. Mehdinin "siyasət, səltənət və mübarizə sahələrində" edəcəyi fəaliyyətlərdən birinin İslam Birliyini meydana gətirmək olduğunu ifadə etmişdir. Bədiüzzaman, hz. Mehdinin bu vəzifəsiylə, onun "idarəçi" mövqeyində olacağını və "Müsəlmanların mənəvi liderliyini" boynuna götürəcəyini ifadə edir.

**8) İSƏVİ RUHANİLƏRİYLƏ (dindar xristianlarla və xristian alimləriylə) İTTİFAQ EDİB (əməkdaşlıq və həmrəylik içərisinə girərək) DİN-İ İSLAMA (İslam dininə) xidmət etməkdir:**

Bədiüzzaman, hz. Mehdinin İslam cəmiyyətini birləşdirib xristian öndərləriylə, İslam və Xristianlığın ortaq cəbhəsi olan "materializm və dinsizliyə" qarşı ittifaq edəcəyini və bu yolla İslam dininə xidmət edəcəyini bildirir. Bədiüzzaman, "**Hz. Mehdinin bütün müsəlmanların mənəvi lideri xüsusiyyətiylə" xristianlarla quracağı bu ittifaqı izah edərək, hz.** Mehdinin "siyasət sahəsində" icra edəcəyi fəaliyyətlər haqqında məlumat verir. Bədiüzzaman bütün bu şərhləriylə, hz. Mehdinin yalnız iman həqiqətləri istiqamətində bir vəzifəsi olmayacağını, əksinə bütün dünyaya sülh və dinclik gətirəcək çox geniş miqyaslı xidmətlər göstərəcəyini ortaya qoyur.

## 9) ÇOX BÖYÜK BİR SƏLTƏNƏT VƏ QÜVVƏ:

Bədiüzzaman, İslam birliyi ilə müsəlman və xristian dünyasının ittifaqı kimi böyük bir hadisənin ancaq üç şərtin meydana gəlməsiylə reallaşa biləcəyinə diqqət çəkmişdir. **Bədiüzzaman "ÇOX BÖYÜK BİR SƏLTƏNƏT VƏ QÜVVƏ" sözləriylə bu şərtlərdən ikisini açıqlayır.**

"Səltənət" anlayışı, güc və səlahiyyət ifadə edən bir sözdür. **"Qüvvə" anlayışı isə "istədiyi şeyi icra edə bilmə gücü, yəni səlahiyyət"i təyin edir.** Bədiüzzaman, hz. Mehdinin İslam birliyini meydana gətirib bu birliyin liderliyini boynuna götürəcəyini və "çox böyük bir qüvvə və səlahiyyətə sahib olacağını" bildirmişdir. Bədiüzzamanın "ÇOX BÖYÜK" sözləri, hz. Mehdinin sahib olacağı bu qüvvənin və səltənətin miqyasının böyüklüyünü ifadə edir.

Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsində olduğu kimi, üçüncü vəzifəsini də yenə çox böyük bir səltənət və qüvvə ilə reallaşdıracağını ifadə etmişdir. Hz. Mehdinin İslam birliyi və xristian aləmi arasında təmin edəcəyi ittifaq dünya səviyyəsində bir xidmət olacaq; bu vəzifənin tələb etdiyi güc və səltənət də eyni şəkildə dünya səviyyəsində çox böyük bir hakimiyyətlə reallaşdırılacaq.

Bədiüzzamanın, hz. Mehdinin üçüncü vəzifəsi haqqında səhifələr boyunca etmiş olduğu bu şərhlər, "Hz. **Mehdinin yalnız Diyanət Mehdisi olaraq xidmət etməyəcəyini, həm siyasət, həm də səltənət sahəsində dünya səviyyəsində çox böyük vəzifələr boynuna götürəcəyini" ortaya qoyur.**

Üçüncü Vəzifəsi: **... o şəxs, bütün əhl-i imanın (iman edənlərin) mənəvi kömökləriylə və İTTİHAD-I İSLAMIN MUAVENETİYLƏ (İslam birliyinin köməkləşməsiylə) və bütün üləma və övliyanın (alimlərin və vəlilərin) və xüsusilə Al-i Beytin nəsilindən (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) hər əsrdə qüvvətli və kəsrətli (çox sayda) olan milyonlar fədakar seyidlərin iltihaqlarıyla (Peyğəmbər soyundan gələn fədakar kəslərin iştirakıyla) o vəzifə-i uzmayı (böyük vəzifəni) etməyə çalışar.** (Emirdağ Lahikası, səh. 260)

10) İTTİHAD-I İSLAMIN MUAVENETİYLƏ (İslam birliyinin köməkləşməsiylə):

Bədiüzzaman burada bir dəfə daha hz. Mehdinin İslam birliyini meydana gətirəcəyindən bəhs etmişdir. Ancaq heç şübhəsiz ki, əvvəlki sətirlərdə də açıqlandığı kimi, hz. **Mehdi bu birliyin başında bütün "Müsəlmanların mənəvi lideri" olaraq şəxsən olacaq. Bədiüzzaman verdiyi bu məlumatlarda "siyasət aləmində vəzifələri olmasıyla nə nəzərdə tutulduğunu və hz. Mehdinin bu sahədə necə bir fəaliyyət icra edəcəyini" açıqca ifadə edir.**

Birinci vəzifə, o iki vəzifədən üç-dörd dərəcə daha çox qiymətdardır (qiymətlidir), **lakin o ikinci, üçüncü vəzifələr ÇOX PARLAQ VƏ ÇOX GENİŞ BİR DAİRƏDƏ (sahədə) və CAZİBƏDAR (dəbdəbəli) bir tərzdə olduğundan ümuminin və avamın nəzərində (ümuminin və xalqın gözündə) daha əhəmiyyətli (vacib) görünürlər.** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

11) O İKİNCİ, ÜÇÜNCÜ VƏZİFƏLƏR ÇOX PARLAQ VƏ ÇOX GENİŞ BİR DAİRƏDƏ (sahədə) VƏ CAZİBƏDAR (dəbdəbəli) BİR TƏRZDƏ OLDUĞUNDAN:

Bədiüzzaman bu sözləriylə, hz. **Mehdinin ikinci və üçüncü vəzifələrinin "çox geniş kütlələri və coğrafiyaları əhatə edən dəbdəbəli, görkəmli və geniş əks-sədalar oyandıran işlər olduğunu" ifadə edir.** Necə ki, İslam Birliyini qurmaq, bütün müsəlmanların liderliyini boynuna götürmək, xristianlarla ittifaq və həmrəylik içinə girmək və nəticəsində İslam əxlaqını yer üzünə hakim etmək, dünya tarixinin bəlkə də ən böyük və ən görkəmli hadisələrindən olacaq. Bədiüzzaman bütün bu şərhləriylə, "**Hz. Mehdinin yerinə yetirəcəyi xidmətlərin yalnız birinci vəzifəsi olan iman həqiqətləriylə məhdud olmayacağını, 'Müsəlmanların mənəvi lideri' olaraq dünya səviyyəsində çox böyük xidmətlər edəcəyini" ortaya qoyur.**

... **Həzrəti Mehdinin, o vəzifəsini şəxsən özü görməyə vaxt və hal icazə edə bilməz.** Çünki XİLAFƏTİ MƏHƏMMƏDİYƏ (S.Ə.V) (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəliyi) CƏHƏTİNDƏKİ (istiqamətindəki) SƏLTƏNƏTİ, ONUN İLƏ MƏŞĞULİYYƏTƏ (maraqlanmağa) VAXT BURAXMIR. **Hər halda o vəzifəni ondan əvvəl bir taifə (birlik) bir cəhətdə (istiqamətiylə) görəcək. O şəxs, o taifənin (birliyin) uzun tədqiqatı ilə (araşdırmalarla) yazdıqları əsəri özünə hazır bir proqram edəcək, onun ilə o birinci vəzifəni tam etmiş olacaq...** (Emirdağ Lahikası, səh. 259)

12) XİLAFƏT-İ MƏHƏMMƏDİYƏ (S.Ə.V) (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəliyi) CƏHƏTİNDƏKİ (istiqamətindəki) SƏLTƏNƏTİ, ONUN İLƏ MƏŞĞULİYYƏTƏ (maraqlanmağa) vaxt buraxmır:

Bədiüzzaman, hz. Mehdinin işlərindən əvvəl, hz. Mehdinin birinci vəzifəsi olan iman həqiqətlərini yayma və materializmi fikirlə yıxma istiqamətində istifadə edəcəyi elmi

vəsaitləri hazırlayacaq olan bir birlik olacağından bəhs edir. Bədiüzzaman, "bir cəhətdə" yəni "bir istiqamətiylə" sözləriylə isə bu elmi birliyin, materializmi fikirlə təsirsiz hala gətirilməsi işlərini yalnız bir baxımdan icra edəcəklərini, bu səbəbdən "**Hz. Mehdinin də özünə proqram edərək bu birliyin işlərindən bu istiqamətiylə faydalanacağını" ifadə edir.** Əvvəlki səhifələrdə də ifadə edildiyi kimi, materialist fəlsəfənin "tam mənasıyla təsirsiz hala gətirilməsi" isə ancaq hz. Mehdinin yerinə yetirəcəyi xidmətlər nəticəsində reallaşdırılacaq.

Bədiüzzaman, hz. **Mehdi üçün burada "o vəzifəsini şəxsən özü görməyə vaxt və hal icazə edə bilməz" sözlərini istifadə etmişdir.** Bunun səbəbinin isə, "Hz. **Mehdinin dünya səviyyəsində bütün 'Müsəlmanların mənəvi lideri' olaraq 'siyasət və səltənət sahəsində reallaşdıracağı böyük vəzifələri' səbəbiylə vaxtının olmaması olduğunu" ifadə etmişdir.**

Bədiüzzamanın bu şərhləri "**Hz. Mehdinin bütün dünya müsəlmanlarının mənəvi lideri olaraq siyasət və səltənət sahələrində dünya səviyyəsində bir çox xidmət göstərəcəyini" açıqca ortaya qoyur.**

... **Axırzamanda şəriət-i Məhəmmədiyəni (Peyğəmbərimiz (s.ə.v)-in yolunu, Quran əxlaqını) və həqiqət-i Furqaniyəyi (Quran əxlaqının əsaslarını, həqiqətlərini) və sünnət-i Əhmədiyəni (S.Ə.V) (Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) ƏHYA İLƏ (yenidən canlandırma ilə), ELAN VƏ İCRA İLƏ (hər kəsə eşitdirərək və tətbiq edərək), BAŞÇILARI OLAN "BÖYÜK MEHDI"NİN KƏMAL-İ ƏDALƏTİNİ (uca ədalətini) VƏ HAQQANİYƏTİNİ (haqdan və düzgünlükdən ayrılmamasını, doğruluğunu) dünyaya göstərmələri çox məqbul olmaqla birlikdə, çox lazım və zəruri və həyat-ı ictimaiyə-i insaniyədəki düsturların (cəmiyyət həyatına aid qaydaların) müqtəzasıdır (gərəyidir)..."** (Şualar, səh. 456)

**13) ŞƏRİƏT-İ MƏHƏMMƏDİYYƏNİ (S.Ə.V) (Peyğəmbərimiz (s.ə.v)-in yolunu, Quran əxlaqını) VƏ HƏQİQƏT-İ FURQANİYƏYİ (Quran əxlaqının əsaslarını, həqiqətlərini) VƏ SÜNNƏT-İ ƏHMƏDİYƏYİ (S.Ə.V) (Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) ƏHYA İLƏ (yenidən canlandırma ilə), ELAN VƏ İCRA İLƏ (hər kəsə eşitdirərək və tətbiq edərək):**

Bədiüzzaman bu sözlərində, hz. Mehdinin siyasət və səltənət sahəsində izləyəcəyi yolu izah edir, ikinci və üçüncü vəzifələrini yerinə yetirərkən istifadə edəcəyi üsulları açıqlayır. **Bədiüzzamanın burada istifadə etdiyi "ƏHYA" sözünün mənası, "YENİDƏN CANLANDIRMA"dır.** Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. Mehdi Axırzamanda Qurandan uzaqlaşmış olan insanların yenidən Quran əxlaqına və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə görə yaşamalarına vəsilə olacaq.

"ELAN" sözünün mənası isə, "HƏR KƏSƏ EŞİTDİRMƏ"dir. Bədiüzzamanın şərhlərinə görə hz. Mehdi, Quranın həqiqətlərini və Quran əxlaqını hər kəsin görə biləcəyi, çata biləcəyi şəkildə eşitdirəcək. Kütləvi informasiya vasitələrini və texnologiyanı çox yaxşı istifadə

edəcəyi aydın olan hz. Mehdi, İslam həqiqətlərini çox müxtəlif və hikmətli üsullar istifadə edərək bütün dünyaya açıqca göstərəcək və elan edəcək.

"İCRA" sözünün mənası da, "TƏTBİQ"dir. Bədiüzzaman bu sözləriylə də, hz. Mehdinin, Quran əxlaqını bütün dünyada hakim edəcəyini və bütün cəmiyyətlərdə yaşanan hala gətirəcəyini ifadə edir.

-**Hz. Mehdinin "əhya, elan və icra etmə" xüsusiyyətləri nəyi ifadə edir?**

Bədiüzzamanın burada istifadə etdiyi "əhya, elan və icra ilə" sözləri, bir dəfə daha hz. **Mehdinin "idarəçi xüsusiyyətini" ifadə edir.** Bədiüzzaman, hz. Mehdinin, bütün dünyanın şahid olacağı şəkildə çox geniş miqyaslı fəaliyyətlərdə olacağını və bunları reallaşdırarkən "böyük bir səlahiyyət" və "rəhbərlik gücü"nə sahib olacağını ifadə edir.

## 14) BAŞÇILARI OLAN "BÖYÜK MEHDİNİN KƏMAL-İ ƏDALƏTİNİ (uca ədalətini) VƏ HAQQANİYYƏTİNİ (haqdan və düzgünlükdən ayrılmamasını, doğruluğunu) DÜNYAYA GÖSTƏRMƏLƏRI:

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində də bildirildiyi kimi, hz. Mehdinin İslam əxlaqını bütün dünyaya hakim etməsiylə birlikdə yer üzündə görülməmiş bir ədalət, dinclik və sülh mühitinin yaşanacağını ifadə edir. Hz. Mehdinin bu uca ədalətinə və haqqaniyyətinə bütün dünya şahid olacaq. Bədiüzzaman, hz. Mehdinin dünya səviyyəsində reallaşdıracağı bu vəzifəni "başçılıq" sifətiylə reallaşdıracağını ifadə etmişdir. Bədiüzzaman bu sözləriylə, hz. **Mehdinin "bütün dünya müsəlmanlarının liderliyini" boynuna götürəcəyini bir dəfə daha açıqlayır.** Bu mövzuda soruşulacaq bir neçə suala veriləcək cavablar, hz. Mehdinin bu xüsusiyyətinin çox açıq bir şəkildə başa düşülməsini təmin edəcək:

-**Hz. Mehdinin "başçılıq" sifətini daşıması nə mənanı verir?**

**Bədiüzzaman hz.** Mehdinin bu sifətini xatırladaraq, hz. **Mehdinin bütün dünya müsəlmanları üzərində "idarəçi" mövqeyində olacağını bir dəfə daha açıqca ifadə edir.**

-Hz. **Mehdinin bütün dünyaya kəmal-i ədalətini və haqqaniyyətini göstərməsi necə reallaşacaq?**

Uca bir ədalət anlayışının və haqdan ayrılmamasının bütün dünyaya göstərilməsi ancaq "dünya səviyyəsində bir idarə gücüylə" mümkün ola bilər. Bütün insanların hz. Mehdinin ədalət anlayışına şahid olmaları, **hz. Mehdinin "ədalət təmin edə biləcək səlahiyyətlərə sahib bir mövqedə olacağını" göstərir.**

## HZ. İSA YER ÜZÜNƏ İKİNCİ DƏFƏ GƏLDİYİNDƏ, BÜTÜN MÜSƏLMAN VƏ XRİSTİAN ALƏMİNİN MƏNƏVİ LİDERİ HZ. MEHDİ OLACAQ

Hz. İsanın ikinci dəfə yer üzünə gəlişi, yuxarıda açıqlandığı kimi hz. Mehdinin vəzifələrini yerinə yetirdiyi "ÜÇÜNCÜ MƏRHƏLƏ"də reallaşacaq. Bu dövrdə hz. Mehdi, Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni İslam aləminin mənəvi lideri sifətiylə dünya səviyyəsindəki bütün müsəlmanlar arasında İslam Birliyini təmin etmiş olacaq və lider mövqeyində olacaq. Eyni dövrdə iki ayrı şəxsin Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni müsəlmanların mənəvi lideri xüsusiyyətini daşıması isə mümkün deyil. Necə ki, hz. İsa gəldiyində, hz. Mehdinin bu vəziyyətində bir dəyişiklik olmayacaq, hz. İsa da hz. Mehdiyə köməkçi olacaq.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bu vəziyyət açıqca ifadə edilmiş; Hz. Mehdi və hz. İsanın birlikdə namaz qılacaqları və hz. İsanın **"imamlıq sənə verilmişdir"** deyərək hz. Mehdini imamlığa şəxsən özünün keçirəcəyi bildirilmişdir. Bu hədislərdən bəziləri belədir:

**İmamları saleh bir insan olan Mehdi olduğu halda, Beytül Makdisə sığınarlar. Orada imamları özlərinə səhər namazını qıldırmaq üçün önə keçdiyi bir sırada, bir də baxarlar ki, Məryəm oğlu İsa səhər vaxtında enmişdir. Mehdi, hz. İsanı önə keçirmək üçün arxaya çəkilər. HZ. İSA ONUN ÇİYİNLƏRİNƏ ƏLİNİ QOYAR VƏ ONA DEYƏR Kİ, "KEÇ ÖNƏ NAMAZI QILDIR. ÇÜNKI QAMƏT (namaza başlama işarəsi) SƏNİN ÜÇÜN GƏTİRİLMİŞDİR." (Əbu Rəfidən rəvayət edilmişdir;** İmam Şarani, Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri, Bedir Nəşr evi, səh. 495-496)

**... Nəhayət Məryəm oğlu İsa müsəlmanların əmiri (Hz.** Mehdi) ona: **Gəl bizə namaz qıldır, deyər. Bunun üzərinə İsa: Xeyr, Allahın bu ümmətə bir ikramı olaraq sizin bir qisminiz digər bir qisim üzərinə əmirlərsiniz, deyər.** (Sahih-i Müslim, cild 1, səh. 209)

Peyğəmbərimiz (s.ə.v)-in bu hədisləri son dərəcə aydındır. Açıqdır ki, Allahın təqdiri gərəyi hz. İsa, hz. Mehdi də bir əftaliyyət, yəni üstünlük görür və ona tabe olur. Bu vəziyyət, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində əhəmiyyətlə vurğulanmışdır. Bədiüzzaman da əsərlərində bu mövzunu açıqlamış; yer üzünə ikinci dəfə gəlişində hz. İsanın hz. Mehdiyə tabe olacağını ifadə etmişdir:

**... Hətta "Həzrəti İsa Əleyhissalam gəlir. Həzrəti Mehdiyə namazda iqtida edər (itaət edər), tabe olar." deyə rəvayəti, bu ittifaqa (birləşməyə) və həqiqət-i Quraniyənin mətbuiyətinə (Quran həqiqətlərinə əməl edilməsinə, tabe olunmasına) və hakimiyyətinə işarə edər.** (Şualar, səh. 587)

Bədiüzzaman bu sözlərində, Peyğəmbərimiz (s.ə.v)-in bəhsi keçən hədisində izah edilənlərin şərhini etmişdir. Hz. İsanın namazda imamlığı hz. Mehdiyə verməsinin, "Hz.

**Mehdinin üçüncü vəzifəsi olan xristian dünyasıyla edəcəyi ittifaqın, xristian dünyasının müsəlmanlığa dönməsi və Qurana tabe olmasıyla nəticələnəcəyini" açıqlamışdır.**

Bədiüzzamanın etdiyi şərhlərə görə, "bu ittifaq əsnasında hz. **Mehdi İslam aləminin, hz. İsa da müsəlmanlığa dönmüş olan xristian aləminin mənəvi lideri olacaq. Amma xristianlığın Qurana tabe olmasından ötəri, Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni bütün müsəlmanların mənəvi liderliyi xüsusiyyətini hz. Mehdi daşıyacaq. Bu səbəbdən, "Hz. Mehdi, bu dövrdə "həm Müsəlman aləminin həm də müsəlman olmuş xristian dünyasının mənəvi lideri olacaq".**

## BƏDİÜZZAMAN ÖZ YAŞADIĞI DÖVRDƏ, HZ. MEHDİNİN ÜÇ VƏZİFƏSİNİN BİR YERDƏ YERİNƏ YETİRİLMƏSİNİN MÜMKÜN OLMADIĞINI İFADƏ ETMİŞDİR

Bədiüzzamanın yuxarıda ələ alınan sözləri, hz. Mehdinin, siyasət və səltənət sahəsində yerinə yetirəcəyi çox böyük və əhəmiyyətli fəaliyyətlər olduğunu dəlilləriylə birlikdə isbat edir. Hz. Mehdini, əvvəlki mücəddidlərdən ayıracaq və insanlara tanıdacaq ən əhəmiyyətli əlamətlərdən biri, "Hz. **Mehdinin bu vəzifələrin hamısını bir yerdə reallaşdırması" olacaq.** Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və Bədiüzzamanın əsərlərində bütün bunlar dəlilləriylə birlikdə çox təfərrüatlı olaraq açıqlanmışdır.

Bədiüzzaman, əsərlərində hz. Mehdinin üç böyük vəzifəsinin öz yaşadığı dövrdə hələ reallaşdırılmadığını və hətta o dövrdə nə bir şəxs, nə də şəxsi mənəvi olaraq bir birlik tərəfindən bu vəzifələrin yerinə yetirilməsinin mümkün olmadığını ifadə etmişdir. Bədiüzzaman bu mövzunu belə açıqlamışdır:

**HƏM BU ÜÇ VƏZAİF (vəzifənin) BİRDƏN BİR ŞƏXSDƏ YAXUD BİR CAMAATDA BU ZAMANDA OLMASI VƏ MÜKƏMMƏL OLMASI VƏ BİR-BİRİNİ CƏRH ETMƏMƏSİ (bir-birinə mane olmaması, zərər verməməsi), ÇOX UZAQ, SANKİ QABİL (mümkün) GÖRÜLMÜR, Axırzamanda Al-I Beyti Nəbəvinin (Peyğəmbərimiz (s.ə.v)-in soyunun) camaat-ı nuraniyəsini (nurani camaatını) təmsil edən Mehdidə və camaatındakı şəxsi mənəvidə ancaq içtima' edə bilər (bir yerə gələ bilər, toplana bilər).** (Kastamonu Lahikası, səh. 139)

Bədiüzzaman "BU ZAMANDA" sözləriylə öz yaşadığı dövrdən bəhs edir. Və öz zamanında, hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifəni tək bir şəxsin eyni anda yerinə yetirməsinin və bu üç vəzifənin bir-birini maneə törətməməsinin mümkün olmadığını söyləyir. **Bədiüzzaman bu qənaətinin nə qədər güclü olduğunu "ÇOX UZAQ" və "SANKİ QABİL (MÜMKÜN) GÖRÜNMÜR" sözləriylə açıqca ifadə etmişdir.** Bu da, Bədiüzzamanın yaşadığı dövrdə hz. Mehdinin hələ gəlməmiş olduğunu göstərən əhəmiyyətli bir dəlildir. Bədiüzzamanın yaşadığı dövrdə, üç vəzifənin birdən yerinə yetirilməsinə imkan olmamışdır. Bədiüzzaman ancaq özündən bir əsr sonra gələcək Böyük Mehdinin bu vəzifələri bir yerdə yerinə gətirə biləcəyini bildirir (Kastamonu Lahikası, səh. 57).

## BƏDİÜZZAMAN, "DİYANƏT, SƏLTƏNƏT VƏ SİYASƏT SAHƏLƏRİNDƏKİ VƏZİFƏLƏRİ BİR YERDƏ YERİNƏ YETİRƏ BİLMƏDİKLƏRİ ÜÇÜN" ƏVVƏLKİ MÜCƏDDİDLƏRİN AXIRZAMANIN BÖYÜK MEHDİSİ OLA BİLMƏDİKLƏRİNİ İFADƏ ETMİŞDİR

Bədiüzzaman sözlərində bir neçə dəfə, nə əvvəlki əsrlərdə gələn mücəddidlər zamanında, nə də öz yaşadığı dövrdə, hz. Mehdinin üç vəzifəsinin bir yerdə yerinə yetirilə bilmədiyini və bunu ancaq hz. Mehdinin reallaşdıra biləcəyini ifadə etmişdir. Bədiüzzamanın bu mövzunu açıqlayan sözlərindən biri belədir:

**Hərçənd hər əsrdə hidayət edici, bir bənzər hz. Mehdi və mücəddid gəlir və gəlmiş.** Lakin HƏR BİRİ ÜÇ VƏZİFƏDƏN BİRİNİ BİR CƏHƏTDƏ (baxımdan) ETMƏSİ ETİBARIYLA (səbəbiylə) AXIRZAMANIN BÖYÜK MEHDİSİ ÜNVANINI ALMAMIŞLAR. (Emirdağ Lahikası, səH. 260)

## BƏDİÜZZAMAN TƏLƏBƏLƏRİNİN, HZ. MEHDİNİN YALNIZ BİRİNCİ VƏZİFƏSİNİ DİQQƏTƏ ALDIQLARI ÜÇÜN ÖZÜNƏ MEHDİLİK MÖVZUSUNDA HÜSNÜ ZƏNN BƏSLƏDİKLƏRİNİ; ANCAQ İKİNCİ VƏ ÜÇÜNCÜ VƏZİFƏLƏRİNİ GÖZARDI ETDİKLƏRİ ÜÇÜN "YANILDIQLARINI" İFADƏ EDİR

**VƏ ONUN ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQ.** (Emirdağ Lahikası, səh. 260)

Bədiüzzaman əsərlərində "Hz. **Mehdinin bir və ya iki vəzifəsi deyil, tam olaraq üç vəzifəsi olduğunu" bildirir.** Bu üç vəzifəni bir yerdə yerinə yetirməyən şəxslərin isə Axırzamanın Böyük Mehdisi ola bilməyəcəyini ifadə etmişdir.

Bədiüzzamanın bu mövzudakı təfərrüatlı şərhlərinə baxmayaraq, bu əhəmiyyətli həqiqət gözardı edilərək Bədiüzzamanın Mehdi ola biləcəyi istiqamətində bəzi fikirlər qarşıya qoyulur. Halbuki, Bədiüzzaman əsərlərində bu mövzuya şəxsən açıqlıq gətirmiş, Mehdi olmadığını səhifələr boyunca dəlilləriylə birlikdə açıqlamışdır. Bu mövzudakı bütün bu açıq bəyanlarına baxmayaraq Risalə-i Nura və bu əsərin yazıçısı olaraq özünə Mehdilik mövzusunda hüsnü zənn bəsləyənlərə isə, bu düşüncələrinin "qarışıqlıqdan qaynaqlanan bir səhv olduğunu" söyləmişdir:

**"Risalə-i Nurun şəxsi mənəvisini (camaatını) haqlı olaraq hz. Mehdi dərk edirlər (şəxsi bir görüş olaraq qəbul edirlər). O şəxsi mənəvinin də bir mümənssili (nümayəndəsi), Nur şagirdlərinin (tələbələrinin) təsanüdündən (həmrəyliyindən) gələn bir şəxsi mənəvisi və o şəxsi mənəvidən bir bənzər mümənssili (nümayəndəsi) olan BİÇARƏ TƏRCÜMƏÇİSİNİ ZƏNN ETDİKLƏRİNDƏN, BƏZƏN O ADI (**Hz. Mehdi adını) **ONA VERİRLƏR. Hərçənd BU, BİR İLTİBAS**

**(qarışdırma) BİR SƏHVDİR (xətadır, yanılmadır), lakin onlar onda məsul deyildirlər. ÇÜNKİ ÇOX HÜSNÜ ZƏNN, ƏVVƏLDƏN BƏRİ CƏRƏYAN EDİR VƏ ETİRAZ EDİLMƏZ.** Mən də o qardaşlarımın çox çox hüsnü zənlərini bir dua bənzəri və bir xahiş və Nur tələbələrinin kəmal-i etiqadlarının (imanlarının fəzilətinin) bir tərəşşuhu (əks olunması) gördüyümdən onlara çox toxunmazdım... (Tılsımlar Mecmuası, səh. 201) (Emirdağ Lahikası, səh. 248)

Bədiüzzaman Risalə-i Nurun şəxsi mənəvisinin və bu əsərlərin yazıçısı olaraq özünün bəzən hz. Mehdi ola biləcəyinin düşünüldüyünü, ancaq bunun bir qarışdırma və səhv olduğunu ifadə etmişdir. Bir başqa sözündə isə bu düşüncəyə sahib olan kəslərin iman həqiqətlərini izah etmə mövzusu istiqamətində bir qiymətləndirmə etdiklərini, ancaq hz. **Mehdinin digər iki vəzifəsi olan "İslam birliyinin təmin edilməsi, bütün İslam dünyasının lideri olması və hz. İsa ilə birlikdə İslam əxlaqının dünyaya hakim qılınmasının özündə görünmədiyi xüsusunu diqqətə almadıqlarını" söyləmişdir. Bundan ötəri də Risalə-i Nura və özünə edilən Mehdilik yaraşdırmasının yalnız bir "zənn"dən ibarət olduğunu ifadə etmişdir**:

**...** O GƏLƏCƏK ŞƏXSƏ DAİR XƏBƏRLƏRİ VƏ İŞARƏLƏRİ, RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNƏ, HƏTTA BƏZƏN TƏRCÜMƏÇİSİNƏ DƏ TƏTBİQƏ (uydurmağa) ÇALIŞMIŞLAR və Şəriəti əhya (Quran əxlaqının əsaslarını xatırladaraq yenidən həyata keçirmə) və xilafəti tətbiq olan ÇOX GENİŞ DAİRƏDƏ HÖKM EDƏN BU MÜHÜM VƏZİFƏSİNİ NƏZƏRƏ ALMAMIŞLAR (göz qarşısında saxlamamışlar). (Tılsımlar Mecmuası, səh. 168)

Bədiüzzaman, bu sözüylə hz. Mehdiyə dair xəbər və işarələrin Risalə-i Nur camaatıyla eyniləşdirilməyə çalışıldığını, ancaq bu bənzətmənin hz. Mehdi ilə əlaqədar verilən məlumatlara uyğun gəlmədiyini ifadə etmişdir. Bədiüzzaman bu bənzətməni edən kəslərin hz. Mehdinin iki böyük və əhəmiyyətli vəzifəsini gözardı etdikləri üçün belə səhv bir qənaətə vardıqlarını ifadə edir. İslam birliyinin təmin edilməsi və hz. Mehdinin bütün müsəlmanların liderliyini boynuna götürməsi, xristianlarla ittifaq təmin edilməsi və hz. İsa ilə birlikdə Quran əxlaqının bütün yer üzünə hakim olması bu ana qədər hələ reallaşmamışdır. Bədiüzzaman da daxil olmaq üzrə, Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı dövrlərdə gələn mücəddidlərin heç biri bu böyük vəzifələri yerinə yetirməmişlər. Bu səbəbdən, Bədiüzzaman da bu həqiqəti dilə gətirərək Risalə-i Nurun şəxsi mənəvisini Mehdiliklə səciyyələndirənlərin yanıldıqlarını ifadə edir. Necə ki, bir mövzuda bir adama hüsnü zənn bəslənməsi, bu düşüncənin həqiqəti əks etdirdiyini göstərən bir dəlil deyil. Necə ki, Bədiüzzaman da risalələrində bunu dilə gətirmişdir.

## Bədiüzzaman əsərlərində, özünün "Son mücəddid" və "Mehdi" olmadığını dəlilləriylə birlikdə açıqlamışdır

**RİSALƏ-İ NURUN GƏLƏCƏK ƏSRLƏRƏ İŞIQ SALAN BİR ƏSƏR OLMASI, BƏDİÜZZAMANIN SON MÜCƏDDİD YA DA MEHDİ OLDUĞUNU GÖSTƏRƏN BİR DƏLİL DEYİL; BÜTÜN İSLAM ALİMLƏRİNİN ƏSƏRLƏRİ GƏLƏCƏK ƏSRLƏRİ İŞIQLANDIRIR**

Böyük İslam alimi Bədiüzzaman Səid Nursi Risalə-i Nur Külliyyatında, səhih hədislərlə bildirilən hz. Mehdinin çıxışı və İslam əxlaqını bütün dünyaya hakim etməsi mövzusuna geniş yer vermişdir. Bədiüzzaman bu şərhlərində özünün Mehdi olmadığını da açıqca ifadə etmişdir. Mehdiyyət mövzusunda özünə hüsnü zənn bəsləyən kəslərə "özünün hz. **Mehdi olmadığını"** *(Emirdağ Lahikası, səh.* *266), "***Hz. Mehdinin yalnız bir əri, nəfəri və qabaqcılı olduğunu"** *(Barla Lahikası, səh. 162)*, **"əsərləri və etdiyi işlər ilə hz. Mehdiyə zəmin hazırladığını"** (*Sikke-i Tasdik-i Gaybi, səh. 189), "***Hz. Mehdinin özündən bir əsr sonra gələcəyini"** *(Kastamonu Lahikası, səh. 57)* ifadə edərək bu mövzuya açıqlıq qazandırmışdır.

Ancaq Bədiüzzaman əsərlərində bu mövzunu heç bir şübhə buraxmayacaq şəkildə, dəlilləriylə birlikdə açıqladığı halda, Bədiüzzamanın "...Bu həqiqətdən aydın olur ki; ***sonra gələcək o mübarək şəxs Risalə-i Nuru bir proqramı olaraq nəşr və tətbiq edəcək (yazma və paylama yoluyla yayacaq və tətbiq edəcək).*** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9*) sözləri əsasında "Hz. Mehdinin Risalə-i Nuru özünə bir proqram etməsinin, Bədiüzzamanın "son mücəddid" olduğunu göstərdiyi" şəklində bəzi səhv fikirlər qarşıya qoyulur. *Bədiüzzamanın, "Risalə-i Nur, bu əsri və gələcək əsrləri tənvir edəcək (işıqlandıracaq, nurlandıracaq) olan bir möcüzə-i Quraniyədir (Quran möcüzəsidir)." (Tarihçe-i Hayat, səh. 463*) sözləri də bu istiqamətdə səhv şəkillərdə şərh olunur; "Risalə-i Nurun gələcək əsrlərə yol göstərici xüsusiyyətdə olmasının, Bədiüzzamanın Mehdi ola biləcəyinin işarəsi olduğu" dilə gətirilir. Halbuki, "Hz. **Mehdinin vəzifələrini yerinə yetirərkən Risalə-i Nurdan istifadə etməsi, Bədiüzzamanın ya da Risalə-i Nurun mehdiyyət vəzifəsini boynuna götürmüş olduğunun bir göstəricisi deyil."**

Bədiüzzamanın qələmə aldığı, həm çox dərin bir Quran təfsiri, həm də materialist fəlsəfəni rədd edən və iman həqiqətlərini ən yaxşı şəkildə ortaya qoyan çox əhəmiyyətli bir əsər olan Risalə-i Nur Külliyyatı, yüzlərlə insanın iman etməsinə, Allaha yaxınlaşmasına və doğru yolu görməsinə vəsilə olmuşdur. Bədiüzzaman, səmimi və hikmətli üslubuyla axirət, qədər, iman kimi bir çox mövzunu vərdiş qırıcı və düşündürücü bir üslubla izah etmiş və bu yolla yaradılış həqiqətlərinin, ağıllara və vicdanlara yerləşməsinə vəsilə olmuşdur.

Bədiüzzaman Səid Nursinin əsərləri, müsəlmanlara yol göstərici bu xüsusiyyətləriylə son dərəcə əhəmiyyətlidir.

Hz. Mehdi, vəzifələrini yerinə yetirərkən haqq kitabımız olan Quran Kərimi və Peyğəmbərimiz (s.ə.v)-in hədislərini özünə rəhbər edəcək. Ancaq bununla yanaşı, Peyğəmbərimiz (s.ə.v)-dən bu yana gəlib-keçmiş bütün böyük İslam alimlərinin, bu günə qədər yaşamış olan mücəddidlərin əsərlərindən və fikirlərindən istifadə edəcək. İmam Qəzali, İmam Rəbbani, Mövlana Xalid, İmam Suyuti, Bədiüzzaman Səid Nursi kimi böyük İslam alimləri arxalarında müsəlmanlara yol göstərici xüsusiyyətdə əhəmiyyətli əsərlər buraxmışlar. Hz. Mehdi, Risalə-i Nur Külliyyatından olduğu qədər, bu qiymətli mütəfəkkirlərin işlərindən də eyni şəkildə faydalanacaq. Bu əsərlərin hər biri Risalə-i Nur Külliyyatı kimi gələcək əsrləri tənvir edəcək, yəni müsəlmanlara işıq salacaq, yol göstərəcək əsərlərdir. Hz. Mehdi gəldiyində bütün bu əsərlərin qüvvədən qalxması üçün heç bir səbəb yoxdur. Əlbəttə ki, müsəlmanlığın əsasları haqqında dərin təfəkkürlər ehtiva edən bütün bu əsərlərdən istifadə ediləcək. Ancaq "Hz. **Mehdinin, İmam Qəzalinin, İmam Rəbbaninin ya da Mövlana Xalidin əsərlərindən istifadə etməsi bu İslam alimlərinin son mücəddid ya da Mehdi olduqlarını necə göstərmirsə, Risalə-i Nur Külliyyatından istifadə etməsi də Bədiüzzamanın son mücəddid olduğunu göstərən bir dəlil deyil".**

Hz. Mehdi olmaq ayrı, bir əsərin gələcək nəsillərə işıq salması, yol göstərməsi ayrı bir mövzudur. Necə ki, hz. Mehdi vəzifələrini yerinə yetirərkən, dünyadakı bütün elmi əsərlərdən; biologiya ya da fəlsəfə üzərinə hazırlanmış işlərdən də faydalanacaq. Ya da materializmin etibarsızlığını ortaya qoyarkən materialist fəlsəfə əleyhində yazılmış elmi işləri və ya darvinizm ilə əlaqədar əsərləri də istifadə edəcək. Hz. Mehdinin bu elmi əsərlərdən faydalanması da hər hansı bir şeyin göstəricisi deyil. Əhəmiyyətli olan, hz. Mehdinin dünya səviyyəsində edəcəyi işlərdir.

Bir şəxsin hz. Mehdi ola biləcəyindən bəhs edilmək üçün, bu şəxsin hər şeydən əvvəl Peyğəmbərimiz (s.ə.v)-in hədislərində ifadə edilən xüsusiyyətlərə uyğun gəlməsi və yerinə yetirəcəyi bildirilən vəzifələri yerinə yetirməsi lazımdır. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və Bədiüzzaman kimi böyük İslam alimlərinin əsərlərində, hz. Mehdi ortaya çıxdığında reallaşmış olması lazım olan bir çox əlamət sayılır. Hz. Mehdinin soyu, fiziki xüsusiyyətləri, işləri yüzlərlə səhih hədis ilə bildirilmişdir. Hz. Mehdi ortaya çıxdığında bütün müsəlmanlar arasında İslam Birliyini quracaq, Xristian dünyasıyla ittifaq edəcək, hz. İsayla görüşəcək və birlikdə namaz qılacaq, Hz. İsayla birlikdə İslam əxlaqını bütün dünyaya hakim edəcək. Bu xüsusiyyətləri daşımayan və bu böyük vəzifələrin hamısını bir yerdə yerinə yetirməmiş bir şəxsin hz. Mehdi olmasından bəhs edə bilmək mümkün deyil. Bədiüzzaman da yaşadığı əsrin qütbü olaraq çox böyük bir iman xidməti vermişdir, ancaq bu vəzifələri yerinə yetirməmişdir. Bu səbəblə, hz. Mehdi olduğundan bəhs edə bilmək mümkün deyil. Necə ki, özü də əsərlərində bunu çox açıq bir şəkildə ifadə etmişdir.

BƏDİÜZZAMAN, RİSALƏ-İ NURUN HZ. MEHDİNİN "BİRİNCİ VƏZİFƏSİNƏ BƏZİ CƏHƏTLƏRDƏ YALNIZ RƏHBƏRLİK ETDİYİNİ" İFADƏ ETMİŞDİR; HZ. MEHDİNIN BU ƏSƏRLƏRDƏN İSTİFADƏ ETMƏSİ BƏDİÜZZAMANIN MEHDİ OLDUĞUNUN BİR GÖSTƏRİCİSİ DEYİL

**Qardaşlarımın ikinci iltibası (səhvi): Fani (keçici) və çürüdülə bilən bir şəxsiyyəti, BƏZİ CƏHƏTLƏRLƏ (istiqamətləriylə) BİRİNCİ VƏZİFƏDƏ PİŞDARLIQ (liderlik) EDƏN Nur şagirdlərinin (tələbələrinin) şəxsi mənəvisini təmsil edən o aciz qardaşına verirlər. Halbuki, bu iki iltibas (səhv, qarışdırma) da Risalə-i Nurun həqiqi ixlasına və heç bir şeyə, hətta mənəvi və ührəvi məqama da vasitə olmamasına bir cəhətdə (istiqamətdən) zərər verdiyi kimi, əhl-i siyasəti də (siyasət əhlini də) evhama (quruntuya, qorxuya, olmayan bir şeyi olan zənni ilə narahatlığa) salıb Risalə-i Nurun nəşrinə (nəşr olunmasına, paylanmasına, eşitdirilməsinə) zərər gəlir. Bu zaman, şəxsi mənəvi zamanı olduğu üçün, belə böyük və baqi (əbədi) həqiqətlər, fani (keçici) və aciz və sükut edə bilər (qüsur işləyə bilən) şəxsiyyətlərə bina edilməz.**

Bədiüzzaman Nur tələbələrinin Mehdilik mövzusunda özünə hüsnü zənn bəslədiklərini ancaq bunun, "qarışdırmadan qaynaqlanan bir səhv olduğunu" dilə gətirir. Bu səbəblə də özü üçün, "bu şəkildə söyləməyin; **belə bir Mehdilik iddiasında olmayın" deyir.** Bədiüzzaman belə səhv bir hüsnü zəndə olmasının mehdiyyət mövzusunda "səhv bir zənn" meydana gəlməsinə və beləcə, iman əhlinin səhv istiqamətləndirilməsinə səbəb olacağını; nəticədə də bu vəziyyətin, müsəlmanların həqiqi hz. Mehdini fərq etmələrinə maneə ola biləcəyini söyləyir.

Diqqət yetirilsə, Bədiüzzaman bu sözlərində nə özünün, nə də Nur şagirdlərinin, hz. Mehdinin birinci vəzifəsini yerinə yetirmədiklərini söyləyir. Özünün "Hz. **Mehdinin birinci vəzifəsi olan iman həqiqətləri mövzusunda HZ. MEHDİYƏ YALNIZ RƏHBƏRLİK ETDİYİNİ VƏ BUNU DA YALNIZ "BƏZİ CƏHƏTLƏRDƏ (istiqamətlərdə)" YERİNƏ YETİRDİYİNİ" ifadə edir.** Hz. **Mehdinin birinci vəzifəsi olan materialist fəlsəfənin "BÜTÜN DÜNYADA VƏ TAM MƏNASIYLA TƏSİRSİZ HALA GƏTİRİLƏRƏK YIXILMASI"nın isə ancaq hz.** Mehdinin yerinə yetirəcəyi xidmətlər nəticəsində reallaşdırılacağını ifadə edir (Emirdağ Lahikası, 259).

Əvvəlki sətirlərdə də açıqlandığı kimi, hz. Mehdiyə birinci vəzifəsində rəhbərlik edəcək olan bu işlər, hz. Mehdinin faydalanacağı bir çox elmi əsərdən biri olacaq. **Ancaq necə ki, İslam alimlərinin əsərlərindən, elmi ya da fəlsəfi işlərdən istifadə etməsi, bu işlərin Mehdilik vəzifəsini boynuna götürdüyünün bir dəlili deyilsə, "Hz. Mehdinin Risalə-i Nuru özünə bir**

proqram etməsi və bunlardan faydalanması da bu əsərlərin mehdiyyət vəzifəsini gördüyünün bir ifadəsi deyil".

## BƏDİÜZZAMANIN NİYƏ MEHDİ OLA BİLMƏYƏCƏYİNİ YÜZLƏRLƏ SƏHİFƏ BOYUNCA DƏLİLLƏRİYLƏ BİRLİKDƏ AÇIQLAMIŞ OLMASI, "MƏN MEHDİ DEYİLƏM" SÖZLƏRİNİ "ÜSULLA" SÖYLƏMƏDİYİNİ AÇIQCA ORTAYA QOYUR

Yaşadığı dövrdə, yaxın ətrafında Bədiüzzamana hz. Mehdi olub-olmadığı istiqamətində suallar yönəldilmişdir. Bədiüzzaman özündən soruşulan bu suala "Xeyr, mən Mehdi deyiləm" deyərək cavab vermiş, ancaq bununla yanaşı yüzlərlə səhifə boyunca niyə Mehdi ola bilməyəcəyini səbəbləriylə birlikdə dəlilləndirərək açıqlamışdır. Açıqdır ki, əgər Bədiüzzaman Mehdi olsaydı, yalnız "mən Mehdi deyiləm" deyərdi və beləcə, mövzu bağlanardı. Əksini isbat etmək üçün yüzlərlə səhifə boyunca uzun-uzun şərhlər etməyə heç bir şəkildə ehtiyac duymazdı. Onu belə təfərrüatlı bir açıqlama etməyə nə məcbur edə bilərdi ki? Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, hz. Mehdinin "Mehdilik iddiasıyla ortaya çıxmayacağı" ifadə edilmişdir. Ancaq belə bir şeyin gizlədilməsi lazımdırsa, bunun üçün yalnız tək bir cümlə ilə "mən Mehdi deyiləm" demək kifayətdir. Bu sözlər niyə razı salıcı olmasın; rədd etmək üçün uzun-uzun yüzlərlə səhifə yalan danışılmasına niyə gərək olsun? Necə ki, İmam Rəbbani, Mövlana Xalid kimi tarix boyunca yaşamış olan bir çox İslam aliminə və mücəddidə hz. Mehdi olub-olmadıqları soruşulduğunda, bu kəslər də "Mən Mehdi deyiləm" demişlər. Əsərlərində də Peyğəmbərimiz (s.ə.v)-in hədisləri əsasında Axırzamanda gələcək hz. Mehdinin xüsusiyyətlərini təfərrüatlı olaraq izah etmişlər.

Ancaq hz. Mehdi gəldiyində, ona da belə bir sual yönəldildiyində "mən Mehdilik iddiasında deyiləm" deyəcək. Amma yüzlərlə səhifə boyunca şərh edib bunun əksini isbat etməyə də çalışmayacaq. Hz. Mehdi seyid olacaq, ancaq "mən seyid deyiləm, hz. Mehdi bu xüsusiyyətlərə sahib olacaq, bu vəzifələri yerinə yetirəcək mən bu xüsusiyyətləri daşımıram" kimi izahlar etməyəcək.

Amma əgər bu vəziyyəti açıqlaya bilmək üçün, "mən hz. Mehdi deyiləm" deyilməsi kafi deyil, yüzlərlə səhifə yalan danışılması lazımdır" deyilirsə, bunun məntiqinin də açıqlanması lazımdır. Bədiüzzamanın risalələrdəki "Hz. Mehdinin özündən bir əsr sonra gələcəyi, özünün hz. Mehdinin yalnız bir qəhrəmanı, nəfəri və qabaqcılı olduğu, etdiyi işlərlə hz. Mehdinin xidmətləri üçün zəmin hazırladığı, hz. Mehdinin üç böyük vəzifəsini bir yerdə yerinə yetirməsiylə tanınacağını, özünün isə bunu reallaşdırmadığı" istiqamətindəki yüzlərlə səhifə şərhlərinin hamısının yalnız "Mehdiliyini qəbul etməmək üçün üsulla deyilmiş sözlər"

olduğunu iddia etmənin heç bir məntiqi yoxdur. **Bədiüzzaman kimi böyük bir İslam aliminin, "sırf üsulla deyilmiş olması üçün" yüzlərlə səhifə boyunca bütün İslam ümmətini aldadacaq izahlara yer verməsi, üstəlik də bütün bunları Peyğəmbərimiz (s.ə.v)-in səhih hədislərinə əsaslanması heç bir şəkildə mümkün deyil.** Bədiüzzamanın Mehdiliyini qəbul etməmək üçün yüzlərlə səhifə boyunca yalan danışdığını və müsəlmanları səhv məlumatlandırdığını iddia etmək, çox açıqdır ki, dərin bir Allah qorxusuna və güclü bir imana sahib belə qiymətli bir İslam alimınə qarşı çox böyük bir böhtan və iftira olar. Vəfatından illər sonra belə bir iddia ilə ortaya çıxılması isə, hər nə qədər yaxşılıq adına və Bədiüzzamana duyulan sevgi adına da edilmiş olsa, vicdani olaraq heç bir şəkildə qəbul edilə bilməz. Bu səbəblə, Bədiüzzamanın mehdiyyət mövzusundakı həqiqi düşüncələrinin tam mənasıyla ortaya qoyulmasında fayda vardır.

Bu kitab boyunca yer verilən, Bədiüzzamanın əsərlərində yüzlərlə səhifə boyunca izah etdiyi mehdiyyət mövzusuyla əlaqədar bütün izahları, Bədiüzzamanın hz. Mehdi olmadığını dəlilləriylə birlikdə ortaya qoyur. Bu həqiqətin başa düşülməsi üçün Bədiüzzamanın bu mövzuda verdiyi dəlillərdən bəzilərini qısaca belə sıralaya bilərik:

1. **Bədiüzzaman "Hz. Mehdinin seyid olacağını; özünün isə seyid deyil, kürd olduğunu" (***Emirdağ Lâhikası, səh. 266), (Tenvir, Şualar, səh. 365) (Münazarat, səh. 84; Tarihçe-i Hayat, səh. 228; Bediüzzaman ve Talebelerinin Mahkeme Müdafaları, səh.18);*

2. **"özünün hz. Mehdinin bir qəhrəmanı, nəfəri və qabaqcılı olduğunu"** *(Barla Lahikası, səh. 162);*

3. **"əsərləri və etdiyi işlər ilə hz. Mehdiyə zəmin hazırladığını" (***Sikke-i Tasdik-ı Gaybî, səh. 189);*

4. **"Hz. Mehdinin öz yaşadığı dövrdən bir yüz il sonra gələcəyini"** *(Kastamonu Lahikası, səh. 57);*

5. **"Hz. Mehdi gəldiyində özünün vəfat etmiş olacağını"** *(Sikke-i Tasdik-i Gaybi, səh. 172)*

6. **"özünün və Risalə-i Nurun Mehdi zənn edilməsinin bir səhv və qarışdırma olduğunu"** *(Emirdağ Lahikası, səh. 266)* **açıqlayaraq Mehdi olmadığını ifadə etmişdir.**

7. **"Hz. Mehdinin siyasət, səltənət və diyanət aləmində üç böyük vəzifəni bir yerdə yerinə yetirəcəyini"** *(Şualar, səh. 456), (Şualar, səh. 590), (Emirdağ Lahikası, səh. 259-260)* **ifadə etmişdir; ancaq özü bu üç vəzifəni bir yerdə yerinə yetirməmişdir.**

8. **"Hz. Mehdinin "materializm, ateizm və Darvinizm kimi təməli Allahı inkar etmə üzərinə qurulmuş olan dinsiz axınları "tam mənasıyla" təsirsiz hala gətirərək insanların**

imanını qurtaracağını" (Sikkəs(n)i Təsdiqi Qeybi, s. *9), (Emirdağ Lahikası, s. 259) ifadə etmişdir;* ancaq bu dinsiz axınların ortadan qalxması Bədiüzzaman həyatdaykən "tam mənasıyla" reallaşmamışdır.

9. "Hz. Mehdinin, "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi və bütün müsəlmanların mənəvi lideri" ünvanını daşıyaraq İslam əxlaqının əsaslarını yenidən canlandıracağını" *(Sikke-i Tasdik-i Gaybi, səh. 9),* açıqlamışdır; ancaq özü bütün inananların xəlifəsi (mənəvi lideri) xüsusiyyətini daşımamışdır.

10. "Hz. Mehdinin bütün dünyaya sülh, ədalət və haqqaniyyət gətirəcəyini və İslam aləmi üzərindəki zülmü qaldıracağını" *(Emirdağ Lahikası, səh. 259), (Mektubat, səh. 411-412), (Mektubat, səh. 440), (Şualar, səh. 456)* ifadə etmişdir; ancaq bu vəziyyət Bədiüzzaman həyatdaykən reallaşmamışdır.

11. "Hz. Mehdinin "Mücəddid-i Əkbər" yəni "ən böyük mücəddid" xüsusiyyətini daşıyacağını" *(Tılsımlar Mecmuası, səh. 168)* bildirmişdir; ancaq Bədiüzzaman bu ünvana sahib olmamışdır.

12. "Hz. Mehdinin bütün məzhəbləri qaldıracağını və "ən böyük müctəhid" *(ehtiyac olduğunda ayələrdən hökm çıxaran böyük İslam alimi və öndəri)* olaraq ictihad edəcəyini *(Tılsımlar Mecmuası, səh. 168), (Mektubat, səh. 411-412)* ifadə etmişdir; ancaq Bədiüzzaman məzhəbləri qaldırmamış, Şafi məzhəbinə tabe olmuşdur. *(Emirdağ Lahikası, səh. 38), (Büyük Tarihçe-İ Hayat, səh. 202), (Büyük Tarihçe-İ Hayat, səh. 206) (Emirdağ Lahikası, səh. 573)*

13. "Hz. Mehdinin İslam Birliyini təmin edəcəyini" *(Emirdağ Lahikası, səh. 260)* ifadə etmişdir; ancaq Bədiüzzaman yaşadığı dövrdə bütün dünya müsəlmanlarını tək bir dam altında yığaraq İslam Birliyini meydana gətirməmişdir.

14. "Hz. Mehdinin, bütün İslam alimlərinin, Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn seyidlərin və bütün müsəlmanların dəstəyini alacağını" *(Emirdağ Lahikası, səh. 260)* açıqlamışdır; ancaq Bədiüzzaman yaşadığı dövrdə belə geniş bir təbəqənin dəstəyini almamışdır.

15. "Hz. Mehdinin "üç böyük vəzifəsini" yerinə yetirərkən çox böyük bir maddi güc və hakimiyyət sahibi olacağını" *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)* ifadə etmişdir; ancaq Bədiüzzaman belə böyük bir maddi qüvvə və hakimiyyət əldə etməmişdir.

16. "Hz. Mehdinin Xristian dünyasıyla ittifaq edəcəyini" *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)* bildirmişdir; ancaq Bədiüzzaman belə bir ittifaqı reallaşdırmamışdır.

17. "Hz. Mehdinin hz. İsayla birlikdə namaz qılacaqlarını" *(Şualar, səh. 493)* ifadə etmişdir; ancaq Bədiüzzaman yaşadığı müddət içərisində hz. İsayla birlikdə olmamış və birlikdə namaz qılmamışdır.

18. **"Hz. Mehdinin Quran əxlaqını bütün dünyaya məskun edəcəyini və bütün insanları doğru yola sövq edəcəyini"** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9) (Mektubat, səh. 473)* **söyləmişdir; ancaq İslam əxlaqının dünya hakimiyyəti də Bədiüzzaman həyatdaykən reallaşmamışdır.**

19. **"Hz. Mehdinin, hz. İsa ilə birlikdə Süfyaniyyət və Dəccaliyyətin fikir sistemini təsirsiz hala gətirəcəklərini" açıqlamışdır; ancaq Bədiüzzaman hz. İsa ilə bir yerə gəlməmiş və bu fikir sistemləri təsirsiz hala gətirilməmişdir.**

## BƏDİÜZZAMANIN SÖZLƏRİ AÇIQDIR; BÜTÜN BUNLARIN "BATINİ TƏFSİR" ADI ALTINDA FƏRQLİ ŞƏKİLLƏRDƏ ŞƏRH OLUNMASI LAZIM OLDUĞU MƏNTİQİ, BƏDİÜZZAMANIN İZAHLARIYLA ZİDDİYYƏT TƏŞKİL EDİR

Bir kimsənin hz. Mehdi ola biləcəyindən bəhs edə bilmək üçün Bədiüzzamanın yuxarıda sayılan sözlərindəki bütün xüsusiyyətlərin "tək bir şəxs" üzərində görülməsi lazımdır. Bədiüzzaman həyatını İslam əxlaqının təbliğinə həsr etmiş, bu istiqamətdə çox böyük və şərəfli bir mübarizə etmişdir. Ancaq hz. Mehdinin bu xüsusiyyətlərinə sahib olmamış, dünya səviyyəsində yerinə yetirəcəyi vəzifələri yerinə yetirməmişdir.

Bədiüzzamanın sözləri və hz. Mehdiyə dair hələ reallaşmamış əlamətlər, Bədiüzzamanın Mehdi olmadığını açıqca ortaya qoyur. Ancaq bu həqiqət, zaman-zaman müxtəlif şəkillərdə şərh edilməyə çalışılır; Bədiüzzamanın sözlərinə həqiqi mənalarının xaricində bəzi şərhlər əlavə olunaraq fərqli düşüncələr gündəmə gətirilə bilinir. Hətta bu dünyagörüşü elə bir dərəcəyə gələ bilir ki, Bədiüzzamana böyük bir sevgi və hörmət edən kəslər də, Bədiüzzamanın söylədiklərinin aydın ola bilməsi üçün "risalələrdəki sözlərinin kafi olmayacağını" irəli sürə bilirlər. Bu sözləri, yalnız xüsusi sirlərə vəqf, xüsusi təfsir gücü olan, xüsusi qabiliyyətlərə və hisslərə sahib bəzi xüsusi kəslərin "batını təfsir" edərək anlaya biləcəyini müdafiə edirlər. Halbuki, bu kimi iddialar, belə qiymətli bir mücəddidin qələmə aldığı risalələrin hamısını şübhəli hala gətirəcək son dərəcə təhlükəli cəhdlərdir.

Bədiüzzamanın şəxsən özü, əsərlərində bir neçə dəfə bu mövzunun əhəmiyyətini ifadə etmiş; belə bir anlayışa qarşı olduğu istiqamətindəki fikirlərini bəyan etmişdir. Əgər risalələrdəki mətnlərin təfsirə ehtiyacı varsa, bunu yenə bu mətnlər üzərində ediləcək əlavə şərhlərlə açıqlamanın uyğun olacağını ifadə etmişdir. **Bu sözlərindən birində "Bədiüzzaman belə bir təfsir anlayışına gediləcək olunsa, bunun necə sui-istifadəyə yol verəcəyini və bu yolla risalələrdə izah edilən həqiqətlərin necə əslindən uzaqlaşıb dəyişəcəyini" belə xatırlatmışdır:**

**Nurun mətni, izaha ehtiyacı olsa, ya sətirin üstündə, ya kənarda haşiyəciklər (şərhlər) yazılsa, daha münasibdir (uyğundur).** Çünki mətn içinə girsə, çoxaldılan nüsxələr ayrı-ayrı olar, təshih (düzəltmə) lazım gəlir. **Həm SU-İ İSTİMALƏ QAPI AÇILAR, MUARIZLAR (qarşı çıxanlar) istifadə edərlər.** Həm hər kəs sənin kimi muhakkik (həqiqəti araşdırıb tapan) müdakkik (incədən incəyə tədqiq edən, ən kiçik gizli şeyləri belə görməyə çalışan) olmaz, SƏHV MƏNA VERƏR, BİR SÖZ ƏLAVƏ EDƏR, ƏHƏMİYYƏTLİ BİR HƏQİQƏTİ İTİRMƏYƏ SƏBƏB OLAR. Mən təshihatımda (düzəltmələrimdə) belə zərərli əlavələri çox gördüm... (Emirdağ Lahikası Elyazma, səh. 661)

Yaşadığı əsrin mücəddidi olan belə mübarək bir şəxsin, bütün dünya müsəlmanlarını yaxından maraqlandıran mehdiyyət mövzusundakı əhəmiyyətli şərhlərinin də batıni təfsir adı altında səhv şərh olunmaması son dərəcə əhəmiyyətlidir. Belə bir dünyagörüşü, risalələrin orijinal halından uzaqlaşmasına və müsəlmanların səhv məlumatlandırılmalarına səbəb olacaq. Bu da, Bədiüzzamanın hikmətli sözlərinin və qiymətli şərhlərinin gərəyi kimi təqdir edilə bilməməsinə gətirib çıxaracaq.

Bədiüzzaman əsərlərində "Risalə-i Nurun hər bir kitabı bir Səiddir. Siz hansı kitaba baxsanız, mənimlə qarşı-qarşıya görüşməkdən on dəfə çox həm faydalanar, həm həqiqi bir surətdə mənimlə görüşmüş olarsınız. Risalə-i Nur mənə heç bir ehtiyac buraxmır." (Emirdağ Lahikası, səh. 159) şəklində bildirmişdir. Deməli, risalələr, hər hansı bir mövzuda Bədiüzzamanın bütün qənaətlərini ən aydın və doğru şəkildə əks etdirir. Mehdiyyət mövzusunda da Bədiüzzaman çox aydın olar izahlar edib, "özünün ya da onun şəxsi mənəvisi kimi Risalə-i Nurun mehdiyyət vəzifəsini boynuna götürməmiş olduğunu; Axırzamanın "Böyük Mehdi"sinin, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və risalələrdə yüzlərlə səhifə boyu izah edilən xüsusiyyətlərə sahib olmasıyla tanınacağını" heç bir müzakirəyə yer verməyəcək şəkildə izah etmişdir.

# ƏLAVƏ BÖLMƏ:
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**- Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş verмədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini

sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və

mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər.

Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah’ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır.

Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində

əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə

heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr,

həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Hicri XIII əsrin mücəddidi Bədiüzzaman Səid Nursinin Risalə-i Nur Külliyyatında üzərində dayandığı mövzulardan biri, -Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanda bütün müsəlmanlara bir rəhmət və bir hidayət öndəri olaraq göndəriləcəyini bildirdiyi- hz. Mehdidir.

Bədiüzzaman əsərlərində "şəxsi mənəvi" anlayışından bəhs etmişdir. Ancaq, bu anlayışın bəzən, "Bədüzzamanın istifadə etdiyi mənadan tamamilə fərqli" şərh olunduğu görünür.

Bədiüzzamanın, Peyğəmbərimiz (s.ə.v) tərəfindən "Mehdi" olaraq adlandırılan bu mübarək adamın gəlişinə istiqamətli izahları çox qəti, aydın və dəqiqdir.

Bu səbəblə əlinizdəki kitabçanın ilk hissəsində Bədiüzzamanın, hz. Mehdinin bir şəxs olaraq gələcəyini izah etdiyi açıqlamaları ələ alınır və bu mövzudakı səhv şərhlərə aydınlıq qazandırır.

Kitabın digər hissə başlıqları isə bu şəkildədir:

"Bədiüzzaman hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini necə açıqlamışdır?", "Bədiüzzaman əsərlərində, özünün son mücəddid və Mehdi olmadığını dəlilləriylə birlikdə açıqlamışdır."